# QURANIN HƏYATA TƏQDİM ETDİYİ GÖZƏLLİKLƏR

... Biz Kitabı sənə hər şey üçün bir izah,
müsəlmanlara da doğru yol göstəricisi,
mərhəmət və müjdə olaraq nazil etdik.
(Nəhl surəsi, 89)

HARUN YƏHYA

# İÇİNDƏKİLƏR

GİRİŞ

QURANDA İŞARƏ EDİLƏN GÖZƏL DAVRANIŞLAR

QURANDA İŞARƏ EDİLƏN AĞILLI TƏDBİRLƏR

QURANDA DİQQƏT ÇƏKİLƏN TƏBLİĞ ÜSULLARI

QURANDA FAYDALARINA DİQQƏT ÇƏKİLƏN HEYVANLAR

QURANDA FAYDALARINA DİQQƏT ÇƏKİLƏN QİDALAR

QURANDA ESTETİKA VƏ SƏNƏT

QURANDA MƏKAN TƏSVİRLƏRİ

DARVİNİZMİN ÇÖKÜŞÜ

# OXUCUYA

Bu kitabda və digər işlərimizdə təkamül nəzəriyyəsinin süqutuna xüsusi yer ayrılmasının səbəbi bu nəzəriyyənin hər cür din əleyhdarı olan fəlsəfənin təməlini meydana gətirməsidir. Yaradılışı və dolayısilə, Allahın varlığını inkar edən darvinizm 150 ildir ki, bir çox insanın imanını itirməsinə və ya şübhəyə düşməsinə səbəb olmuşdur. Buna görə də, bu nəzəriyyənin yalan olduğunu gözlər önünə gətirmək əhəmiyyətli imani bir vəzifədir. Bu əhəmiyyətli xidmətin bütün insanlığa çatdırılması isə zəruridir. Bəzi oxucularımız ola bilər ki, yalnız bir kitabımızı oxumaq imkanı tapa bilər. Bu səbəblə, hər kitabımızda bu mövzuya xülasə də olsa yer ayrılması uyğun hesab edilmişdir.

Qeyd edilməsi lazım olan başqa bir xüsus da bu kitabların məzmunu ilə əlaqədardır. Yazıçının bütün kitablarında imani mövzular Quran ayələri yönündə izah edilir və insanlar Allahın ayələrini öyrənməyə və yaşamağa dəvət edilirlər. Allahın ayələri ilə əlaqədar bütün mövzular oxucuda heç bir şübhə və ya sual buraxmayacaq şəkildə açıqlanmışdır.

Bu mövzuda istifadə edilən səmimi, sadə və səlis üslub isə kitabların hamı tərəfindən rahat başa düşülməsini təmin edir. Bu təsirli və sadə izah sayəsində kitablar "bir nəfəsə oxunan kitablar" ibarəsinə tam uyğun gəlir. Dini qəti şəkildə rədd edən insanlar belə bu kitablarda bildirilən həqiqətlərdən təsirlənir və yazılanların doğruluğunu inkar edə bilmirlər.

Bu kitab və yazıçının digər əsərləri oxucular tərəfindən şəxsən oxuna biləcəyi kimi, qarşılıqlı söhbət şəraitində də oxuna bilər. Bu kitablardan istifadə etmək istəyən bir qrup oxucunun, kitabları bir yerdə oxumaları mövzu ilə əlaqədar öz təfəkkür və təcrübələrini də bir-birlərinə ötürmək baxımından faydalıdır.

Bununla belə, yalnız Allahın razılığı üçün yazılan bu kitabların tanınmasında və oxunmasında iştirak etmək də böyük xidmətdir. Çünki yazıçının bütün kitablarında isbat və razı salıcı yön son dərəcə güclüdür. Bu səbəblə, dini izah etmək istəyənlər üçün ən təsirli üsul bu kitabların digər insanlar tərəfindən də oxunmasının təşviq edilməsidir.

Kitabların arxasına yazıçının digər əsərlərinin təqdimatının əhəmiyyətli səbəbləri vardır. Bu sayədə kitabı nəzərdən keçirən şəxs yuxarıda yazılan xüsusiyyətləri daşıyan və oxumaqdan xoşlandığını ümid etdiyimiz bu kitabla eyni xüsusiyyətlərə sahib daha bir çox əsərin olduğunu görər, imani və siyasi mövzularda faydalana biləcəyi zəngin bir qaynağın mövcudluğuna şahid olacaq.

Bu əsərlərdə digər bəzilərində görülən, yazıçının şəxsi qənaətlərinə və şübhəli qaynaqlara əsaslanan izahlara, müqəddəsata qarşı lazım olan ədəb və hörmətə diqqət yetirilməyən üslublara, şübhəli və həmçinin incidici yazılara rast gələ bilməzsiniz.

# YAZIÇI VƏ ƏSƏRLƏRİ HAQQINDA

Harun Yəhya təxəllüsündən istifadə edən yazıçı Adnan Oktar 1956-cı ildə Ankarada anadan olmuşdur. İbtidai və orta təhsilini Ankarada almışdır. Daha sonra İstanbul Memar Sinan Universitetinin İncəsənət fakültəsində və İstanbul Universitetinin Fəlsəfə bölməsində təhsil almışdır. 1980-ci illərdən bu yana imani, elmi və siyasi mövzularda bir çox əsər hazırlamışdır. Bununla yanaşı, yazıçının təkamülçülərin saxtakarlıqlarını, iddialarının əsassızlığını və darvinizmin qanlı ideologiyalarla olan qaranlıq əlaqələrini ortaya qoyan çox əhəmiyyətli əsərləri vardır.

Harun Yəhyanın əsərləri təxminən 30.000 şəklin olduğu cəmi 45.000 səhifəlik külliyyatdır və bu külliyyat 60 fərqli dilə tərcümə edilmişdir.

Yazıçının təxəllüsü inkarçı düşüncəyə qarşı mübarizə aparan iki peyğəmbərin xatirəsinə hörmət olaraq adlarını yad etmək üçün Harun və Yəhya adlarından götürülmüşdür. Yazıçı tərəfindən kitabların üz qabığında Rəsulullahın (səv) möhürünün olmasının simvolik mənası isə kitabların məzmunu ilə əlaqədardır. Bu möhür Qurani-kərimin Allahın son kitabı və son sözü, Peyğəmbərimizin (səv) xatəmül-ənbiya olduğunun rəmzidir. Yazıçı bütün yayımlarında Quranı və Rəsulullahın sünnəsini özünə rəhbər etmişdir. Bu surətlə, inkarçı düşüncə sistemlərinin bütün təməl iddialarını bir-bir ortadan qaldırmağı və dinə qarşı yönələn etirazları tam susduracaq son sözü söyləməyi əsas almışdır. Böyük hikmət və kamal sahibi olan Rəsulullahın möhüründən bu son sözü söyləmək niyyətinin duası olaraq istifadə edilmişdir.

Yazıçının bütün işlərindəki ortaq hədəf Quranın təbliğini dünyaya çatdırmaq, beləliklə, insanları Allahın varlığı, birliyi və axirət kimi təməl imani mövzular üzərində düşünməyə sövq etmək və inkarçı sistemlərin əsassız təməllərini və azğın tətbiqlərini gözlər önünə çəkməkdir.

Necə ki, Harun Yəhyanın əsərləri Hindistandan Amerikaya, İngiltərədən İndoneziyaya, Polşadan Bosniya-herseqovinaya, İspaniyadan Braziliyaya, Malayziyadan İtaliyaya, Fransadan Bolqarıstana və Rusiyaya qədər dünyanın əlavə bir çox ölkəsində sevilərək oxunur. İngilis, fransız, alman, italyan, ispan, portuqal, urdu, ərəb, alban, rus, boşnaq, uyğur, İndoneziya, Malay, benqal, serb, bolqar, Çin, Danimarka və İsveç dili kimi bir çox dilə tərcümə edilən əsərlər xaricdə geniş oxucu kütləsi tərəfindən izlənilir.

Dünyanın dörd tərəfində fövqəladə təqdir toplayan bu əsərlər bir çox insanın iman etməsinə, bir çoxunun da imanında dərinləşməsinə vəsilə olur. Kitabları oxuyub araşdıran hər kəs bu əsərlərdəki hikmətli, dolğun, asan aydın olan və səmimi üslubun, ağıllı və elmi yanaşmanın fərqində olar. Bu əsərlər sürətli təsir etmə, qəti nəticə vermə, etiraz və təkzib

edilə bilinməyən xüsusiyyətləri daşıyır. Bu əsərləri oxuyan və üzərində ciddi şəkildə düşünən insanların artıq materialist fəlsəfəni, ateizmi və digər azğın görüş və fəlsəfələrin heç birini səmimi olaraq müdafiə etmələri mümkün deyil. Bundan sonra müdafiə etsələr də, ancaq romantik inadla müdafiə edəcəklər. Çünki fikri dayaqları aradan götürülmüşdür. Dövrümüzdəki bütün inkarçı cərəyanlar Harun Yəhya külliyyatı qarşısında fikirlə məğlub olmuşlar.

Şübhəsiz, bu xüsusiyyətlər Quranın hikmət və ifadə təsirliliyindən qaynaqlanır. Yazıçı bu əsərlərə görə öyünmür, yalnız Allahın hidayətinə vəsilə olmağa niyyət etmişdir. Bundan başqa, bu əsərlərin çap və nəşrində hər hansı bir maddi qazanc güdülmür.

Bu həqiqətlər göz önünə gətirildikdə insanların görmədiklərini görmələrini təmin edən, hidayətlərinə vəsilə olan bu əsərlərin oxunmasını təşviq etməyin də çox əhəmiyyətli xidmət olduğu ortaya çıxır.

Bu qiymətli əsərləri tanıtmağın yerinə insanların zehinlərini bulandıran, fikri qarışıqlıq meydana gətirən, şübhə və tərəddüdləri aparmaq və imanı qurtarmaq üçün güclü və iti təsiri olmadığı ümumi təcrübə ilə sabit olan kitabları yaymaq isə əmək və zaman itkisinə səbəb olar. İmanı qurtarmaq məqsədindən çox, yazıçının ədəbi gücünü vurğulamağa yönələn əsərlərdə bu təsirin əldə edilə bilməyəcəyi məlumdur. Bu mövzuda şübhəsi olanlar varsa, Harun Yəhyanın əsərlərinin tək məqsədinin dinsizliyi yox etmək və Quran əxlaqını yaymaq olduğunu, bu xidmətdəki təsir, müvəffəqiyyət və səmimiyyətin açıq şəkildə göründüyünü oxucuların ümumi qənaətindən anlaya bilərlər.

Bilmək lazımdır ki, dünyadakı zülm və qarışıqlıqların, müsəlmanların çəkdiyi əziyyətlərin təməl səbəbi dinsizliyin fikri hakimiyyətidir. Bunlardan xilas olmağın yolu isə dinsizliyin fikirlə məğlub edilməsi, iman həqiqətlərinin ortaya qoyulması və Quran əxlaqının insanların qavrayıb yaşaya biləcəkləri şəkildə izah edilməsidir. Dünyanın gündən-günə daha çox büründüyü zülm, fəsad və qarışıqlıq mühiti diqqətə alındığında bu xidmətin mümkün qədər sürətli və təsirli şəkildə edilməsinin lazım olduğu aydındır. Əks halda, çox gec ola bilər.

Bu əhəmiyyətli xidmətdə öndərliyi üzərinə götürən Harun Yəhya külliyyatı Allahın izni ilə 21-ci əsrdə dünya insanlarını Quranda təsvir edilən hüzur, sülh, düzgünlük, ədalət, gözəllik və xoşbəxtliyə daşımağa vəsilə olacaq.

# GİRİŞ

Bütün insanlara göndərilmiş Quranın insan həyatına təqdim etdiyi gözəlliklərdən xəbərdarsınızmı? Allahın bütün insanlara göndərdiyi Haqq Kitabı nə qədər tanıyırsınız?

Quranda insanlara, niyə yaradıldıqları, nə məqsədə var edildikləri, bu məqsəd istiqamətində necə yaşamaları lazım olduğu, qulluq vəzifəsini nə şəkildə yerinə yetirəcəkləri və bunu etdikləri ya da etmədikləri təqdirdə özlərini necə bir aqibətin gözlədiyi bildirilir. İnsanlar, gözələ, doğruya, təmizə və əbədi xoşbəxtliyə çağırılır. Quran, Allahın qullarına bir rəhmət, hidayət, rəhbər olaraq göndərdiyi Haqq Kitabdır. Allah Quranın bu xüsusiyyətlərini bir çox ayəsində bildirir:

**Onların rəvayətlərində ağıl sahibləri üçün bir ibrət vardır. Bu Quran uydurulmuş bir kəlam deyildir. Ancaq özündən əvvəlkiləri təsdiqləyən və hər şeyi müfəssəl izah edəndir; iman gətirən bir camaat üçün hidayət və mərhəmətdir. (Yusif surəsi, 111)**

**Bu, qətiyyən şübhə doğurmayan, müttəqilərə doğru yol göstərən bir Kitabdır. (Bəqərə surəsi, 2)**

Quran, hər dövrə xitab edən kitabdır. Quranda insanın həyatı boyunca ehtiyac duyacağı əsas mövzuların hamısı mövcuddur. İbadətlər, müsəlmanda olması lazım olan ruh halı, gözəl əxlaq, ani vəziyyətlər və çətin anlardakı gözəl rəftar, fiziki cəhətdən və ruhən sağlam yaşamanın yolları, ölüm anı, hesab günündə yaşanacaq hadisələr, ardından insanları gözləyən cənnət və cəhənnəm, Allahın qullarına göndərdiyi bu kitabda yazılıdır.

Quran, hökmlərlə və gözəl əxlaqa dair məlumatlarla yanaşı, insanın bütün həyatına dair tövsiyələr, işarələr ehtiva edən, müxtəlif insan xarakterlərini tanıdan və bunun kimi bir çox mövzuda möminlərə yol göstərən bir bələdçidir. Allah bir ayəsində Quranın bu xüsusiyyətini bu şəkildə vurğulamışdır:

**... Biz Kitabı sənə hər şey üçün bir izah, müsəlmanlara da doğru yol göstəricisi, mərhəmət və müjdə olaraq nazil etdik. (Nəhl surəsi, 89)**

Qurana uyan və ayələrdə bildirilən tövsiyələrə uyğun olaraq həyat sürənlər isə, yalnız möminlərdir.

Allah insanı yaratmış və Öz Qatından göndərdiyi Quran vasitəsiylə ona, hər mövzuyla əlaqədar ən faydalı həlləri açıqlamış, ehtiyac duyacağı hər cür yol göstərici məlumatı

vermişdir. Bu səbəbdən hər hansı mövzunu araşdırarkən, Allahın ayələrinə və ayələrin göstərdiyi düşüncə metodlarına görə davranmaq əsasdır. Bir insan nə qədər təcrübəli olursa olsun və ya nə qədər yüksək mədəniyyət səviyyəsinə çatırsa çatsın, məlumatı yenə də məhduddur. Çünki bütün məlumat Allaha aiddir, insan ancaq Onun dilədiyi və təqdir etdiyi qədər məlumata sahib ola bilər.

**Onlar dedilər: "Sən pak və müqəddəssən! Sənin bizə öyrətdiklərindən başqa bizdə heç bir bilik yoxdur! Həqiqətən, Sən Bilənsən, Müdriksən!" (Bəqərə surəsi, 32)**

Bu səbəblə, dünya həyatında gözəl həyat sürmək istəyən adam, hər şeyin ən doğrusunu bilən və hər şeyin yaradılışı Özünə aid olan Allahın endirdiyi Quran yönündə həyat tərzini mənimsəməlidir. Bu sayədə düşünən və Allahdan qorxan insanlara məxsus olan "**ağıla**" sahib olar, son dərəcə şərəfli həyat yaşayar, xoşbəxt və dinc olar, ən əhəmiyyətlisi belə insanın həyatının böyük mənası olar və bunlar kimi müxtəlif gözəllikləri bir yerdə yaşayar. Edilməsi lazım olan yalnız, Allaha və Qurana tam təslimiyyət içərisində olmaq, bununla birlikdə Quranın əmr və tövsiyələrini və bunların altında gizlənən incəlikləri araşdırmaq, görmək və həyata keçirməkdir.

Bu işdəki məqsəd, Quranın işarə etdiyi mənaları ələ almaq, bunlarda insan həyatı üçün faydalı olan nöqtələrə diqqət çəkməkdir. Bununla yanaşı, Quran ilə düşünmənin, Qurana görə davranmanın və həyatı Quran istiqamətində yaşamanın nə şəkildə olacağının qavranmasına vəsilə ola bilməkdir.

# QURANDA İŞARƏ EDİLƏN GÖZƏL DAVRANIŞLAR

İnanan insanın ruh halını, rəftarını, üstün əxlaqını Allah bir çox ayəsində təsvir etmişdir. Möminlərin içlərindəki Allah qorxusu, heç bir şübhəyə yer verməyən qüvvətli imanları, həmişə Allahın razılığını axtarışları, hər hadisədə Rəbbimizə güvənmələri, təvəkkülləri, qərarlılıqları, şövqləri, axirətə qəti olaraq inanmaları, etibarlı olmaları və bunun kimi sahib olduqları bir çox üstün xüsusiyyət Quranda bildirilmişdir. Bundan əlavə, Allaha iman edən insanın ədaləti, şəfqəti, təvazökarlığı, etidalı, səbri, Allaha təslimiyyəti, boş sözdən üz çevirməsi və bunun kimi bir çox əxlaqi xüsusiyyəti də ayələrlə tərif edilmişdir.

Quranda, detalları ilə təsvir edilən mömin modeli ilə bərabər, keçmiş dövrdə yaşamış möminlərin həyatları, onların davranışları, danışıqları və hadisələrə göstərdikləri reaksiyalardan, Allaha etdikləri dualardan verilən nümunələr də vardır. Allah bu nümunələrlə, möminlər üçün bəyəndiyi rəftarlara diqqət çəkmişdir.

Qurandan uzaq cəmiyyətin (cahiliyyə cəmiyyəti) dünya görüşü ilə qiymətləndirildiyində, məqbul olan davranışlar zamana, şərtlərə, mədəniyyətlərə, ənənələrə, hadisələrə və insanlara görə dəyişər. Amma Qurana uyan insan üçün, zaman, məkan, mühit ya da şərtlər nə qədər dəyişirsə dəyişsin, ideal mömin modeli dəyişməz. İmanlı insan hər vaxt Allahın Quranda təsvir etdiyi və işarə etdiyi istiqamətdə davranaraq gözəl rəftar sərgiləyər.

Bu hissədə, Allahın ideal olaraq göstərdiyi rəftardan nümunələr veriləcək. Ancaq Quranda çox geniş şəkildə izah edilən bütün mömin xüsusiyyətlərinə deyil, bu gözəl əxlaq xüsusiyyətlərini geniş incəliklərə və “**gizli mesajlar**” şəklində bildirilən hikmətlərə diqqət çəkiləcək.

## Təmizlik Anlayışı

Təmizlik, Allahın hökmüdür, möminlərin ruhlarına və yaradılışına ən uyğun olan davranış şəklidir. Buna görə ibadət olaraq tətbiq etdikləri təmizlik, möminlərə bir tərəfdən də, çox böyük zövq və rahatlıq verər. Allah möminlərin maddi və mənəvi hər istiqamətdən təmiz olduqlarına bir çox ayəsində diqqət çəkmişdir. Quranda möminlərin təmizliyi ilə əlaqədar diqqət çəkilən detallardan bəziləri bunlardır:

### Ruhda yaşanan təmizlik

Quranda diqqət çəkilən təmizlik anlayışı, cahiliyyə cəmiyyətinin bu mövzudakı qavrayışından və tətbiqlərindən olduqca fərqlidir. Qurana uyğun təmizlik əvvəlcə ruhda yaşanar. Qurana uyğun olmayan bütün əxlaq xüsusiyyətlərindən, məntiq anlayışından və həyat tərzindən tam mənasıyla uzaqlaşıb təmizlənmək, insana mənəvi təmizlik imkanı verər.

Təmizliyin bu ilk mərhələsi ağılda yaranan dərinlik və aydınlıq ilə özünü göstərər. Şübhəsiz, bu son dərəcə əhəmiyyətli xüsusiyyətdir. İnsanlar ruhlarında yaşadıqları təmizliyi maddi və mənəvi olaraq həyatının hər mərhələsinə keçirər və bu şəkildə də, əxlaqında yaranan təmizliyi kənara əks etdirər.

Mənəvi təmizliyə sahib olan insan, ağlından və vicdanından hər cür pisliyi uzaqlaşdırmışdır. Qurandan xəbərsiz insanların son dərəcə normal qarşılayaraq yaşadıqları kin, qısqanclıq, zalımlıq, eqoizm kimi bəzi çirkin xüsusiyyətləri ruhunda əsla yaşamaz. Yüksək əxlaqa diqqət etdiyi üçün, yüksək ruha malikdir. Bu səbəblə möminlər yalnız xarici görünüşlərinə deyil, içlərində, yəni ruhlarında yaşadıqları təmizliyə də əhəmiyyət verərlər. Cahiliyyənin bütün pisliklərindən təmizlənmiş bu davranış şəklini özləri yaşadıqları kimi ətraflarında da yaşatmağa çalışarlar.

## Fiziki təmizlik

İnanan insanın dünyada yaratmaq istədiyi mühit cənnət mühitinin bənzəridir. Allahın, cənnətdə olacağını vəd etdiyi hər şeyi möminlər dünyada da, mümkün olduğu qədər yaşamağa çalışarlar. Necə ki, cənnətlə əlaqədar xəbər verilən detallardan biri də, oradakı insanların fiziki təmizliyidir. Cənnətdə olan insanlardan bəhs edilən ayələrdə onların sanki (hər biri) "...**qorunub saxlanılan mirvari kimi...**" (Tur surəsi, 24) olduqları xəbər verilmişdir. Bundan başqa cənnətdə insanlar üçün "**tərtəmiz zövcələr**" (Bəqərə surəsi, 25) olduğu da bir çox ayə ilə müjdələnmişdir.

Quranda Allah hz. Yəhya üçün **"... təmizlik (də verdik) ..."** (Məryəm surəsi, 13) deyərək möminlərin təmizliyinə diqqət çəkmişdir.

## Geyim, libasın təmiz və baxımlı olması

Quranda yalnız, möminlərin fiziki təmizliyinə deyil, geydikləri paltarların da təmiz olmasının vacibliyinə diqqət çəkilmişdir. Ayədə belə bildirilir:

**Geyimini təmiz saxla! Pis şeyləri tərk et! (Müddəssir surəsi, 4-5)**

Təmizlik və baxım mövzusunu əhəmiyyətli edən başqa istiqamət də, insanın həm özünə, həm də möminlərə olan hörmətini əks etdirməsidir. Bəslədiyi bu dərin hörmət, etinanı da özü ilə gətirər. Mömin yalnız pislikdən çəkinməklə qalmaz, içində yaşadığı dərin hörməti vurğulayan incəliklər də sərgiləyər. Məsələn, bir insan çox təmiz paltar geyərək də, qarşısındakı insana olan hörmətini göstərə bilər. Allah Quranda belə buyurur:

**Ey Adəm oğulları! Məscidlərə gedərkən gözəl geyimlərinizi geyin. ... (Əraf surəsi, 31)**

Bu ayədən də aydın olduğu kimi, möminlərin həmişə təmiz, baxımlı olmaları və hər mövzuda olduğu kimi ən yaxşısını axtarmaları Allahın bəyəndiyi rəftardır. Əksinə bir hal ancaq cahiliyyə cəmiyyətinin insanlarına aiddir.

Burada unudulmaması lazım olan əhəmiyyətli nöqtə vardır. İnsanlar ümumiyyətlə cəmiyyət içində əhəmiyyətli gördükləri kəslərin qarşısında baxımlı olmağı, özlərini bəyəndirmələri lazım olan mühitlərdə özlərinə diqqət göstərməyi seçərlər. Halbuki mömin, Quran əxlaqının gərəyi olaraq başqaları üçün deyil, Allahın bəyəndiyi rəftar olduğu və özünün də təbii olaraq rahatladığı rəftar bu olduğu üçün təmizliyi və baxımı tətbiq edər.

Mömin cənnətə layiq görülən insandır və dünyada da cənnətdəki təmizliyi, gözəlliyi həm öz üzərində, həm ətrafında yaratmağa çalışar.

## Yaşanan yerlərin təmiz olması

Özlərini və geyimlərini təmiz saxlayan müsəlmanlar, eyni şəkildə yaşadıqları mühitlərin nizamına da son dərəcə diqqət göstərərlər. Quranda bu mövzuda verilən nümunələrdən biri hz. İbrahim ilə əlaqədardır. Allah hz. İbrahimə Kəbəni, orada ibadət edəcək möminlər üçün təmizləməsini əmr etmişdir:

**Bir zaman Biz İbrahimə evin (Kəbənin) yerini nişan verib: “Mənə heç bir şeyi şərik qoşma, evimi təvaf edənlər, namaza duranlar, rüku və səcdə edənlər üçün təmizlə!” – demişdik. (Həcc surəsi, 26)**

Ayənin ifadəsindən də aydın olduğu kimi, Allah bu təmizliyin əvvəlcə o məkanı istifadə edəcək və orada Allahın razılığını qazanmaq məqsədiylə ibadət edəcək kəslər üçün edilməsini bildirmişdir. Bu səbəblə hz. İbrahimdən sonra gələn bütün möminlər də eyni onun tətbiq etdiyi kimi, Allahın bu buyruğu istiqamətində, möminlərin yaşadığı məkanları təmiz, estetik və gözə xoş gələcək şəkildə mühafizə etməlidirlər.

Üstəlik Quranda bildirilən təmizlik anlayışı cahiliyyə cəmiyyətlərində yaşanandan çox fərqlidir. Allah möminlərin fiziki və mənəvi, hər yöndən "**tərtəmiz**" olmalarını istəyir. Yəni möminlərin yaşadığı klassik mənada təmizlik deyil, çox detallı, incəliklə düşünülərək edilən təmizlikdir.

Quranda cənnət həyatına bağlı olaraq edilən təsvirlər də, möminlər üçün bu mövzuda yol göstəricidir. Cənnət mühiti, dünyada qarşılaşılan hər cür çirkdən təmizlənmiş, hər detalın qüsursuz nizam və uyğunlaşma içərisində olduğu, gözəlliklərlə dolu, tərtəmiz məkan olaraq izah edilir. Məhz möminlər də, bu təsvirlər istiqamətində, dünya şərtlərində sahib olduqları imkanlarla cənnəti xatırladacaq mükəmməllikdə mühitlər yaratmaq üçün səy göstərərlər. Bu səy, möminlərin cənnətə olan həsrətlərindən qaynaqlanar.

## Yeməklərin təmiz olması

Möminlərin, bu əxlaqlarının gərəyi olaraq diqqət göstərdikləri başqa mövzu da, yeməklərin təmiz olanlarını seçmələridir. Bu, Allahın Quranda möminlər üçün bildirdiyi bir əmridir. Bu mövzuya diqqət çəkən bir çox ayədən bir neçəsi belədir:

**... Sizə ruzi olaraq verdiyimiz pak şeylərdən yeyin ... (Bəqərə surəsi, 57)**

**Ey insanlar! Yerdə olan halal və təmiz ruzilərdən yeyin, şeytanın addım izləri ilə getməyin! O, sizin açıq-aşkar düşməninizdir. (Bəqərə surəsi, 168)**

Allah möminlərin təmiz yeməkləri seçdiklərinə Kəhf səhabələrindən bəhs etdiyi hekayədə də işarə etmişdir. Ayələrdə Kəhf əhlinin yeyəcək almağa getdiklərində ən təmiz yeməklər aldıqlarını belə xəbər verilmişdir:

**... Birinizi bu gümüş pulunuzla şəhərə göndərin. Qoy baxsın ən təmiz yemək hansıdırsa, ondan sizə azuqə gətirsin. ... (Kəhf surəsi, 19)**

Bu mövzu, "**Quranda tövsiyə edilən yeməklər**" hissəsində daha geniş şəkildə araşdırılacaq.

## Hərəkət etmənin, yuyunmanın və su içmənin sağlamlıq qazandırıcı yönü

Quranda diqqət çəkilən davranışlardan biri də, hz. Əyyuba gələn bir vəhyi izah edən ayələrdə gizlidir:

**Qulumuz Əyyubu da yada sal! Bir zaman o öz Rəbbinə yalvarıb demişdi: "Şeytan mənə bəla və əzab toxundurmuşdur!" Biz ona dedik: "Ayağını yerə vur! Budur yuyunmaq və içmək üçün sərin su!" (Sad surəsi, 41-42)**

Hz. Əyyuba şeytanın verdiyi çətinlik və narahatlığa qarşılıq Allahın bildirdiyi tövsiyələrdən biri "**ayağını hərəkət etdirməsidir.**" Ayədə keçən bu ifadə hərəkət etmənin, idman etmənin faydalarına işarə etmiş ola bilər.

İdman əsnasında, xüsusilə ayaq əzələləri kimi uzun əzələlərin hərəkət etdirilməsi (izometrik hərəkətlər) ilə qan dövranı sürətlənər, hüceyrələrə gedən oksigen miqdarı artar. Bunun nəticəsində insanın üzərindəki yorğunluq yox olar, toksik maddələrin orqanizmdən atılması ilə insan rahatlaşar. Eyni zamanda orqanizm mikroblara qarşı daha çox müqavimətli hala gələr. Nizamlı şəkildə məşq edən kəslər geniş və təmiz damarlara sahib olarlar. Bu da damarların tıxanmasını, bu səbəbdən ürək xəstəliklərinin yaranmasının qarşısını alar. Bundan əlavə, nizamlı edilən məşq, qan şəkərinin tarazlığını təmin edərək şəkər xəstəliyinin qarşısının alınmasında rol oynayar. İdmanın qaraciyərə müsbət təsirləri, "**yaxşı xolesterol**" deyə adlandıra biləcəyimiz xolesterol səviyyəsini yüksəldər.

Həm də ayaqların çılpaq olaraq yerə vurulması bədəndə yığılmış statik elektrikin boşaldılmasında çox təsirli üsuldur. Bu üsul bədən üçün bir cür torpaqlama vəzifəsi görər.

Bununla bərabər ayədə diqqət çəkildiyi kimi yuyunmanın da, bədəndəki statik elektrikin atılmasında ən təsirli üsul olduğu bilinir. Yuyunduqda bədəndə yaranan fiziki təmizliklə bərabər gərginlik və halsızlıq da azalar. Bu səbəblə yuyunmaq, həm stress, həm də qızdırmalı xəstəliklər başda olmaq üzrə, bir çox fiziki və psixoloji narahatlıq üzərində müalicəvi təsirə malikdir.

Ayədə, yuyunmaqdan əlavə olaraq bir də su içilməsi tövsiyə edilmişdir. Suyun bədənin hər orqanı üzərində yaratdığı faydalar göz ardı edilə bilməyəcək qədər çoxdur. Tər bezləri, mədə, bağırsaqlar, böyrəklər, dəri və bunlar kimi daha bir çox orqanın sağlamlığı, suyun bədənə yetəri miqdarda alınmasına bağlıdır. Bu mövzuda yaranacaq hər hansı narahatlığın qarşısını yenə su ilə edilən möhkəmlətmə ilə almaq olar. Halsızlığın, yorğunluğun və yuxu halının düzəlməsi də yenə bədəndəki su miqdarının artırılması və beləcə nizamlı olaraq toksik maddələrdən təmizlənilməsi təmin edilərək reallaşar.

Hər biri bədən və ruh sağlamlığımız üçün həyati əhəmiyyət daşıyan bu tövsiyələrin bir yerdə tətbiq olunması isə, ən ideal nəticəni verəcək.

## Quranda tövsiyə edilən yerimə (gəzmək) modeli

Qürurlu insanlar öz üstünlük iddialarını nə qədər çox vurğulayarlarsa, cəmiyyət içərisində o qədər çox təqdir toplayacaqlarını zənn edərlər. Bunun üçün yerimə, danışma, baxma kimi hərəkətlərində şişirdilmiş və diqqət çəkici rəftarlara diqqət edərlər. Bəhs olunan insanların xüsusilə yerimə şəkillərində bunların izlərini görmək mümkündür.

Allah, Quranda lovğalanaraq yerimənin çirkin davranış olduğuna, hz. Loğmanın oğluna verdiyi öyüdləri izah edən ayələrdə diqqət çəkmişdir:

**İnsanlardan təkəbbürlə üz çevirmə, yer üzündə özünü darta-darta gəzib dolanma. Həqiqətən, Allah heç bir özündən razını, özünü öyəni sevmir. (Loğman surəsi, 18)**

Bir başqa ayədə də möminlər lovğalanaraq yeriməkdən belə çəkindirilərlər:

**Yer üzündə təkəbbürlə gəzmə. Çünki sən nə yeri yara bilər, nə də yüksələrək dağlara çata bilərsən. (İsra surəsi, 37)**

Allah bu ayələriylə böyüklük göstərib lovğalanan insanları sevmədiyini bildirmiş və belə rəftardan çəkinməyi xatırlatmışdır. Unutmamaq lazımdır ki, şeytanın Allahın hüzurdan qovulmasının səbəbi, onun qürurudur. Özünün, bütün digər yaradılmış varlıqlardan üstün olduğunu iddia etmişdir. Bunu düşünən bir mömінin isə, şeytanın daşıdığı qüruru xatırladacaq hər hansı rəftarı göstərməsi mümkün deyil.

Heç kim qürurlu insanlardan və onların yanında olmaqdan xoşlanmaz. Lovğalanaraq yeriyən və üstünlük iddiasında olan bir kimsənin də, əslində bütün insanlar kimi müxtəlif əksikliklərə və acizliklərə sahib olan sıravi insan olduğu hər kəs tərəfindən bilinir. Bu səbəbdən qürurlu insanlar böyümə arzusu içində olduqları halda məqsədlərinə çata bilməz, əksinə kiçik və gülünc vəziyyətlərə düşərlər.

Quranda, bir tərəfdən lovğalanaraq yeriməkdən çəkinməyə diqqət çəkilərkən, bir tərəfdən şişirtmə və nümayişdən uzaq bir yerimə şəkli tövsiyə edilmişdir. "**Yerişində həddi gözlə...**" (Loğman surəsi, 19) ayəsiylə, Allah təvazökar yerimə şəklinin doğru olduğunu xəbər verir. Təvazökar olan insan Allahın əmrinə uyaraq, bütün rəftarında olduğu kimi yeriməsində də orta yol tutmaqla Allah Qatında da, möminlərin gözündə də hörmətli olar.

## Allahın tövsiyə etdiyi səs tonu

Bir insanın müsbət və sabit xarakter əks etdirməsində, yeriməsi qədər istifadə etdiyi səs tonu da əhəmiyyətli yer tutar. Səsin müsbət və ya mənfi yöndə istifadə edilməsi tamamilə insanın sahib olduğu əxlaqla mütənasib mövzudur. Allahın mömin qullarına bu mövzudakı tövsiyəsi, Quranda hz. Loğmanın ağzından belə xəbər verilir:

**... danışanda səsini alçalt. Çünki ən çirkin səs uzunqulaq səsidir". (Loğman surəsi, 19)**

Ayədəki nümunədə bəhs edildiyi kimi, qışqıraraq danışan insanın qarşı tərəfdə yaratdığı təsirin müsbət olması gözlənilə bilməz. Yüksək səslə, qışqıraraq danışmaq həm yorucu, həm də narahat edici rəftardır. Allah bu cür səsi uzunqulaq səsinə bənzədərək bu mövzuya diqqət çəkmişdir.

Ancaq burada bir mövzuya da toxunmaq lazımdır. Burada əsas mövzu səsin istifadə şəklidir. Qulağa xoş gələ biləcək bir səs belə, pis əxlaq ilə birləşdiyində son dərəcə iyrənc və narahat edici ola bilərkən, çox gözəl vəsf edilən bir səs, Quran əxlaqı və ruhu ilə çox müsbət şəkil ala bilər. Məsələn, insan gözəl səsə sahib olsa da, əsəbi və qürurlu şəkildə danışarsa iyrənc və dözülməz şəkil alar. Belə insan ətrafındakılarla həmişə bir qarşıdurma halında olduğu üçün həyatı şikayət etməklə, mübahisə etməklə keçər. Bu səbəblə də səsi, bu mənfi xarakterin təsiri ilə çirkinləşər.

Bununla yanaşı, müsbət xarakterə sahib olan bir kimsə, gözəl olmayan, sıravi səsə sahib olsa da, bu qəti olaraq narahatçılıq yaratmaz və göstərilən əxlaqın təsiriylə qulağa xoş gələr. Gözəl əxlaqlı möminin hər şeydən əvvəl, hər rəftarı nəcib, nəzakətli, təvazökar, sülhsevərdir. Həyata olan müsbət dünyagörüşü səbəbiylə son dərəcə canlı, şən və hərəkətlidir. Məhz Quran əxlaqının yaşanması ilə ortaya çıxa biləcək bu mükəmməl quruluş, insanın səsinə də əks olunar.

## Nəzakət anlayışı

Quranda işarə edilən mövzulardan biri, möminlərin son dərəcə nəzakətli olmalarıdır. Ancaq bu nəzakət anlayışı, xalq arasında bilindiyi şəklindən olduqca fərqlidir. Hər insanın ailəsindən, ətrafından öyrəndiyi və daha sonra da təhsilinə, mədəniyyətinə görə şəkillənən nəzakət anlayışı vardır. Ancaq bu, cəmiyyətin hər seqmentinə və hər mədəniyyət quruluşuna görə dəyişiklik göstərər. Quran əxlaqıyla qazanılan nəzakət anlayışı isə, bunların hamısından üstündür. Hər şeydən əvvəl belə nəzakət anlayışı insanlara, mühitə və şərtlərə görə dəyişməz. Quranın nəzakət anlayışını yaşayan mömin, qarşısındakı insanı səhvləri olsa da, Allahın qulu olaraq görər və danışıq üslubu, davranışları son dərəcə nəzakətli olar. İnsanlara qarşı kobud rəftar göstərməkdən, hər cür kobudluqdan,

nəzakətsizlikdən uzaq durar. Allah Quranda insanlara qarşı yaxşılıqla davranmağı, gözəl söz söyləməyi təşviq etmişdir:

**Bir zaman Biz İsrail oğulları ilə: "Allahdan qeyrisinə ibadət etməyəcək, valideynlərə, qohum-əqrəbaya, yetimlərə və kasıblara xeyirxahlıq edəcək, insanlara xoş söz deyəcək, namaz qılacaq və zəkat verəcəksiniz!" - deyə əhd bağladıq. Sonra az bir qisminiz istisna olmaqla, haqdan üz çevirib döndünüz. (Bəqərə surəsi, 83)**

Quranda xəbər verilən nəzakət anlayışının əsas diqqət çəkən xüsusiyyəti bunun qeyd-şərtsiz yaşanmasıdır. Bir çox mənfi hadisə bir yerə gəlsə də; xəstəlik, yorğunluq, çətinlik olsa da; qarşısındakı insan zəngin, kasıb və ya əsir olsa da mömin gözəl əxlaqdan, nəzakətdən uzaqlaşmaz. Allah bu üstün əxlaqı möminlərə eyni ayədə belə nəsihət etmişdir:

**... valideynlərə, qohum-əqrəbaya, yetimlərə və kasıblara xeyirxahlıq edəcək, insanlara xoş söz deyəcək ... (Bəqərə surəsi, 83)**

Qurana görə, nəzakətdə diqqət yetirilməli nöqtələrdən biri də, ana və ataya qarşı olan rəftarlardır. Allah onlara qarşı yaxşılıqla davranılmasını əmr etdikdən sonra bu mövzuda necə həssaslıq göstərməyin lazım olduğunu da belə təsvir etmişdir:

**Rəbbin yalnız Ona ibadət etməyi və ata-ana ilə yaxşı davranmağı buyurmuşdur. Əgər onların biri və ya hər ikisi sənin yanında qocalıq yaşına dolarsa, onlara: "Uf!" belə demə, üstlərinə qışqırma və onlara xoş söz söylə! (İsra surəsi, 23)**

Görüldüyü kimi yaxşı davranış əmr edilməklə bərabər insanlara bu mövzuda diqqət göstərmələri üçün də, detallı nümunə verilmişdir.

Ana-ataya hörmət göstərmənin əhəmiyyəti Quranda Yusif surəsində vurğulanmışdır. Qardaşları tərəfindən kiçik yaşda ikən quyuya atıldığına görə ailəsindən uzun zaman ayrı qalan hz. Yusif, illərlə zindanda qaldıqdan sonra Allahın köməyi sayəsində, Misirin xəzinələrinin başına keçirilmişdir. Və bunun ardından da, ailəsini Misirə öz yanına gətirtmişdir. Yusif peyğəmbərin uzun aradan sonra ana və atasıyla olan ilk qarşılaşması Quranda belə izah edilir:

**Onlar Yusufun yanına gəldikdə o, ata-anasını bağrına basıb dedi: "Əmin-amanlıqla Allahın istəyi ilə Misirə daxil olun!" O, ata-anasını taxtın üstündə əyləşdirdi.... (Yusuf surəsi, 99-100)**

Ayədə bildirildiyi kimi hz. Yusif əhəmiyyətli mövqeyə sahib olduğu halda, ana və atasına qarşı son dərəcə təvazökar rəftar sərgiləmişdir. Onları özünə aid olan taxta çıxardıb oturdaraq onlara bəslədiyi hörmət və sevgini ifadə etmişdir. Hz. Yusif bu rəftarlarıyla həm öz gözəl əxlaqını, həm də ata-anasına bəslədiyi hörməti göstərmişdir.

## Quranda işarə edilən qonaq qarşılamağın ədəbi

Quran əxlaqını mənimsəmiş mömin üçün qonaq qarşılamaq dəyərli ibadət və gözəl əxlaqın ortaya qoyula biləcəyi fürsətlərdən biridir. Bu səbəblə möminlər, bir çox cahiliyyə insanının əksinə qonağı gözəlliklə qarşılayarlar.

Cahiliyyə cəmiyyətində qonaq, bir çoxu tərəfindən ümumiyyətlə maddi və mənəvi külfət hesab edilər. Çünki insanlar bu qarşılamağı Allahın razılığını qazanacaq ya da gözəl əxlaq sərgiləyəcək mühit olaraq deyil, ictimai ənənə və ya ictimai zərurət olaraq yerinə yetirərlər. Bu mövzuda ancaq və ancaq mənfəət əldə etmə ehtimalı onlar üçün şövqləndirici olar.

Bu mövzuda Quranda diqqət çəkilən nöqtələrdən biri, qonağa təqdim ediləcək mənəvi gözəlliklə bağlıdır. Mömin, qarşılayacağı kəslərə əvvəlcə hörmət, sevgi, hüzur və gülərüz təqdim edər. Bunlar olmadan yalnız ikrama əsaslanan qarşılama məmnun edici olmaz. Quranda əvvəlcə mənəvi gözəlliyə əhəmiyyət verilməsinin vurğulandığı ayələrdən biri Nisa surəsində bildirilir:

**Biri sizinlə salamlaşdığı zaman siz onun salamını daha böyük ehtiramla alın və ya verilən salamı olduğu kimi qaytarın! Həqiqətən, Allah hər şeyin haqq-hesabını çəkəndir. (Nisa surəsi, 86)**

Görüldüyü kimi Quran əxlaqında gözəl davranışlar göstərmək mövzusunda yarışmaq əsas mövzudur. Möminin qonağı qarşılayarkən verdiyi salam da, bunun nümunəsidir.

Qonaq qarşılamaqla əlaqədar olaraq, Quranda diqqət çəkilən ikinci mövzu isə qonağın rahatlığına fikir verilməsidir. Quranda bu nöqtədə işarə edilən rəftar isə, əvvəlcə qonağın bütün ehtiyaclarının, qarşılayacaq adam tərəfindən diqqətlə düşünülməsi və onun söyləməsinə və hiss etdirməsinə gərək qalmadan bu ehtiyacların qarşılanmasıdır. Bu rəftarın ən gözəl nümunələrindən biri hz. İbrahimin qonaqlarından bəhs edilən hekayədə yer verilir. Bu ayələrdə bir tərəfdən hz. İbrahimin qarşılaşdığı hadisə xəbər verilərkən, bir tərəfdən də, Quranda işarə edilən qonaq qarşılama ədəbinin detallarına diqqət çəkilir:

**İbrahimin möhtərəm qonaqlarının əhvalatı sənə gəlib çatdımı? Onlar onun yanına daxil olub: "Sənə salam olsun!" – dedilər. İbrahim: "Sizə də salam olsun! Siz yad adamlara oxşayırsınız!" – dedi. O, təşviş içində ailəsinin yanına getdi və kök bir buzov qızardıb gətirdi. Onu qabaqlarına qoyub: "Yemək yeməyəcəksinizmi?" – dedi. (Zəriyət surəsi, 24-27)**

Yuxarıdakı ayələrdə ilk diqqət çəkən şey qonağa qarşı olan ikramın sezdirmədən edilməsinin daha gözəl olmasıdır. Çünki qonaq çox vaxt nəzakətindən ötəri qarşı tərəfə ehtiyaclarını hiss etdirməz. Hətta çox vaxt da, incə düşüncəli davranaraq özünə ediləcək ikramlara maneə törətməyə çalışar. Belə adama məsələn, ehtiyacı olub olmadığı soruşulacaq olsa böyük ehtimalla olmadığını söyləyəcək və təşəkkürlə cavab verəcək. Bu vəziyyətdə də, Quran əxlaqına görə göstəriləcək ən uyğun rəftar, ikramın sezdirilmədən edilməsi, qəti olaraq qonağın özünə soruşmadan, hər şeyin incəliklə düşünülərək hazırlanıb təqdim edilməsidir.

Yenə bu ayələrdə işarə edilən başqa gözəl rəftar da, bəhs olunan ikramın gecikmədən edilməsidir. Belə rəftar hər şeydən əvvəl insanın, qonağın varlığından duyduğu məmnuniyyəti ifadə edər. Çünki ikramın ayədə də bəhs edildiyi kimi "**dərhal**", "**çox keçmədən**" edilməsi, qarşı tərəfə xidmət etmə və qarşılama mövzusundakı təvazökarlığını və şövqünü ortaya qoyar.

Zəriyət surəsindəki bu ayələrdən çıxarıla biləcək rəftar isə belədir: Hz. İbrahim evinə gələn qonaqları tanımadığı halda ikramın ən yaxşısını etməyə çalışmış və dərhal gedərək "**kök buzov**" ilə geri dönmüşdür. Hz. İbrahimin qonaqlarına təqdim etdiyi yemək növü ətdir. Ətin ən ləzzətlisi, ən sağlamı və ən bəslənmiş olanı də "**ən kök**" olanıdır. Elə isə qonaq qarşılayarkən hər şeyin ən təzəsi, ən keyfiyyətlisi və ən ləzzətlisi seçilərək, diqqətli şəkildə hazırlanmalıdır ki, bu ayənin işarəsidir.

Bundan əlavə Allah bu ayədə ətin də məsləhətli ikram olduğuna diqqət çəkmişdir.

# QURANDA İŞARƏ EDİLƏN AĞILLI TƏDBİRLƏR

Ağıl, Quranda tez-tez diqqət çəkilən və yalnız möminlərə aid olan xüsusiyyətdir. Ancaq insanlar ağıl ilə zəkanı ümumiyyətlə bir-birinə qarışdırarlar. Ağıllı insanların həqiqətən ağıllı olduqlarını düşünərlər. Halbuki ağıl, Allahın inananlara verdiyi, doğrunu səhvdən ayırmağa, hər mövzuda ən doğru diaqnoz və həlləri tapmağa yarayan bir anlayışdır. Zəka ilə deyil, insanın imanının dərinliyi ilə doğru mütənasibdir. Allah bir çox ayəsində inkarçıların, "**ağılsız birlik**" olduqlarından bəhs edir.

Ağlın səviyyəsi isə xüsusilə ani hadisələrdə və kompleks vəziyyətlərdə göstərilən reaksiya ilə ortaya çıxar. Allahın varlığını və dinin dərinliyini qavramayan, bu səbəbdən ağıl cəhətdən güclü olmayan kəslərin bu tip vəziyyətlərdəki reaksiyaları ilə, güclü imana sahib kəslərin reaksiyaları müqayisə edildiyində ağıl fərqi çox açıq görülər. Möminlər ani hadisələr qarşısında son dərəcə etidallı rəftarlar göstərər, kompleks görülən hadisələri ağıllarını istifadə edərək çox qısa müddətdə və ən gözəl şəkildə həll edərlər. Çünki Allahın "**doğrunu səhvdən ayıran**" kitab olaraq endirdiyi Quranı çox yaxşı bilər və həyatlarının hər mərhələsində Qurandakı hökmlərə görə hərəkət edərlər.

Şübhəsiz ki, hər insan, diqqət və ağıl istifadə etməni tələb edən vəziyyətlə qarşı-qarşıya qaldığında müxtəlif həll yolu tapa bilər və ola biləcək zərərlərin qarşısını alacaq tədbir ala bilər. Ancaq bunların heç biri Quranda Allahın insanlara təqdim etdiyi həllər qədər qəti, köklü və qalıcı deyil. Çünki Quranı sonsuz elm sahibi Allah endirmişdir. Quranda göstərilən şəkildə hərəkət edən möminlər ayənin ifadəsiylə "**möhkəm dəstəyə**" yapışmış olarlar və hər işlərində məqsədə uyğun nəticələr əldə edərlər.

Məhz bu hissədə, Quranda müxtəlif işarələr şəklində izah edilənləri və inananlara yol göstərən ağıllı tədbirləri araşdıracağıq.

## Başlanılacaq işin hər mərhələsinin əvvəldən düşünülməsi

Bir işə başlayarkən ətraflı düşünmək, bir neçə mərhələdən sonra, qarşılaşıla biləcək reaksiyaları, ola biləcək alternativləri düşünmək ağlın göstəricisidir. Ağılsız insanlar bu incə hesablamanı edə bilməz, aldıqları qərarın, girişdikləri işin bir sonrakı addımda nələr gətirib, nələr itirəcəyini təxmin etməzlər. Bunun nəticəsində də, etdikləri çox işdə başarısız olarlar.

Möminlərin dərin düşüncə qabiliyyətinin nümunəsi, İbrahim peyğəmbərin, yaşadığı cəmiyyətə dini izah etmək üçün izlədiyi üsulda görülür: Daşlardan oyaraq düzəltdikləri bütlərin ilahi bəzi güclərə sahib olduğuna inanan bu birlik, hz. İbrahimin bütün izahlarına baxmayaraq, vicdanları qəbul etdiyi halda azğın inanclarından imtina etməmişlər. Bu

vəziyyətdə İbrahim peyğəmbər də, onların anlaya biləcəyi başqa istiqamətdən yaxınlaşmağa qərar vermiş və bir neçə mərhələli plan izləmişdir.

Əslində heç bir mənası olmayan bu bütlərin, daş parçasından ibarət olduğunu qövmünə isbat etmək üçün, bütləri qırmağa qərar vermişdir. Və bunun üçün xüsusi plan qurmuşdur. Əvvəlcə, ağıllı yol taparaq, bu işi edərkən özünü kimsənin görməməsini təmin etmiş və özünü zəmanətə almışdır. Ətrafındakıları özündən uzaqlaşdırmaq üçün istifadə etdiyi üsul isə, ayələrdə belə xəbər verilir:

**"Mən xəstəyəm!" – dedi. Onlar ondan üz çevirib çıxıb getdilər. (Saffat surəsi, 89-90)**

Görüldüyü kimi, hz. İbrahimin xəstə olduğunu söylədiyində xalq, bir anda ətrafından dağılaraq uzaqlaşmış və beləcə İbrahim peyğəmbər də bütlərlə baş-başa qalmışdır. Bu mərhələdən sonra inkişaf edən hadisələr isə Quranda belə bildirilir:

**Allaha and olsun ki, siz geriyə dönüb getdikdən sonra bütlərinizə bir kələk gələcəyəm!" Nəhayət İbrahim bütləri sındırıb qırıq-qırıq edərək yalnız onların ən irisini saxladı ki, bəlkə, ona müraciət edələr. (Ənbiya surəsi, 57-58)**

Qövmünün böyük gücə sahib olduqlarını sanaraq, özlərinə ilah etdikləri daşdan bütləri qırmış, yalnız birini salamat buraxmışdır ki, nələr olub bitdiyini soruşduqda onlara izah etməsi üçün böyük bütdən soruşa bilsinlər! Ardından maraq və hirs içərisində olan xalq hz. İbrahimin yanına gələrək olan bitəni öyrənməyə çalışmışlar:

**Onlar dedilər: "Məbudlarımızı sənmi bu kökə saldın, ey İbrahim?" İbrahim dedi: "Xeyr, bunu onların bu böyüyü etmiş olar. Əgər danışa bilirlərsə, özlərindən soruşun". Onlar öz-özlərinə müraciətlə: "Həqiqətən də, siz zalımlarsınız" – dedilər. (Ənbiya surəsi, 62-64)**

Bu mövzuyla əlaqədar ayələrin hamısı araşdırıldığında, hz. İbrahimin son dərəcə ağıllı şəkildə mərhələli plana görə hərəkət etdiyi və sonunda da istədiyi nəticəyə nail olduğu açıqca görülür. Həqiqətən də, bütə tapınan bu birlik, salamat qalan bütün, heç bir şeylə onlara fayda verə bilməyəcəyini açıq şəkildə anlamışdır. Çünki bu büt və qırılmış digər bütlər bir daş parçasından ibarətdirlər və nə görə bilir, nə eşidə bilir, nə də danışa bilirlər. Ən əhəmiyyətlisi onları belə paramparça edilməkdən qoruya bilməmişlər. Hz. İbrahimin qövmünə izah etmək istədiyi həqiqət də bundan ibarətdir. Heç bir məna daşımayan daş parçalarına ibadət etməkdən imtina etmələri, bütün gücün və bütün yaradılmışların tək sahibi olan Allaha yönəlmələridir.

Hz. İbrahim bir neçə mərhələdən sonra reallaşa biləcək ehtimalları hesablayaraq hərəkət etmiş və istədiyi nəticəyə çatmışdır. Bu və bunun kimi Quranda verilmiş bir çox hikmətli nümunə bizə içində olan şərtləri və kəslərin psixologiyalarını göz önündə tutmanın, nəticəyə nail olmaqda son dərəcə təsirli olacağını göstərir. Ağıllı mömin başladığı işin sonrakı mərhələlərini, hansı davranışın ona uzun vədəli müvəffəqiyyət qazandıracağını mütləq hesablayar. Və faydalı gördüyü üçün etdiyi bir şeyin sonrakı mərhələdə zərər gətirməməsini təmin edəcək hər cür tədbiri, Allahın Quranda işarə etdiyi həllər istiqamətində düşünərək alar.

## Etibarlı köməkçinin lazımlılığı

**Hz.** Musa, Firona dini təbliğ etmək üçün gedərkən, Allahdan, qardaşını ona köməkçi etməsini istəmişdir. Bu həqiqət ayədə belə xəbər verilir:

**Mənə öz ailəmdən bir köməkçi ver – Qardaşım Harunu! Onun sayəsində mənim gücümü artır! Onu işimə ortaq et (ona da peyğəmbərlik ver) ki, Sənə çoxlu təriflər deyək və Səni çox zikr edək. Şübhəsiz ki, Sən bizi görürsən!" (Taha surəsi, 29-35)**

Ayələrdən də aydın olduğu kimi əhəmiyyətli vəzifə əsas mövzu olduğunda möminin yanına etibarlı köməkçi alması ağıllı üsul olar. Necə ki, Allah hz. Musanın duasına, **"Allah dedi: "Biz səni qardaşınla qüvvətləndirəcək, ikinizə də dəlil verəcəyik. Onlar sizə heç bir pislik toxundura bilməyəcəklər. Möcüzələrimiz sayəsində siz və sizə tabe olanlar mütləq qalib gələcəksiniz.""** (Qəsas surəsi, 35) şəklində cavab verərək, bir olmalarının həm fiziki, həm də mənəvi hikmətinə diqqət çəkmişdir.

Möminlər Allahın diqqət çəkdiyi bu üsulu tətbiq etdikləri təqdirdə, iki adamdan birinin səhvə yol verəcəyi, əksik qala biləcəyi bir anda, digəri dövrəyə girərək yanındakı möminə fiziki və ağıllı dəstəkçisi olacaqdır. Yenə iki adam arasında hal, rəftar və şifahi olaraq Allahın davamlı xatırlanması və zikr edilməsi üçün uyğun mühit meydana gəlməsi isə, ayənin işarə etdiyi sirlərdən bir başqasıdır.

Əlbəttə ki, etibarlı köməkçinin faydası bu qədərlə məhdud deyil. Möminin can və mal təhlükəsizliyi baxımından da tək hərəkət etməməsi və hər hansı təhlükəyə qarşı yanına bir mömini alması böyük əhəmiyyət daşıyır. Beləcə hər iki tərəf də başqasının fərq etmədiyi təhlükəni təsbit edərək, ola biləcək mənfi hadisələri əvvəldən önləyə bilmə imkanını əldə etmiş olarlar.

## Əmək bölgüsü ilə işin faydaları

Allah Quran ayələrində bəzi mövzular üzərinə and içərək diqqət çəkmiş və bu mövzuların əhəmiyyətinə işarə etmişdir. Bu mövzulardan biri möminlər arasında əmək bölgüsü edilməsinin əhəmiyyəti ilə əlaqədardır.

Allah, "**Və işləri bölənə and olsun**" (Zəriyət surəsi, 4) ayəsiylə işlərini aralarında bölüşərək edənlər üzərinə and içərək, bu tətbiqin faydalarına işarə etmişdir. Quranın bu tövsiyəsinə uyaraq bütün lazımlı işlər möminlər arasında paylaşıldığında əvvəlcə sürət və vaxt qazanılacaq. Necə ki, bir adamın 10 saatda reallaşdıra biləcəyi bir işin, on adam tərəfindən 1 saatda tamamlana biləcəyi bilinən həqiqətdir.

Əmək bölgüsü etmənin digər üstünlüyü isə, işə daxil olan hər kəsin ağıl, məlumat, bacarıq və təcrübələrindən ayrı-ayrı faydalanma fürsətinin doğulması və beləcə edilən işin keyfiyyətinin artırılmasıdır.

Bununla yanaşı, bir işi eyni anda çox adamın üzərinə götürməsi, tələsmədən qaynaqlana biləcək potensial səhv və zərər riskini azaltmış olacaq.

Halbuki cahiliyyə cəmiyyətində insanlar mümkün olduğu qədər hər işi tək başlarına etmək istəyərlər ki, beləcə əldə edilən müvəffəqiyyəti də sahiblənə bilsinlər və ətraflarından da bu nisbətdə təqdir əldə edə bilsinlər. Məhz Quranda tövsiyə edilən əmək bölgüsü üsulunun başqa faydası da insanların bu ehtiraslarını qırması və sahiblənmə duyğusunu ortadan qaldırmasıdır. Çünki ortaya çıxan nəticə və əldə edilən səmərə yalnız bir adamın deyil, çox sayda möminin ağlının, məlumat və bacarığının göstəricisi olacağından insanlar, nəfsləri adına böyüklənəcək, lovğalanacaq, öyünəcək və sahiblənəcək vəsait tapa bilməzlər. Hər kəs bərabər nisbətdə üstünlük göstərmiş olar ki, möminlər onsuz da belə hal içində deyil, yalnız Allahı razı etmənin qayğısı içindədirlər.

Əmək bölgüsünün mənəvi mənada qazandırdığı başqa fayda isə, eyni hədəf istiqamətində, ortaq şəkildə xidmət edən möminlərin arasındakı dostluğun, qardaşlığın və bağlılığın bərkiməsidir. Nəfsdə yaşanan ehtirasların qırılması, digər kəslərdə mövcud olan gözəlliklərin və üstün qabiliyyətlərin daha asan fərq edilməsini təmin edər və təvazökar quruluş meydana gələr.

Allahın razılığını qazanmaq məqsədiylə edilən bir işi paylaşmaq, təməlində yatan nəcib məqsəddən ötəri, insanların bir-birlərinə olan hörmətlərini, sevgilərini və bağlılıqlarını artıran başqa ünsürdür. İnsanların o işi bitirmək uğrunda sərf etdikləri hər səy Allaha olan bağlılıqlarından və sevgilərindən qaynaqlanar. Bunu bilmək də qardaşlıq duyğularını bəsləyən başqa əhəmiyyətli nöqtədir.

## Gecənin dinlənmə, gündüz isə çalışma zamanı olması

Quranda gecənin dinlənmə, gündüz saatların da çalışma zamanı olduğuna işarə edilmişdir:

**Gecəni rahatlanmanız üçün yaradan, gündüzü də ruzi qazanmanız üçün işıqlı edən Odur. Həqiqətən, bunda eşidən adamlar üçün dəlillər vardır. (Yunis surəsi, 67)**

Necə ki, bu sistemi araşdırdığımızda, insan maddələr mübadiləsinin gecələri yatmağa və dinlənməyə, gündüzləri isə işə və fəaliyyət etməyə nizamlı şəkildə işlədiyini görərik. Gecələri, qaranlığın təsiri ilə beyindəki epifiz bezinin hərəkətə keçdiyi və bədənin, yuxu nizamını nizamlayan təbii maddə olan melatonin ifraz edərək yuxunu meydana gətirdiyi elmi həqiqətdir. Bu vəziyyətə əlavə olaraq gecə saatlarında beyin funksiyaları yavaşlayar və bədən istiliyi düşər. Bədənin qaranlığa qarşı verdiyi bütün bu reaksiyalar, insanın istehsalının və səmərəsinin müəyyən nisbətdə düşməsinə səbəb olar.

Gün işığı ilə birlikdə isə, melatonin adlı bədən ifrazatının azaldığını, müxtəlif hormonların fəaliyyətə keçdiyini, bədən istiliyinin artdığını və beyin funksiyalarının da ən üst səviyyəyə çatdığını görərik. Bu da insanın ayıqlığını, diqqətini və səmərəsini müsbət istiqamətdə təsir edəcək faktordur. Ayələrdə erkən qalxmağa, gündüz məhsuldarlığına diqqət çəkilməsi və "**gecəni istirahət etməniz üçün yaratdıq**" deyilməsinin hikmətini, bu məlumatlar ilə bir daha görmüş olarıq.

## Əhəmiyyətli məlumatın pis niyyətli insanlara bildirilməməsi

Quranda vurğulanan əhəmiyyətli başqa detal da, art niyyətli olan insanların əhəmiyyətli məlumatların diqqətlə saxlamasıdır. Çünki art niyyətli kimsə, möminlərə yaxşılıq toxunmasını istəməyəcəyindən, lazım olsa əlindəki bütün imkanları istifadə edərək xeyirə maneə törətməyə çalışacaq. Əgər pis niyyət bəslədiyi insana yaxşılıq toxunacağından xəbərdar olsa da, bu, onun qısqanclıq duyğularını daha da qabardaraq qarşı tərəfə zərər vermə ehtimalını doğuracaq.

Quranda bəhsi keçən Yusif peyğəmbərin qardaşları, bu xarakterin ən təəccüblü nümunələrini təmsil edərlər. Bu kəslər, ataları hz. Yaqubun, Yusif peyğəmbərə olan sevgisini qısqandıqları üçün, hz. Yusifə qarşı böyük nifrət bəsləyirlər. Hz. Yaqub isə bu vəziyyəti fərq etdiyi üçün, hz. Yusifin gördüyü yuxunu izah etdiyi zaman, bundan qəti olaraq qardaşlarına bəhs etməməsini söyləyir. Əks halda ona pislik edə biləcəklərini də Yusif peyğəmbərə xəbərdar edir. Çünki Yaqub peyğəmbər yuxunun şərhindən hz. Yusifin Allahın seçdiyi və nemət verdiyi insan olduğunu anlamışdır. Belə məlumatı öyrənmək isə qardaşlarının qısqanclığını və düşmənliyini qat-qat artıracaq. Əlaqədar ayələr belədir:

**Bir zaman Yusif atasına dedi: "Atacan! Mən yuxuda on bir ulduz, günəş və ay gördüm. Onların mənə baş əydiyini də gördüm". O dedi: "Oğlum! Yuxunu qardaşlarına danışma, yoxsa sənə hiylə qurarlar. Həqiqətən, şeytan insanın açıq-aydın düşmənidir. Beləcə, Rəbbin səni seçəcək, sənə yuxuları yozmağı öyrədəcək və Öz nemətini bundan əvvəl ataların İbrahimə və İshaqa tamamladığı kimi, sənə və Yaqub nəslinə də tamamlayacaqdır. Şübhəsiz ki, Rəbbin Biləndir, Müdrikdir". (Yusif surəsi, 4-6)**

Bu ayələrin davamında isə, Allah, "**Sözsüz ki, Yusif və onun qardaşlarının hekayətində soruşanlar üçün ibrətlər vardır**". (Yusif surəsi, 7) Necə ki, ayənin tövsiyəsinə uyaraq ibrət gözüylə baxdığımızda da, ilk diqqətimizi çəkən şey, bu cür pis niyyətli kəslərə qarşı son dərəcə təmkinli davranmaq və əsla əhəmiyyətli mövzu haqqında onlara məlumat verməmək lazımdır.

## Erkən davranmanın əhəmiyyəti

Quranda təhlükəsizliyə dair diqqət çəkilən tədbirlərdən başqası da, önəmli hadisə olduğunda ya da cəhd edildiyi zaman mümkün olduqca erkəndən hərəkətə keçməkdir. Quranda bu mövzuya, Peyğəmbərimiz (s.ə.v)-in etdiyi hərəkət izah edilərək diqqət çəkilmişdir:

**O zaman sən Uhuddakı döyüşdən ötrü möminləri mövqelərə yerləşdirmək üçün səhər tezdən ailəndən ayrılıb getdin. Allah, Eşidəndir, Biləndir! (Ali İmran surəsi, 121)**

Hz. Məhəmməd (s.ə.v)-in, möminlərin mübarizədə olduğu zamanda, inananlar arasında iş bölgüsü etmək, görüləcək işləri ətraflı olaraq xəbər vermək üçün "**səhər tezdən**" hərəkətə başlamağı bildirmişdir. Peyğəmbərimiz (s.ə.v)-in Quranda xəbər verilən bu rəftarı, 1400 ildən bəri Quranı oxuyan bütün inananlar üçün yol göstərici və təşviq edici nümunə yaratmışdır.

Erkən hərəkətə keçən insan, lazımlı bütün fəaliyyətləri bir an əvvəl təşkil edə biləcək. Bu tövsiyəyə uyan insan, hər şeydən əvvəl öz lehində istifadə edə biləcəyi vaxt qazanacaq. Beləcə üstün mövqeyə keçə biləcək, gözlənilməyən vəziyyət ya da gecikmə olduğunda bunu kompensasiya etmə imkanına sahib olacaq.

Bununla yanaşı, işi tələsik etməmək insanlarda yaradacaq psixoloji rahatlıq da əsas mövzudur. Məhdud zaman bəzi insanlar üzərində çaxnaşma və həyəcan kimi təsirlərə səbəb ola bilər ki, bu da insanın diqqətini, mühakimə və həll yolu tapa bilmə qabiliyyətini mənfi istiqamətdə təsir edə bilər. Bu səbəbdən tələsik etməkdən və çaxnaşma halından qaynaqlanan diqqətsizliklər və istənməyən qəzalar meydana gələ bilər. Halbuki daha uzun

zaman içərisində rahat və sakit hərəkət edə bilmək, bu vəziyyətin tam əksinə, ağlın və diqqətin üzərindəki təzyiqi tamamilə qaldırar və sağlam qərarlar alına bilməsini təmin edər.

## Gecə vaxtı tədbirli olunmasına işarələr

Gecəni insanlar üçün dinlənmə vaxtı edən Allah, **"De: "Sığınıram sübhün Rəbbinə! Məxluqatının şərindən, çökən zülmətin şərindən"".** (Fələq surəsi, 1-3) ayəsiylə, gecənin eyni zamanda tədbirli alınmalı zaman olduğuna da diqqət çəkmişdir.

Havanın qaranlıq olduğu, xüsusilə də ayələrdə ifadə edildiyi kimi ətrafı tünd qaranlıq olduğu vaxtlar, insanların hərəkət qabiliyyətinin məhdudlaşdırıldığı, təhlükəsizlik tədbirlərinin çətinləşdiyi, təhlükənin açıqca görülə bilmədiyi və dolayısilə də qəflətin daha sıx ola biləcəyi saatlardır. Gecənin meydana gətirdiyi bu şərtləri təhlükəli hala gətirən əsas səbəb isə, əlbəttə yenə insanlardır. Günaha düşkün olan inkarçılar, bu xarakterlərini rahatca sərgiləyə bilmək üçün şəxsiyyətlərini gizləmək üçün gecəni seçərlər. Necə ki, bu mövzuda aparılan tədqiqatlar da, cinayət, yaralama və oğurluq növü ictimai cinayətləri reallaşdırmaq üçün, insanların gecə yarısıyla başlayan və səhər gün ağarana qədər sürən zaman aralığını seçdiklərini ortaya qoyur.

Bununla yanaşı, Quranda gecəyə və qaranlığa bağlı olaraq diqqət çəkilən başqa nöqtə də, möminlərə qarşı düşmənlik bəsləyən bəzi insanların, onlara zərər verə bilmək üçün xüsusilə bu vaxtları seçdikləridir. Bu mövzuya işarə edən ayələrdən birində, bu tərz insanların möminlər əleyhinə planlar qurmaq üçün xüsusilə gecəni seçdikləri ifadə edilmişdir:

**Onlar öz günahlarını insanlardan gizlədir, Allahdan isə gizlətmirlər (Ondan çəkinmirlər). Halbuki onlar Allahın razı qalmadığı sözləri gecələr xəlvətdə söylədikləri vaxt belə, O, onların yanında olur. Allah onların nə etdiklərini əhatə edir. (Nisa surəsi, 108)**

Bir başqa ayədə isə, hz. Salehə kin bəsləyən inkarçıların, ona qarşı hücum üçün də gecəni seçdikləri xəbər verilərək, möminlərin bu tərz hadisələrə qarşı təmkinli olması lazım olduğuna işarə edilmişdir:

**Onlar dedilər: "Bir-birinizin yanında Allaha and için ki, gecə ona və ailəsinə basqın edib öldürəcək, sonra da onun yaxın qohumuna deyəcəyik ki, biz onun ailəsinin öldürüldüyünü görməmişik və biz, həqiqətən, düzünü deyirik". (Nəml surəsi, 49)**

Allahın qaranlığın bu xüsusiyyətindən xəbərdar etdiyi möminlər, ağıllı olmalarının gərəyi olaraq, hər cür tədbiri alarlar. Gecələri bir yerdən başqa yerə hərəkət edərkən, bir iş başında ikən və hətta yatarkən belə son dərəcə diqqətli və təmkinli olarlar. Ancaq bu narahatlıq mənasında diqqət etmək deyil. Çünki möminlər, hər cür ağıllı tədbir aldıqlarından sonra əsla hər hansı narahatlıq hiss etməz, Allaha təvəkkül edərlər.

## Tək hərəkət etməməyin əhəmiyyəti

Allahın əmrlərini yerimə yetirmək mövzusunda möminlərə nümunə olan peyğəmbərlər, xüsusilə də əhəmiyyətli hadisələrdən söhbət gedəndə, yanlarında həmişə bir mömin ilə birlikdə hərəkət etmişlər. Bunun ən diqqətə çarpan nümunələrindən biri hz. Musa ilə hz. Harunun birliyi görülür. Hz. Musa, özünə böyük düşmənlik bəsləyən Fironla görüşməyə gedərkən, Allahdan qardaşı hz. Harunu özünə köməkçi etməsini istəmiş və səbəbini də belə ifadə etmişdir:

**Qardaşım Harun dildə məndən daha bəlağətlidir. Onu da, dediklərimi təsdiqləyən bir köməkçi kimi mənimlə birlikdə göndər. Mən, həqiqətən də, onların məni yalançı sayacaqlarından qorxuram". (Qəsas surəsi, 34)**

Bu hikmətləri ilə yanaşı, bir insanın yanında ikinci adamın olması, şahidlik halı meydana gətirdiyi üçün, düşmənlik bəsləyənlər baxımından üzücü və qarşısını alan ünsürdür. Bir insanın tək hərəkət etməsi isə, hər vaxt pis niyyətli insanlara cəsarət verən, etmək istədikləri pisliklərə uyğun mühit hazırlayan mövqe meydana gətirər.

Quranda bu mövzuya işarə edən başqa ayədə də, Musa peyğəmbər və köməkçisinin etdiyi səfərdən bəhs edilir:

**Bir zaman Musa öz xidmətçisinə belə demişdi: "Mən iki dənizin qovuşduğu yerə çatana qədər yaxud uzun illər sərf edənə qədər səfərimə davam edəcəyəm". Hər ikisi o dənizlərin qovuşduğu yerə gəlib çatdıqda özləri ilə götürdükləri balığı unutdular. Balıq isə dənizdə suyun altı ilə yol alıb getdi. (Kəhf surəsi, 60-61)**

Ayədən aydın olduğu kimi hz. Musa uzaq bölgəyə doğru uzun səfərə çıxarkən yanına ikinci adamı almışdır. Musa peyğəmbərin etdiyi bu hərəkətin altında ağıllı tədbir yatır. Çünki bir kimsənin, haqqında heç bir məlumatının olmadığı bölgəyə tək başına getməsi müxtəlif qorxular da gətirə bilər. Amma, istər səfər əsnasında olsun, istər getdiyi yerdə

olsun başına gələ biləcək maddi mənəvi hər cür çətinlikdə ikinci adam özünə dəstək ola biləcək və kömək edə biləcək.

Quranda buna bənzər başqa nümunə də hz. Məhəmməd (s.ə.v)-in Məkkədən Mədinəyə gedişiylə əlaqədar verilmişdir:

**Əgər siz Peyğəmbərə kömək etməsəniz, bilin ki, Allah ona artıq kömək göstərmişdir. O vaxt kafirlər onu iki nəfərdən ikincisi olaraq Məkkədən çıxartdılar. O iki nəfər mağarada olarkən onlardan biri öz yoldaşına dedi: "Qəm yemə, Allah bizimlədir!" Bundan sonra Allah ona arxayınlıq nazil etdi, sizin görmədiyiniz döyüşçülərlə ona yardım göstərdi və kafirlərin sözünü alçaltdı. Ancaq Allahın Sözü ucadır. Allah Qüdrətlidir, Müdrikdir. (Tövbə surəsi, 40)**

Peyğəmbərə düşmənlik bəsləyənlərin əsas məqsədi, onu ələ keçirərək öldürmək və qövmün üzərindəki təsirini ortadan qaldırmaqdır. Bu cür riskli və təhlükəli mühitdə tək hərəkət etmək isə, müşriklərin axtarıb tapa bilmədiyi fürsət olacaq. Buna görə də, yanına bir adam alaraq tədbirli davranmışdır. Peyğəmbərimiz (s.ə.v)-in bu rəftarı, bütün müsəlmanlar üçün yol göstərici nümunədir.

## Möminlərin etibarlı məkanları seçmələri

Qurana baxdığımızda bütün peyğəmbərlərin və onlarla birlikdə olan müsəlmanların həmişə mübarizə mühitində yaşadıqlarını və bu mühitin şiddətindən qaynaqlanan açıq şüurlu və diqqətli olduqlarını görərik. Dini həyata və izah etmə mövzusunda göstərdikləri qərarlı münasibət səbəbiylə, peyğəmbərlərə reaksiya vermişlər və hətta öz mənfəətlərinə zərər gəlməsindən narahatlıq keçirərək peyğəmbəri və inananları öldürməyə cəhd etmişlər.

Möminlər isə, Allahın diləməsi xaricində onlara yaxşı ya da pis heç bir şeyin baş verməyəcəyini dərk edərlər. Əgər hər hansı hücuma məruz qalsalar da, bunun öz dünya və axirət həyatları baxımından ən xeyirli nəticə olduğunun fərqindədirlər. Bu səbəbdən Allahdan başqa heç kimdən qorxmazlar. Ancaq bir tərəfdən də ağıllı və aşılması zor tədbirlər alaraq, düşmənlərinin qurduğu tələləri bir-bir pozarlar.

Məhz möminlərin ibadət olaraq tətbiq etdikləri bu ağıllı tədbirlərdən biri də, yaşadıqları yerlərin qorunmasına yönəlmişdir. Bu mövzuda Quranda iştirak edən işarələrdən biri, hz. Davud ilə görüşmək istəyən, bir-biriylə iddialı iki adamın peyğəmbərin yanına gəldiklərini izah edən ayədə gizlidir:

**Davudun yanında çəkişənlərin xəbəri sənə gəlib çatdımı? O zaman onlar divarı aşıb məbədə girdilər. (Sad surəsi, 21)**

Bəhsi keçən şikayətçilərin, hz. Davudun olduğu yerə yüksək divarları dırmaşaraq girdiklərini izah edən bu ayə eyni zamanda Davud peyğəmbərin olduğu yerin şəkli haqqında da bizə məlumat verir. Hz. Davudun yaşadığı yerin, divarları möhkəm və yüksək ola bilər. Həm də bura etibarlı və müdafiə etməyə əlverişli yer ola bilər. Belə məkan kənardan gələcək hər cür hücuma qarşı alınması çətindir, bu səbəbdən də təhlükəsizlik üçün ideal şərtlər yaradan yerdir.

Quranda xəbər verilən ağıllı tədbir görmə üsullarından biri də, möminlərin olduğu məkanların ya da evlərin qarşısında it saxlanılmasıdır. Bu mövzuya işarə edən ayələr Kəhf surəsində belə keçir:

**Onlar yatmış ikən sən onları oyaq hesab edərdin. Biz onları sağa-sola çevirirdik. Onların iti isə girəcəkdə qabaq pəncələrini uzadıb yatmışdı. Əgər sən onları görsəydin, dönüb onlardan qaçardın və dəhşət səni bürüyərdi. (Kəhf surəsi, 18)**

Quranda Kəhf əhli olaraq bilinən gənclər, dövrün din düşməni hökmdarından qorunmaq məqsədiylə mağaraya sığınmışlar. Ayələrdə bildirildiyinə görə, Allah onları uzun müddət bu mağarada yatırdıqdan sonra oyatmışdır. Yuxarıdakı ayədə isə, bu gənclərin yatdıqları əsnada yanlarında it saxladıqlarına və bunun onlar üçün qorunmaq üçün olduğuna işarə edilir.

## Gətirilən həllərin kəskin və aşılmaz xüsusiyyətlərdə olması

**Onlar dedilər: “Ey Zülqərneyn! Yəcuc və Məcuc tayfaları yer üzündə fitnə-fəsad törədirlər. Bəlkə biz sənə xərac verək, sən də bizimlə onlar arasında bir sədd düzəldəsən?” O dedi: “Rəbbimin mənə əta etdiyi mülk daha yaxşıdır. Gəlin öz qüvvənizlə mənə kömək edin, mən də sizinlə onlar arasında möhkəm bir sədd çəkim. Mənə dəmir parçaları gətirin!” Nəhayət, dağın iki yamacı arasını dəmir parçaları ilə doldurduqda: “Körükləyin!” - dedi. Dəmir közərən kimi: “Gətirin mənə, onun üstünə ərimiş mis töküm!” - dedi. Yəcuc və Məcuc tayfaları nə səddin üstünə çıxa bildilər, nə də onu dəlib keçə bildilər. (Kəhf surəsi, 94-97)**

Quranda keçən bu ayələrdəki hikmətlərdən biri olduqca açıqdır. Hz. Zülqərneyn birliyi qurtaracaq keçici ya da sıravi tədbirlər yerinə elə bir tədbir görmüşdür ki, istifadə etdiyi vəsaitlərdən tikmə üsuluna qədər dövrün hər cür imkanını istifadə etmək heç kim tərəfindən aşıla bilməyəcək sədd çəkmişdir. Üstəlik bu tədbirlə kifayətlənməyib, üzərinə

bir qat da əridilmiş mis tökdürmüş, beləcə səddin aşılmasını qeyri-mümkün hala gətirəcək ikinci tədbir almışdır.

Məhz Quranda möminlərə tövsiyə edilən tədbir görmə üsulları da belədir. Möminlər kiçik və ya böyük hər cür mənfi hadisənin qarşısını tamamilə alacaq, zərər verəcək vəziyyətləri kökündən ortadan qaldıracaq, hər biri iti, dəlinməz və qalıcı üsullar istifadə edərlər.

## Pis niyyətli insanlara yol göstərici ifadələr istifadə etməməyin əhəmiyyəti

Ürəklərində inananlara qarşı kin ya da qısqanclıq kimi duyğular bəsləyən insanlar, bu hisslərini təmin etmək üçün davamlı olaraq fürsət gözləyərlər. Möminlərin üzərinə düşən vəzifə də bir ibadət olaraq bu insanlara axtardıqları imkanı təqdim etməmək, onların yollarını kəsmək və bu cəhdlərinə mane olmaqdır.

Allah bu mövzunun əhəmiyyətinə Yusif hekayəsində diqqət çəkmişdir. Atalarının Yusif peyğəmbəri onlardan daha çox sevdiyini düşünərək qısqanclıq bəsləyən qardaşları, atalarının yalnız onlarla maraqlanması üçün hz. Yusifi öldürməyə qərar vermişdilər. Bu məqsədlərini reallaşdıra bilmək üçün də, Yusif peyğəmbəri özləri ilə birlikdə gəzməyə göndərməsi üçün ataları hz. Yaqubu razı salmağa çalışmışlar. Yusif surəsində bu mövzuya belə yer verilmişdir:

**Onlar dedilər: “Ey atamız! Sənə nə olub ki, Yusifi bizə etibar etmirsən? Həqiqətən də, biz ona xeyir arzulayırıq. Sabah onu bizimlə göndərsən, bir qədər əylənib oynayar. Biz onu mütləq qoruyarıq!” O dedi: “Onu aparmağınız məni narahat edər. Həm də qorxuram ki, sizin başınız oyuna qarışıb onu nəzarətsiz qoyduqda, canavar onu yesin”. (Yusif surəsi, 11-13)**

Ayələrdə də görüldüyü kimi, oğlanlarındakı qısqanclığın fərqində olan hz. Yaqub, Yusif peyğəmbəri onlarla birlikdə göndərmək istəməmiş və səbəb olaraq da, qardaşları fərqində deyilkən onu qurdun yeməsindən narahat olduğunu söyləmişdir. Bunun üzərinə Yusif peyğəmbəri yanlarında aparmağa nail olan qardaşları, onu quyuya atıb, köynəyinə qan sürərək atalarının yanına gəlmişlər və Yusif peyğəmbəri qurdun yediyini söyləmişlər:

**Dedilər: “Ey atamız! Biz Yusifi əşyalarımızın yanında qoyub yarışmaq üçün getmişdik. Canavar da onu yedi. Əlbəttə, biz doğru danışsaq da, sən bizə inanan deyilsən”. Qardaşları onun köynəyinə saxta qan ləkəsi sürtüb gətirdilər. Yaqub dedi: “Xeyr, sizi öz nəfsiniz bu işə vadar etmişdir. Mənə gözəl səbir gərəkdir. Söylədiklərinizin müqabilində Allahdan kömək diləmək lazımdır”. (Yusif surəsi, 17-18)**

Ayələrdən də aydın olduğu kimi Yusif peyğəmbərin qardaşları, atalarının dilə gətirdiyi bu narahatlığı istifadə edərək, etdikləri xainliyi keçərli təmələ dayandırmağa çalışmışdır. Əslində qurdun hücum etməsi kimi hadisə bəlkə heç əsas mövzu olmayacaq. Amma hz. Yusifin qardaşları atalarının bu yöndəki narahatlıq keçirdiyini bildikləri üçün, deyilə biləcək ən məqbul yalanın da bu olduğuna qərar vermişlər və hz. Yusifi qurdun yediyini söyləmişlər.

## Tədbir görərkən əldə olan bütün alternativlərin qiymətləndirilməsi

Hadisələr qarşısında laqeyd rəftar göstərmək cahiliyyə insanlarına xas xüsusiyyətdir. Cahiliyyə cəmiyyətində hakim olan etinasız və tənbəl quruluş səbəbiylə bir çox hadisə, heç bir tədbir görülmədən öz axarına buraxılar. Bu səbəblə gündəlik həyatın hər anında müxtəlif zərərlərlə qarşılaşılar.

Halbuki Allah Quranda bu məntiqin səhv olduğuna diqqət çəkir. Möminlərin, tədbir görmə mövzusunda çox diqqətli davranmalarını əmr edir.

Mövcud bütün alternativləri istifadə edərək ciddi tədbirlər almanın ən doğru davranış olduğuna işarə edən ayə belədir:

**O dedi: "Ey oğullarım! Şəhərə bir qapıdan girməyin, ayrı-ayrı qapılardan girin. Allahın iradəsinə qarşı isə heç bir şeylə sizə fayda verə bilmərəm. Hökm yalnız Allahındır. Mən ancaq Ona təvəkkül edirəm. Qoy təvəkkül edənlər də ancaq Ona təvəkkül etsinlər". (Yusif surəsi, 67)**

Hz. Yaqub, Misirə gedəcək oğullarına şəhərin ayrı-ayrı qapılarından girmələrini tövsiyə etmişdir. Bu tədbir Yaqub peyğəmbərin, oğullarının həm can, həm də mal təhlükəsizliyini təmin etmək üçün təqdim etdiyi son dərəcə ağıllı tədbirdir. Əksinə bir vəziyyətdə şəhərə tək qapıdan girmiş olsalar hər hansı təhlükə vəziyyətində bəlkə hamısı birdən zərər görə bilərlər, ancaq zərər görməsələr belə əsas əhəmiyyətli olan Allahın nemət olaraq verdiyi ağılı istifadə etmək və hər mövzuda ən etibarlı metodları seçib tətbiq etməkdir. Məhz bu səbəblə hər vaxt geniş tədbirlər almaq Quranın məntiqinə uyğun hərəkətdir. Möminin ağıllı olması ilə cahiliyyənin tədbirsizliyi arasındakı fərq bu cür hadisələr qarşısında açıq şəkildə müəyyən olur.

Unutmamaq lazımdır ki, nəticə alınan bütün tədbirlər, Allaha feli dua xüsusiyyətindədir. Yoxsa Allahın Quranda bildirdiyi kimi, insanların etdikləri heç bir şey, aldıqları heç bir tədbir başlarına gələcək hadisənin, yəni qədərlərinin önünə keçə bilməz.

Allah bu əhəmiyyətli həqiqətə hz. Yaqubun oğullarına tövsiyəsini bildirən ayənin davamında diqqət çəkmişdir:

**Atalarının onlara əmr etdiyi yerlərdən daxil olmalarının Allahın yanında onlar üçün heç bir faydası olmadı, lakin bu, Yaqubun nəfsindəki bir istək idi ki, onu da yerinə yetirdi. Həqiqətən də, o, elm sahibi idi, çünki onu Biz öyrətmişdik. Lakin insanların çoxu bunu bilmir. (Yusif surəsi, 68)**

# QURANDA DİQQƏT ÇƏKİLƏN TƏBLİĞ ÜSULLARI

Tarix boyunca Allahın bir-biri ardınca göndərdiyi elçilər cahiliyyə cəmiyyəti insanlarını Allaha iman etməyə və Ona qulluq etməyə dəvət etmişlər. Allah Quranda "**sizdən; xeyirə çağıran, yaxşılığı əmr edən və pislikdən (münkərdən) çəkindirən birlik olsun...**" (Ali-İmran surəsi, 104) ayəsiylə, bu ibadətin elçilərin olduğu qədər, möminlərin də əsas məsuliyyətlərindən biri olduğunu ifadə etmişdir.

Ancaq möminlərin bu mövzudakı məsuliyyətləri yalnız dini təbliğ etməkdir, yəni insanlara Allahın hökmlərini izah etmək, onları Quran əxlaqını yaşamağa dəvət etməkdir. İnsanlara hidayəti və anlayışı verəcək olan Allahdır. Möminlərə düşən, Quranın göstərdiyi üsulları ən yaxşı şəkildə tətbiq etməkdir. Yoxsa insanların inanıb inanmamaları mövzusunda onların üzərində hər hansı məsuliyyət yoxdur.

Məhz Allah möminlərə, bu məsuliyyətlərini yerinə yetirmədə asanlıq olaraq Quranda həm açıq hökmlərlə, həm də müxtəlif hekayələrlə bir çox üsul göstərmiş və peyğəmbərlərin bu mövzudakı tətbiqlərindən nümunələr vermişdir. Bu hissədə, Quranda işarə edilən təbliğ üsullarını, dəyişən şərtlər və mühitlərə görə Allahın möminlərə təqdim etdiyi həlləri araşdıracağıq.

## Təbliğdə heç bir mənfəət gözləməməyin vurğulanması

Ona təbliğ edilən adamın izah edilənləri heç bir ön mühakimə, şübhə və təzyiq altında qalmadan, tamamilə azad düşüncə və vicdan ilə qiymətləndirə bilməsi lazımdır. Bunun ilk şərti isə ona dini izah edən adamın səmimiyyətindən əmin olmasıdır.

Möminləri tanımayan və onlar haqqında məlumatı da olmayan bir adamın, yaşadığı cahiliyyə mühitinin təsiriylə, inananlara qarşı bəzi ön mühakimələr bəsləməsi və şübhəci yaxınlaşması ilk başda təbii ola bilər. Məsələn, dini yaşaması üçün var gücü ilə bir şeylər izah edən möminin, bunu nəyin müqabilində etdiyinə dair ağlına bəzi suallar gələ bilər. Öz düşüncə sistemində hər şey mənfəət əlaqəsi içində olduğu üçün, Allaha inanan insanların tək çıxar olaraq Allahın razılığını güddüklərini qavramaya bilər. Ya da qarşı tərəfin izah edəcəyi məlumatların doğruluğu mövzusunda ən başından bəri tərəddüd və ön mühakimə içərisində ola bilər. Bu səbəblə adamın bütün bu narahalıqlarını və şübhələrini, onun dilə gətirməsini gözləmədən aradan qaldırmaq, möminin təbliğdən əvvəl üzərinə düşən ən əhəmiyyətli məsuliyyətlərdən biridir.

Qurana baxdığımızda da, bütün peyğəmbərlərin göndərildikləri qövmlərə əvvəlcə təlqin etdikləri həqiqətin, bu şübhələri aradan qaldırmağa istiqamətli olduğunu görərik. Peyğəmbərlər, Allahın böyüklüyünə və axirətin həqiqətinə qəti olaraq inanan və bütün həyatlarını yalnız Allahın razılığını qazanmağa həsr etmiş kəslərdir. Cənnətin və

cəhənnəmin varlığına qəti iman edən elçilər, qarşılaşdıqları hər insanın cəhənnəm kimi sonsuz və qorxunc əzaba uğramasından narahatçılıq duyarlar. Onları səhv olan şeylərdən çəkindirməyə çalışar və onlara Allahın gücünü və böyüklüyünü izah edərlər. Bütün bu səylərinin qarşılığında isə tək gözlədikləri şey Allahın məmnuniyyətini qazana bilməkdir. Bundan başqa insanlardan gözlədikləri dünyəvi heç bir mənfəət yoxdur.

Quranda elçilərin təbliğdən əvvəl bu mövzuya diqqət çəkərək, qarşı tərəfin əndişələrini aradan qaldırmağa çalışdıqlarına işarə edilmişdir. Bu mövzudakı ayələrdən bəziləri belədir:

**Mən bunun əvəzinə sizdən heç bir mükafat istəmirəm. Mənim mükafatım ancaq aləmlərin Rəbbinə aiddir. (Şuəra surəsi, 180)**

**Bunlar Allahın doğru yola yönəltdiyi kəslərdir. Sən də onların haqq yoluna yönəl. De: "Mən bunun əvəzinə sizdən heç bir mükafat istəmirəm. Bu Kitab aləmlər üçün yalnız bir xatırlatmadır". (Ənam surəsi, 90)**

**Ey qövmüm! Mən bunun əvəzinə sizdən heç bir mükafat istəmirəm. Mənim mükafatım ancaq məni yaradandadır. Məgər anlamırsınız? (Hud surəsi, 51)**

**Şəhərin kənarından bir kişi qaça-qaça gəlib dedi: "Ay camaat! Elçilərin ardınca gedin! Sizdən heç bir mükafat istəməyən, özləri də doğru yolda olan şəxslərin ardınca gedin! (Yasin surəsi, 20-21)**

Elə isə bütün möminlər üçün, təbliğə başlamadan əvvəl ayələrin işarəsinə uyaraq buna diqqət etmələri, nəticə ala bilmələri üçün çox məqsədəuyğun olacaq. Xüsusilə indiki vaxtda cahiliyyə cəmiyyətindəki insanların hər şeyi maddi mənfəət qarşılığında etmələri insanların hər kəsə qarşı bu tip ön mühakiməyə sahib olmalarına səbəb olmuşdur. Bu səbəbdən bu cür açıqlamanın qarşı tərəfi rahat edəcəyi dəqiqdir.

## Dini izah edən insanın etibarlı olduğunu ifadə etməsi

Quranda təbliğ mövzusunda diqqət çəkilən başqa üsul isə, dini izah edən insanın etibarlı, doğru sözlü və dürüst insan olduğunu başdan ifadə edərək özünü tanıtmasıdır. Necə ki, Quranda bütün peyğəmbərlərin, göndərildikləri qövmlərə əvvəlcə özlərini tanıtdıqlarını və Allahın vəzifələndirdiyi, etibarlı elçi olduqlarını ifadə etdiklərini görürük:

**Həqiqətən, mən sizin üçün etibar edilməli bir elçiyəm. (Şuəra surəsi, 107)**

Çünki qarşı tərəfin şübhələrini yox edəcək, güvən təmin edəcək və mənəvi cəhətdən rahatlaşdıracaq əsas mövzu budur. Əgər etibarlı, dürüst və doğru sözlü insan isə, izah etdikləri də, həqiqətən dinləməyə və üzərində düşünməyə dəyər xüsusiyyətdə olacaq. Amma əgər qarşı tərəfin etibarlı olmasından şübhəli isə, bütün izah edilənlərə müdafiə etmə psixologiyası ilə yaxınlaşacaq. Bu mərhələ, Quranda göstərilən üsullarla tam olaraq keçildiyində isə ona izah edilənlər üzərində diqqətini cəmləyərək dinləməyə və anlamağa çalışacaq.

## Qarşı tərəfin səhv inanclarının çürüdülməsi

Təbliğ ediləcək insanın tərəddüdlərinin və ön mühakimələrinin ortadan qaldırılmasının ardından, ona məlumat verməyə başlamadan əvvəl, sahib olduğu batil və səhv inancları çürüdülməli və bunların etibarsızlığı isbat edilməlidir. Bu mərhələ olduqca əhəmiyyətlidir çünki sahib olduğu batil inanc ya da fəlsəfənin etibarsızlığına inanmayan insan, bunlardan qopmaq istəməyəcəyi üçün bunun əksinə olan yeni məlumatı da almaq istəməz. Məhz bu nöqtədə insanın düşüncə quruluşundakı tıxanmağı aradan qaldırıb, həqiqi məlumatı alması üçün, Allah Quranda möminlərə bir üsul göstərir.

Bu üsul, bəhs olunan batil inancların ağıllı, elmi və vizual metodlarla çürüdülməsi, yəni maddi və mənəvi olaraq səhv və etibarsız sistem olduğunun açıqlanmasıdır. İbrahim peyğəmbərin qövmünə olan təbliği isə, bu üsluba olduqca gözəl nümunədir:

**Bir zaman o öz atasına və tayfasına: “Nəyə ibadət edirsiniz?” – demişdi. Onlar dedilər: “Biz bütlərə ibadət edir və onlara tapınmaqda davam edirik”. O dedi: “Onlara yalvardığınız zaman sizi eşidirlərmi? Yaxud sizə xeyir və ya zərər verirlərmi?” Onlar dedilər: “Xeyr, amma biz öz atalarımızın belə etdiklərini gördük”. O dedi: “Siz nəyə ibadət etdiyinizi görürsünüzmü – həm siz, həm də ulu babalarınız? (Şuəra surəsi, 70-76)**

İbrahim peyğəmbər həm ağla, həm də məntiqə xitab edəcək şəkildə qövmünə suallar vermiş və inandıqları sistemin səhv olduğunu mərhələ-mərhələ onlara göstərmişdir. Eyni zamanda hər sualla birlikdə insanların vicdanlarına toxunmuş və öz sistemlərinin məntiqsizliyini onlara təsdiq etdirmişdir. Çünki daşlardan yonduqları bütlərə tapınan qövm, sırf atalarının bu daşlara ibadət etdiklərini bildikləri üçün, heç düşünmədən bu

sistemi mənimsəmişlər. Ancaq hz. İbrahim həqiqətləri gözlər önünə sərdiyində isə, məhz o zaman nə qədər şüursuz və aciz varlıqlara tapındıqlarını fərq etmişlər.

Necə ki, İbrahim peyğəmbər də, bunun ardından Allahı sifətləriylə tanıdaraq, heç bir gücü olmayan cansız daş parçaları ilə bütün varlıqların tək hakimi və sonsuz güc sahibi olan Allahın varlığı arasındakı müqayisə edilə bilməz fərqli ortaya qoymuşdur:

**Aləmlərin Rəbbindən başqa, onların hamısı mənim düşmənimdir. O Rəbb ki, məni yaratmış və məni doğru yola yönəltmişdir; O Rəbb ki, məni yedirdir və içirdir; O Rəbb ki, xəstələndiyim zaman mənə şəfa verir; O Rəbb ki, məni öldürəcək, sonra dirildəcəkdir; O Rəbb ki, Haqq-hesab günü xətalarımı bağışlayacağını Ondan umuram. (Şuəra surəsi, 77-82)**

Beləcə bütlərə tapınan bu qövm, tətbiq olunan təbliğ metodları sayəsində içərisində olduqları vəziyyətin məntiqsizliyini qısa bir an üçün olsa belə, qavrama imkanı tapmışdır.

## Sual-cavab şəklində izahat

İbrahim peyğəmbərin üsulu insanların mövzunu qavraması üçün Allahın Quranda diqqət çəkdiyi təbliğ üsuludur.

Eyni şəkildə insanın mövzu haqqında ağlına tam yatmayanları soruşması da istənə bilər. Çünki soruşacağı suallardan mövzuları nə dərəcədə anladığı və əksiklərinin nələr olduğu rahatlıqla aydın olacaq, beləliklə də bunların aradan qaldırılması imkanı yaranacaq. Əks halda, anlamadığı məlumatın üzərinə yeni biri daha əlavə olunduğunda, qavraya bilmədiyi mövzu içərisində tərəddüd etməyə başlayacaq.

Təbliğdə istifadə edilən bu sual-cavab üsulu ilə birlikdə, səhv məntiqləri çürüdərək və bunların yerinə sağlam və ağıllı məntiqlər oturdaraq irəliləmək də, Quranda tövsiyə edilən təbliğ üsuludur. Bu mövzuda yenə hz. İbrahimin təbliğini izah edən başqa ayə belədir:

**Allahın verdiyi hakimiyyətə görə İbrahim ilə Rəbbi barəsində höcətləşən kəsin əhvalatını bilmirsənmi? İbrahim: “Mənim Rəbbim həm dirildir, həm də öldürür!” - dedikdə padşah: “Mən də həm dirildir, həm də öldürürəm!” - demişdi. İbrahim: “Allah günəşi məşriqdən gətirir. Sən də onu məğribdən gətir!” - dedikdə, o kafir çaşıb qalmışdı. Allah zalım qövmü doğru yola yönəltməz. (Bəqərə surəsi, 258)**

Bu ayədə İbrahim peyğəmbər din mövzusunda onunla mübahisəyə girən bir adama, Allahın sonsuz gücü qarşısındakı acizliyini son dərəcə hikmətli bir neçə cümlə ilə izah etmişdir. Verdiyi ağıllı nümunələrlə inkarçının bu vəziyyətini özünün də fərq etməsini təmin etmişdir. Çünki gətirdiyi təklif, inkarçı adamın iddialı danışmalarının ardından əsla edə bilməyəcəyi bir şeydir. Bəhs olunan adam, içinə düşdüyü vəziyyəti gördüyündə son dərəcə çaşqınlığa düşmüş və bunun üzərinə söyləyəcək söz tapa bilməmişdir. Hz İbrahimin inkarçını sıxışdıran bu hikmətli üslubu, möminlər üçün təbliğdə faydalana biləcək çox əhəmiyyətli nümunədir.

## Gizli və açıq üsullarla təbliğ edilməsi

Quranda izah edilənlərə görə bütün peyğəmbərlər göndərildikləri birliklərə Allahın böyüklüyünü və dinin vacibliyini izah edə bilmək üçün müxtəlif üsullar və izahat şəkilləri sınamışlar. Məhz Nuh peyğəmbərin qövmünə etdiyi təbliğ də, bunlardan biridir. Nuh peyğəmbərin işlətdiyi izahat taktikaları Nuh surəsində tək-tək vurğulanaraq, möminlərə də yol göstərici olmuşdur:

**O dedi: “Ey Rəbbim, mən xalqımı gecə də, gündüz də dəvət etdim. Amma dəvətim onların haqdan qaçmalarını daha da artırdı. Sən onları bağışlayasan deyə mən hər dəfə onları imana dəvət etdikdə, onlar barmaqlarını qulaqlarına tıxayır, paltarlarına bürünür, küfrlərində israr edir və ötkəm-ötkəm təkəbbürlənirdilər. Sonra mən onları aşkarcasına dəvət etdim. Sonra mən onlara həm uca səslə, həm də gizlicə bildirib dedim: “Rəbbinizdən bağışlanmağınızı diləyin! Həqiqətən, O, çox Bağışlayandır! O, sizin üzərinizə bol-bol yağış göndərər, var-dövlət və oğul-uşaqla sizin imdadınıza çatar, sizin üçün bağlar salar və çaylar yaradar. (Nuh surəsi, 5-12)**

Quranda hz. Nuhun Allaha duasındakı bu sözlər, bizlərə, dini izah edə bilmək üçün lazım olduğunda açıq və gizli olmaq üzrə bilavasitə izahatlar da edilə biləcəyini göstərir.

Hz. Nuh, qövmünə dünyəvi mənada özləri üçün böyük əhəmiyyət daşıyan nöqtələrdən yaxınlaşaraq, bunların hamısını verənin Allah olduğunu vurğulamış və beləcə onları düşünməyə təşviq etmişdir. Məhsullarını sulamaları üçün yağış yağdıranın, mallar və uşaqlar verənin, bol məhsul verən bərəkətli bağçaları və çayları yaradanın, içərisində yaşadıqları hər cür nemətin tək sahibinin Allah olduğunu izah etmişdir. Dinin gözəlliyini və vacibliyini ilk anda tam olaraq anlaya bilməyən bu qövmü dinə isindirmək üçün, ehtiraslı istəklə bağlı olduqları dünyəvi mənfəətlərinin də əslində Allahın gücü altında olduğunu izah etməyə çalışmışdır. Çünki əgər qövmü bu izah etdiklərini qavraya bilsə, bunun ardından onlara axirətin varlığını və dini məsuliyyətlərini izah etmək daha çox asan olacaq.

## Yaradılış dəlillərinin izah edilməsi

Allahın, möminlərə dini təbliğ etmələrində göstərdiyi yollardan biri də, insanlara yaradılış dəlillərini izah etməkdir. Quranda adı çəkilən bir çox peyğəmbər qövmünü bu istiqamətdə düşünməyə yönəltmiş, Allahın bu yöndə diqqət çəkdiyi dəlilləri qövmlərinə izah etmişlər. Bunlardan biri də hz. Nuhun təbliğində vardır:

**Məgər Allahın yeddi göyü təbəqə-təbəqə necə yaratdığını görmürsünüz? Ayı bir nur, günəşi də çıraq etmişdir. Allah sizi torpaqdan bir bitki kimi bitirmişdir. Sonra O sizi ora qaytaracaq və yenidən çıxardacaqdır. Allah yeri sizin üçün xalı təki döşədi. Belə etdi ki, orada geniş yollarla hərəkət edəsiniz". (Nuh surəsi, 15-20)**

Quranda diqqət çəkilən bu mövzular, haqqında dərilərdə kitab yazıla biləcək qədər detallı məlumatlar vardır. Məsələn, səmanın yeddi ayrı laydan ibarət olduğuna, bunların dünya üzərindəki ekoloji sistemə və canlılara təmin etdiyi faydaları, ay və günəşin, mövsümlərə, iqlimlərə, gecə-gündüzün yaranmasına və insan həyatına olan təsirini düşünmək insanın düşüncə üfüqünü genişlədəcək, ağlını, başqa sözlə imanını artıracaq bir yoldur. Bu sistemlərdə meydana gələcək ən kiçik bir axsaqlığın necə təhlükəli nəticələr doğuracağını düşünmək də eyni şəkildə təsirli olacaq. Bütün kainat bunlar kimi saysız detallarla doludur və cahiliyyə cəmiyyətində insanların çoxu gündəlik həyatlarında bunları düşünməzlər. Bu səbəblə yaradılış dəlillərini insanların heç düşünmədikləri istiqamətləri ilə izah edərək edilən təbliğ qarşı tərəfi düşünməyə sövq edəcək, Allahın gücünü və qüdrətini tanıyıb təqdir etməsində də təsirli olacaq.

Necə ki, Quranın bir çox ayəsində də insanlar Allahın varlığını və böyüklüyünü göstərən bu dəlilləri görməyə, bunlar üzərində düşünməyə dəvət edilmişlər. Möminlərə isə qarşılarındakı insanlara bu mövzularla öyüd vermələri xatırladılmışdır. Bu mövzudakı yüzlərlə ayədən bir neçəsi belədir:

**Məgər onlar başları üstündəki göyə baxıb onu necə yaratdığımızı və necə bəzədiyimizi görmürlərmi? Orada heç bir yarıq da yoxdur. Biz yeri döşədik, orada möhkəm dağlar yerləşdirdik və gözoxşayan bitkilərin hər növündən yetişdirdik. Bunu, Allaha üz tutan hər bir qul üçün ibrət və öyüd-nəsihət olsun deyə belə etdik. Biz göydən bərəkətli su endirdik, onunla bağlar və biçilən taxıl dənələri bitirdik. Eləcə də meyvələri salxım-salxım asılmış hündür xurma ağacları bitirdik. Qullara ruzi olsun deyə belə etdik! Biz onunla ölü bir məmləkəti dirilttdik. Dirilib qəbirdən çıxmaq da belədir. (Qaf surəsi, 6-11)**

**Məgər onlar dəvənin necə yaradıldığını görmürlər? Göyün necə yüksəldiyini görmürlər? Dağların necə sancıldığını görmürlər? Yerin necə döşədildiyini görmürlər? Onlara nəsihət ver! Sən yalnız nəsihətçisən. (Ğaşiyə surəsi, 17-21)**

**Məgər kafirlər göylərlə yer bir olduğu zaman Bizim onları bir-birindən araladığımızı, hər bir canlını sudan yaratdığımızı görmürlərmi? Yenədəmi inanmırlar? Yerin onları yırğalamamasından ötrü orada möhkəm dağlar yaratdıq. Onlar istədikləri yerə gedə bilsinlər deyə, orada geniş yollar saldıq. Göyü mühafizə olunan bir tavan etdik. Onlar isə oradakı dəlillərimizdən üz çevirirlər. Gecəni, gündüzü, günəşi və ayı da yaradan Odur. Onların hər biri öz orbitində üzür. (Ənbiya surəsi, 30-33)**

**Ölü torpaq onlar üçün bir dəlildir. Biz onu yağışla dirildir, oradan taxıl çıxardırıq, onlar da ondan yeyirlər. Biz orada xurma bağları və üzümlüklər yaratdıq, bulaqlar qaynadıb çıxartdıq ki, onların meyvələrindən və öz əlləri ilə becərdiklərindən yesinlər. Bəs onlar şükür etməyəcəklərmi? Yerin bitirdiklərindən, insanların özlərindən və bilmədiklərindən bütün cütləri yaradan Allah pakdır, müqəddəsdir. (Yasin surəsi, 33-36)**

**Həqiqətən, göylərdə və yerdə möminlər üçün dəlillər vardır. Sizin yaradılışınızda və Allahın yer üzünə yaydığı canlılarda qəti iman gətirmiş insanlar üçün neçə-neçə dəlillər vardır. Gecə və gündüzün bir-birini əvəz etməsində, Allahın göydən yağmur endirib onun vasitəsilə yeri ölümündən sonra diriltməsində və küləkləri istədiyi səmtə yönəltməsində düşüncəli insanlar üçün də dəlillər vardır. Bunlar Allahın ayələridir. Biz onları sənə bir həqiqət kimi oxuyuruq. Onlar Allaha və Onun dəlillərinə dair sözə inanmadıqdan daha sonra hansı sözə inanacaqlar?! (Casiyə surəsi, 3-6)**

## Allahın varlığının geniş kütlələrə izah edilməsi

İndiyə qədər görüldüyü kimi Quranda təbliğ mövzusunda müxtəlif üsullar təqdim edilmiş, hansının tərcih ediləcəyini təyin olunması isə möminin ağlına və vicdanına buraxılmışdır. Məsələn, Quranın bir çox ayəsində tək-tək təbliğdən bəhs edilərkən, bəzi ayələrdə də insanlara toplu təbliğ edilə biləcəyinə işarə edilir.

Peyğəmbər hekayələrinin çoxunda, peyğəmbərlərin qövmlərinə toplu izahatlar verdiyini görərik. "**Ey qövmüm...**" ifadəsi ilə başlayan bu ayələrlə kütlə təbliğinin hikmətlərinə də diqqət çəkilmişdir. Bu mövzuya diqqət çəkən ayələrdən biri Ad qövmü ilə əlaqədardır:

**Ad qövmünə də qardaşları Hudu göndərdik. O dedi: “Ey qövmüm! Allaha ibadət edin. Sizin Ondan başqa məbudunuz yoxdur. Yoxsa qorxmursunuz?” (Əraf surəsi, 65)**

Bəzi insanlar qarşı fikirdə olan birindən təsirlənməyi ilk anda qürurlarına yedirə bilməzlər, ya da ön mühakiməli olan insanlara fərdi olaraq deyil, toplu təbliğ etmək daha yaxşı nəticələr verə bilər. Həmfikir olduqları yoldaşlarının verəcəyi müsbət reaksiya digərlərini də müsbət istiqamətdə təsir edə bilər. Bu səbəbdən bəzi vəziyyətlərdə birliyin psixologiyası nəzərə alınaraq, daha təsirli olması məqsədiylə bu üsul tətbiq oluna bilər.

## Əsas məskunlaşma mərkəzləri

**Sənin Rəbbin şəhərlərdən ən mühüm olanına, özlərinə ayələrimizi oxuyan bir elçi göndərməmiş o şəhərləri məhv etmədi. Biz yalnız əhalisi zalım olan şəhərləri məhv etdik. (Qəsas surəsi, 59)**

Allahın dinini təbliğ edən peyğəmbərlərin, hər dövrdə əsas məskunlaşma mərkəzlərinə göndərilmələri möminlər üçün yol göstərici xüsusiyyətdədir. Şübhəsiz, bunun hikməti vardır. Əhəmiyyətli nöqtələrə ağırlıq verib daha sonra bu ağırlıq nöqtəsinin genişlədilməsi hər zaman daha təsirlidir. Tarix boyunca görüldüyü kimi iman edənlər din əxlaqını izah etməyə əvvəlcə yaxın ətraflarından başlamışlar. Onlar din əxlaqının təqdim etdiyi gözəllikləri tam olaraq qavradıqlarında da bir az daha geniş kütləyə yönəlmişlər.

Əsas məskunlaşma mərkəzləri Quranda diqqət çəkildiyi üzrə ümumiyyətlə qövmün öndə gələn inkarçılarının olduqları yerlərdir. Qövmün öndə gələn inkarçıları isə, küfrdə və azğınlıqda da başı bəla çəkən insanlardır. Buna görədir ki, tarix boyunca peyğəmbərlər Allahdan qorxub çəkinməyi və gözəl əxlaqı ilk olaraq bu insanlara təbliğ etmişlər.

Əvvəlcə qövmün öndə gələnlərini dinə dəvət etmə mövzusunda Qurandan bir nümunə, Allahın hz. Musanı təbliğ üçün ilk olaraq Firona göndərməsidir:

**Musanın hadisəsi sənə yetişdimi? O zaman Rəbbi onu müqəddəs Tuva vadisində səsləyib demişdi: “Fironun yanına yollan! O, həddini çox aşmışdır. De: “Günahlardan xilas olmaq istəyirsənmi? Səni Rəbbinə doğru yönəldimmi ki, Ondan qorxub çəkinəsən?” (Naziat surəsi, 15-19)**

Bunun hikməti isə açıqdır. İnkarda öndərlik edən insanlar inandıqları fəlsəfələri məğlub olduğu təqdirdə, onlara tabe olan insanlar da bundan təsirlənəcəklər.

## Zənginlik və ehtişamın təbliğdəki təsiri

Təbliğdə əməl ediləcək üsullar və izah ediləcək mövzular qədər, mühitin diqqətli olaraq seçilməsi də olduqca əhəmiyyətlidir. Əslində bu, təbliğ əsas mövzu olsa da olmasa da, möminlərin dünyada cənnət mühitinə ən yaxın şərtləri yaratmağa çalışmalarının təbii nəticəsidir. Çünki möminlər Quran ayələrindəki estetikaya və sənətə istiqamətli işarələrdən və cənnət təsvirlərindən anladıqlarını, dünyada da yaşadıqları mühitlərə tətbiq etməyə çalışarlar. Quranda cənnətə aid bəhsi keçən köşklər, bağçalar, bulaqlar, taxtlar və daha bir çox dekorasiya şəkli son dərəcə ehtişamlı, təsir edici və insan ruhunun ən çox zövq alacağı şəkildədir. Bu səbəblə möminlər də, Quranda işarə edilən tərzdə estetik anlayışını mənimsəyərlər.

Quranda, təbliğdə də zəngin və ehtişamlı mühitin seçilməsinin müsbət təsirinə diqqət çəkilmişdir. Beləliklə, dini yeni tanıyan adam da, möminlərin həyat tərzini, yaşadıqları mühitdəki cənnət xüsusiyyətlərini görə bilməlidir ki, ürəyi dinə asanlıqla isinsin və Quranın həyata bağlı hər istiqamətdəki tətbiqi kimi, bu mövzunun da tətbiqli şəklini görə bilsin.

Quran ayələrində bu mövzuyla əlaqədar olaraq verilən nümunə hz. Süleymanla əlaqədar hekayədə keçir:

**Qadına: "Saraya daxil ol!" – deyildi. O, sarayı gördükdə onu dərin bir gölməçə hesab etdi və baldırlarını açdı. Süleyman dedi: "Bu, büllurdan hamarlanıb düzəldilmiş bir saraydır!" Qadın dedi: "Ey Rəbbim! Mən özümə zülm etmişdim. İndi isə Süleymana tabe olub aləmlərin Rəbbi olan Allaha təslim oldum!" (Nəml surəsi, 44)**

Səba məlikəsi və xalqının günəşə tapındığını xəbər alan hz. Süleyman, onları Allaha və dinə təslim olmağa dəvət etmişdir. Hz. Süleymanın göndərdiyi təbliğ məktubu üzərinə onun sarayına gedən Məlikə, köşkün ehtişamı və zənginliyi qarşısında çox təsirlənmişdir. Bu zövqə bəslədiyi heyranlıq, onun hz. Süleymana tabe olmasına vəsilə olmuşdur.

Ayədə köşkün yerinin şəffaf olduğuna və Səba Məlikəsinin buranı su sanaraq ətəyini qaldırdığına diqqət çəkilmişdir. Hz. Süleymanın sarayının bu xüsusiyyəti, cənnət təsvirlərində izah edilən "**altından çaylar axan köşkləri**" xatırladan xüsusiyyətdədir və dünya şərtlərindəki halı ilə də olsa, təbliğ edilən insan üzərində dərhal təsirini göstərmişdir. Ətrafında gördüyü gözəlliklərin dərin ağlın məhsulu olduğunu fərq edən Səba Məlikəsi, başlanğıc olaraq bu vəsiləylə dinin üstünlüyünü görə bilmişdir.

Digər tərəfdən təbliğ edilən məkanın estetikasıyla və təmizliyiylə qüsursuz olması psixoloji rahatlıq baxımından da son dərəcə əhəmiyyətlidir. İşıqlı, fərah, estetik olaraq

döşənilmiş və təmiz mühitlər, bir növ, möminin sabit və dinc quruluşunu əks etdirər və qarşı tərəfə də müsbət istiqamətdə təsir edər. Qaranlıq, darıxdırıcı, uyğunsuz və dağınıq mühit isə fərqində olsa da olmasa da, hər insanın ruhuna sıxıntı verər.

Amma bunu da unutmamaq lazımdır ki, insana anlayışı (hidayəti) verən Allahdır. Bu mühitlərin hazırlanması yalnız dua xüsusiyyətindədir. Bütün bunlara baxmayaraq insan iman etməyə bilər. Əhəmiyyətli olan möminlərin Allahın razılığını qazanmaq məqsədiylə səy göstərmələri və təbliğ ibadətlərini yerinə yetirmələridir. İman edənlər etdiklərinin əsl qarşılığını axirətdə alacaqlarını ümid edərlər.

## Təbliğdə xarici görünüşün əhəmiyyəti

Möminlər fiziki görünüşləriylə də Quran əxlaqını yaşadıqlarını göstərərlər. Allah Quranda estetikaya, bədən təmizliyinə, təmiz paltarlara diqqət çəkmiş və gözəl əxlaqın gərəyi olaraq möminlərin bu tövsiyələrə də diqqətli şəkildə uymasını əmr etmişdir. Məhz Quran əxlaqını izah edən möminin bu mövzuda da Allahın bütün əmr və tövsiyələrini tətbiqi qarşı tərəfdə müsbət təsir buraxar.

Bir tərəfdən, əhəmiyyətli mövzuya diqqət verə bilmək ancaq gümrah və rahat psixologiya ilə mümkündür. Buna görə, Allahın ayələrini izah edən insanın üzərində diqqət dağıdacaq xüsusiyyətdə, narahat edici heç bir ünsür olmaması, onu dinləyən insanın bütün diqqətini izah edilənlərə verə bilməsini təmin edəcək. Bədəni və geyimləri baxımsız olan adam, qarşısındakı insanda hələ ən başdan mənfi və iyrənc təsir meydana gətirər. Ancaq Qurana və Peyğəmbərimiz (s.ə.v)-in sünnəsinə uyan möminin görünüşü, gözə son dərəcə xoş gələr. Təmizliyi və baxımı isə son dərəcə diqqət çəkici xüsusiyyətdədir və qarşı tərəf üzərində heyranlıq və hörmət oyandıran təsir buraxar.

## Təbliğdə ikramın məqbul olması

Quranın işarələrindən anladığımız başqa nöqtə də, ürəyi dinə isinən kəslərə gözəl ikramlar olmasıdır. Əslində bu, təbliğ əsas mövzusu olsun ya da olmasın, möminlərin təbii həyatları içərisində bütün insanlara yönəltdikləri rəftardır. Çünki Quran əxlaqı, möminlərə, qarşılarındakı insan daha əvvəl heç tanımadıqları olsa da nəzakətli və incə düşüncəli olmağı öyrədər. Əvvəlki hissələrdə də bəhs edildiyi kimi hz. İbrahim evinə gələn qonaqlara, əvvəl heç tanımadığı və görmədiyi kəslər olmalarına baxmayaraq, dərhal ikram etmişdir.

Allah Quranın bir başqa ayəsində də, sədəqələrin kimlər üçün olduğunu açıqlayarkən, bunların arasında "**ürəkləri dinə isinişib bağlanmaqda olanlara**" (Tövbə surəsi, 60) da saymışdır. Bu səbəblə, təbliğ edilən biri üçün ediləcək hər məsrəf də Quranın tövsiyəsinə uyğun olacaq.

Digər tərəfdən əhəmiyyətli mövzunu diqqət verərək dinləmək də, izah etmək də həm enerji, həm də gümrahlıq tələb edən fəaliyyətlərdir. Uzun müddət diqqət toplayıb izah edilənləri dinləmək, həm fiziki, həm də zehni baxımdan yorğunluğa səbəb ola bilər. Bu vaxt edilən gözəl ikram, mühitə həm hərəkət gətirəcək, həm də dağılan diqqətin yenidən toplana bilməsini təmin edəcək.

## Din əxlaqını izah etmədə səmimiyyətin əhəmiyyəti

Quranda faydalı olacaq çoxlu təbliğ üsulları izah edilmiş, ancaq bütün bunları əsl təsirli edəcək şeyin isə, səmimiyyət olduğu vurğulanmışdır. Quranda vurğulanan bu səmimiyyət anlayışı, cahiliyyə cəmiyyətindəki bilinən şəklindən olduqca fərqlidir. Bu səmimiyyət, insanın ilk olaraq, izah etdiyi şeylərə özünün inanması ilə ortaya çıxar. Əks halda öz izah etdiklərinə özü inanmayan, Allahın tövsiyələrini tətbiq etməyən bir adamın izahatındakı səmimiyyətsizlik, izahat şəklindən rahatlıqla aydın olar.

Ancaq, izah etdiklərinə könüldən inanan və bunları yaşayan insanın vəziyyəti çox fərqlidir. Məsələn, axirətin varlığına qəti iman edən kimsə, cəhənnəmi qəti həqiqətdən bəhs etdiyini bilərək izah edər. İzah edərkən hiss etdikləri, üzündən, gözündən, səs tonundan və rəftarından dərhal aydın olar. Bu isə qarşı tərəfin də cəhənnəmi eyni həqiqət və qorxu ilə qəbul edə bilməsini təmin edər. Yoxsa cəhənnəmin varlığını hələ özü qavraya bilməyən insanın izahatı, onu dinləyənin üzərində də mənfi təsir buraxa bilər. Bu səbəblə, insanın izah etdiyi şeyləri bütün rəftarları, əxlaqı və həyatıyla dəstəkləməsi lazımdır.

Bu mövzuda unudulmaması lazım olan başqa nöqtə də, səmimiyyətin əsla və qəti olaraq təqlidi olaraq əldə edilə bilməyən və tamamilə həqiqi iman ilə qazanılan xüsusiyyət olmasıdır. Quranda peyğəmbərlərin bu xüsusiyyətlərinə bir çox ayə ilə diqqət çəkilmişdir. Belə ki, peyğəmbərlərin bənzərsiz səmimiyyəti ilə qarşılaşan inkarçılar, onların rəftar və danışıqlarında özlərinə təsir edən şeyin nə olduğunu anlaya bilməmişlər, bunun üzərinə "**cadugər**" böhtanı atmağa da cəhd etmişlər.

## İzahat edərkən təəccübləndirmək

Təbliğdə səmimiyyət qədər təsirli olan başqa xüsusiyyət də hikmət, yəni köklü və təsirli danışmaqdır. Köklü izahat, mövzunun, əsas vurğulanması lazım olan istiqaməti ilə izah edilərək, gərəksiz detallara girmədən qısa və təəccüb doğuran cümlələrlə ifadə edilə bilməsidir. Allah təbliğdə hikmətli izahatın əhəmiyyətinə belə diqqət çəkmişdir:

**İnsanları Rəbbinin yoluna hikmətlə, gözəl öyüd-nəsihətlə dəvət et və onlarla ən gözəl tərzdə mübahisə et. Şübhəsiz ki, Rəbbin azğınlığa düşənləri də, doğru yolda olanları da yaxşı tanıyır. (Nəhl surəsi, 125)**

Ancaq hikmətli izahatın şərti yenə səmimiyyətdir. "**Allah istədiyi şəxsə hikmət bəxş edər. Kimə hikmət bəxş edilmişsə, ona çoxlu xeyir verilmişdir**. ..." (Bəqərə Surəsi, 269) ayəsiylə, hikmətin də, səmimiyyət kimi təqlid edərək qazanıla bilinmədiyini, ancaq Allahın diləməsiylə verildiyini anlayırıq. Allah Quranda hikmətin Öz Qatından nemət olaraq verildiyini bildirərək, izahat edərkən təəccübləndirmənin əhəmiyyətinə işarə etmişdir. Bununla əlaqədar bəzi ayələr belədir:

**Musa yetkinləşib kamillik dövrünə çatdıqda Biz ona hökmranlıq (peyğəmbərlik) və elm əta etdik. Biz xeyirxah işlər görənləri belə mükafatlandırırıq. (Qəsas surəsi, 14)**

**Biz onun mülkünü möhkəmləndirdik, özünə də hikmət (peyğəmbərlik) və düzgün qərar çıxartmaq qabiliyyəti bəxş etdik. (Sad surəsi, 20)**

**... Allah ona hökmranlıq və hikmət verdi, ona istədiyini öyrətdi ... (Bəqərə surəsi, 251)**

**... Biz İbrahimin nəslinə də Kitab və hikmət bəxş etmiş və onlara böyük bir səltənət vermişdik. (Nisa Surəsi, 54)**

**Yəhyaya da: "Ey Yəhya! Kitabdan möhkəm yapış!" – deyə vəhy etdik. Biz ona uşaq ikən hikmət bəxş etdik. (Məryəm surəsi, 12)**

# QURANDA FAYDALARINA DİQQƏT ÇƏKİLƏN HEYVANLAR

Bir çox ayədə heyvanların insanlar üçün böyük nemət olduğu vurğulanmış və onlardan istədikləri kimi faydalanmaları tövsiyə edilmişdir. Bu mövzudakı ayələrdən biri belədir:

**Allah evlərinizi sizin üçün yaşayış yeri etdi, mal-qaranın dərilərindən istər səfərə çıxdığınız vaxt, istərsə düşərgə saldığınız zaman sizin üçün asanlıqla apara biləcəyiniz çadırlar, üstəlik də onların yunundan, tiftiyindən və tükündən müəyyən vaxta qədər istifadə edəcəyiniz ev əşyaları və başqa şeylər düzəltdi. (Nəhl surəsi, 80)**

Heyvanlarda insanlar üçün çox müxtəlif faydalar olduğu Quranın bir çox ayəsində xəbər verilir.

Bəzi insanlar heyvanlardan əldə edilən faydaları düşünmədən istifadə edər və Allahın bunları nemət olaraq ona verdiyini unudar. Bunları onsuz da haqqı olan, gündəlik məhsullar olaraq görər. Halbuki Allah insanlara verdiyi nemətlər qarşılığında nankorluq etməmələrini, bu nemətləri tez-tez dilə gətirərək şükür etmələrini əmr etmişdir. Bu hissədə, Allahın insanlara nemət olaraq təqdim etdiyi heyvanlardakı müxtəlif faydalara yer veriləcək.

## İnsanlar üçün faydalı heyvanlar

**Məgər onlar görmürlər ki, Biz onlardan ötrü sahib olduqları mal-qaranı Öz əllərimizlə yaratmışıq? Yaratdıqlarımızı öz istifadələrinə verdik ki, bəzilərindən minik kimi yararlansınlar və bəzilərini də yesinlər. Bunlarda onlar üçün başqa mənfəətlər və içiləcək süd də vardır. Yenə də şükür etməyəcəklərmi? (Yasin surəsi, 71-73)**

Allah insanları, sınamaq məqsədiylə, bu dünyada müxtəlif nöqsanlara və acizliklərə sahib olaraq yaratmışdır. İnsanın həyatının sonuna qədər bəslənmək məcburiyyətində olması, həyatda qalmasının bu şərtə bağlanmış olması da əslində acizlikdir. Ancaq çox insan, bəlkə də bəslənmə mövzusunu acizlik olaraq görməyi əvvəl heç vaxt düşünməmişdir. Bunu, insanın yaradılışı gərəyi sahib olduğu təbii ehtiyac olaraq qəbul etmişdir. Amma insanın belə ehtiyacının olması əksiklikdir və bu əksikliyin altında gizlənmiş hikmətlər vardır. Hər insan bu hikmətləri qavramağa çalışmalıdır. Çünki ancaq bu məntiqi qavradığı təqdirdə, Yaradıcısına qarşı acizliyini və Ondan gələcək hər nemətə

nə qədər möhtac olduğunu anlaya bilər. Oruc tutmanın möminlər üzərinə fərz olmasının hikmətlərindən biri də budur; qısa müddətli, keçici aclıq və susuzluğun da insanın öz acizliyini və zəifliyini xatırlamasına və hiss etməsinə, Allaha nə dərəcədə möhtac olduğunu anlamasına kömək olması və Allahın həyatı boyunca ona verdiyi ruziləri haqqı ilə təqdir edib bunların şükrünü və təfəkkürünü səmimi olaraq etməsinə vəsilə olmasıdır.

İnsan Allaha möhtacdır və Allah "**ruzi verən**" sifətiylə bütün qullarına ehtiyacları olan şeyləri vermişdir. Allahın insanlara qida olaraq verdiyi bu nemətlərdən biri də heyvanlardır. Bu qidalar son dərəcə müxtəlifdir; ət, süd, yumurta, bal. Sonrakı sətirlərdə Quranda diqqət çəkilən bu faydalı qidalardan bir qisminin xüsusiyyətlərindən danışacağıq.

## Ətin insan həyatına faydaları

**Onlara istədikləri meyvədən və ətdən bol-bol verəcəyik. (Tur surəsi, 22)**

İnsan orqanizmi üçün həyati əhəmiyyət daşıyan qidalardan biri, ayədə xüsusilə diqqət çəkilən ətdir.

İnsan bədənindəki zülalın elementləri amin turşularıdır. Amin turşuları, köhnələn və yox olan toxumaların yenilənməsində istifadə edilir. Bu səbəbdən orqanizmin inkişafı və özünü yeniləməsi üçün kafi miqdarda amin turşusu, yəni zülal alınması lazımlıdır. Həyati fəaliyyətlərin davamını və böyümə üçün lazımlı miqdarı tam olaraq təmin edən amin turşularının meydana gətirdiyi zülal qaynaqlarına "**tam zülal**" deyilir. Məhz bir qida olan heyvan əti zülala ən yaxın olan yeməkdir. Tərəvəz zülalları ümumiyyətlə tam zülal deyildirlər və orqanizmə lazım olduğu qədər amin turşusu təmin edə bilməzlər. Bundan əlavə yalnız tərəvəz ilə edilən, karbohidrat baxımından zəngin lakin zülal baxımından qeyri-kafi bəslənmə, orqanizmin kafi ölçüdə amin turşusu almasına mane olar və nəticədə şiş deyilən, su toplamasına bağlı şişliklər ortaya çıxar. Şiş isə, insanın həyatına son verə biləcək dərəcədə ciddi narahatlıqdır.

Ət, yalnız zülal baxımından zəngin qida deyil. İçərisində eyni zamanda insan üçün həyati əhəmiyyətə sahib olan dəmir, sink, fosfor, kalium, selenium kimi minerallardan əlavə bir çox vitamin (ən çox B qrupu vitaminləri) də var. Dəmir və sink bitki mənşəli qidalarda da vardır ancaq, davamlı bitki mənşəli qidalarla bəslənənlər, lif tərkibi qidaları yediklərindən, orqanizmin bunları mənimsəməsi güc olar.

Qırmızı ətdəki doymuş yağlar, xüsusilə kişilərdə iflici önləyici təsiri vardır. İflic qanın beyin hüceyrələrinə birdən nasosla vurulması nəticəsi meydana gəlir. Qanın bu ani axışı sonrası bir çox beyin hüceyrəsi ölər və insan iflic olar. Ancaq aparılan son tədqiqatlar nəticəsində heyvan yağının qanın beyinə axışını təşkil etdiyini ortaya çıxarmışdır.

Bundan əlavə, ət ehtiva etməyən bəslənmə şəkillərinin, xolesterol baxımından aşağı olduğu düşünülür. Halbuki bu səhv məntiqdir. Çünki ətdən başqa yemək qruplarında mövcud olan gizli yağların nisbəti olduqca yüksəkdir. Bu səbəbdən vegetarianlar, bu şəkildə bəslənməklə, bəhs edilən gizli yağları da orqanizmlərinə daxil etmiş olarlar. Diyet mütəxəssisləri insanların sağlam bəslənmələri üçün gündə 300 mg-dan az xolesterol almalarını tövsiyə edirlər. Məhz ətdən əldə edilən xolesterol tam bu diyetə uyğun miqdardadır.

Ət gec həzm olunur ancaq, içindəki zülalların 95%-i, yağların isə 96%-i asanlıqla həzm olunar. Bununla yanaşı yağlar, digər qidaların da həzm edilməsinə imkan yaradar. Beləcə uyğun nisbətdə yağ ehtiva edən ət, mədədə uzun müddət qalaraq acmağı gecikdirər və aclığa dözmə gücünü artırar. Bunun xaricində ətin tərkibində olanlar, həzm sistemindəki tüpürcək bezlərini hərəkətə keçirərək iştaha açar və həzmi asanlaşdırar.

Elmi olaraq açıqlanan bütün bu xüsusiyyətlərlə yanaşı ət, eyni zamanda son dərəcə ləzzətli və sevilən qidadır. Orqanizmin bu cür ehtiyac duyduğu qida, əgər bu qədər ləzzətli olmasaydı, yalnız ehtiyac olduğu üçün onu yemək insanlara zövq deyil, əksinə əziyyət verə bilərdi. Ancaq Allah qullarına lütf edərək, bu ehtiyaclarını zövqlə aradan qaldıracaq şəkildə imkan yaratmışdır. Quran ayələrində ətin cənnət yeməklərinin arasında sayılması isə, ətin dəyərini bir daha vurğulayır.

**və istədikləri quş əti ilə hərlənəcəklər. (Vaqiə surəsi, 21)**

## Heyvanların möcüzəvi istehsalı, süd

**Şübhəsiz ki, mal-qarada da sizin üçün bir ibrət vardır. Biz sizə, onların qarınlarındakı ifrazat və qan arasından çıxan, içənlərin boğazından rahat keçən təmiz süd içirdirik. (Nəhl surəsi, 66)**

Südün yaranması, əslində son dərəcə möcüzəvi hadisədir. Bir heyvanın bədənindəki qan və yağın arasından, bunlardan tam ayrı xüsusiyyətlər daşıyan, qüsursuz təmizlikdə və ləzzətdə bir içkinin çıxması mütləq üzərində düşünülməli vəziyyətdir.

İnsanlara təmin etdiyi faydalar baxımından südün tərkibinə baxıldığında, həm uşaqların, həm də yetkinlərin bəslənməsində çox əhəmiyyətli rol oynadığı görülər. Südə ağ rəngini verən, kazein deyilən zülaldır. Bir süd damcısına mikroskopla baxıldığında isə, içində kiçik damcılar halında üzən yağ dənəcikləri görülər. Südün içində kazein və yağdan başqa həll olmuş laktoz adı verilən süd şəkəri, sümük və dişlərin yaranmasında rol oynayan kalsium və fosfor kimi minerallar və həyati əhəmiyyət daşıyan bir çox vitamin var.

Görüldüyü kimi süd, insan bünyəsinin ehtiyac duyduğu bir çox maddəni ehtiva edən çox zəngin qidadır. Allahın insanlara həm faydalanmaları, həm də düşünüb Onu təqdir edə bilmələri üçün yaratdığı süd, eyni zamanda cənnətdə də yaradılacağı bildirilən nemətdir:

**Müttəqilərə vəd olunan Cənnətin vəsfi belədir; orada xarab olmayan sudan çaylar, dadı dəyişməyən süddən çaylar, içənlərə ləzzət verən şərabdan çaylar və süzülmüş baldan çaylar vardır. Orada onları hər cür meyvə və Rəbbi tərəfindən bağışlanma gözləyir. Məgər onlar od içində əbədi qalan və bağırsaqlarını parça-parça edən qaynar su içirdiləcək kimsələr kimi ola bilərlərmi? (Məhəmməd surəsi, 15)**

## Baldakı saysız faydalar

**Rəbbin bal arısına belə vəhy etdi: "Dağlarda, ağaclarda və insanların düzəltdikləri çardaqlarda özünə pətəklər hör. Sonra bütün meyvələrdən ye və Rəbbinin səndən ötrü asanlaşdırdığı yollarla get". O arıların qarınlarından tərkibində insanlar üçün şəfa olan müxtəlif rəngli bal çıxır. Həqiqətən, bunda düşünən adamlar üçün dəlillər vardır. (Nəhl surəsi, 68-69)**

Bal, istər içində saxladığı vitaminlər və minerallarla, istərsə də tərkib xüsusiyyətləri səbəbiylə insanlar üçün həqiqətən də tam şəfa xüsusiyyətindədir. İçində, kalsium, kalium, maqnezium, natrium xlorid, kükürd, dəmir və fosfor kimi minerallar, qlükoza, fruktoza kimi şəkərlər, B1, B2, B3, B5, B6 və C vitaminləri var. Bunlarla yanaşı, içində az miqdarda, bəzi hormonlar, sink, mis və yod da vardır. Şübhəsiz balın içindəki bütün bu qidalar, insan sağlamlığı baxımından son dərəcə əhəmiyyətli və faydalıdır.

1993-cü ildə Dünya Arıçılıq Konqresində elm adamları bal haqqında bu açıqlamanı etmişlər:

Konqresdə, arı məhsulları ilə müalicə mövzusu üstünlük qazandı. Xüsusilə ABŞ-lı elm adamları bal, arı südü, polen və arı qatranının (propolis) bir çox xəstəliyi müalicə etdiyini bildirdilər. Rumıniyalı doktor balı katarakt xəstələri üzərində sınadığını və 2094 xəstədən 2002-sinin (95%) bal sayəsində tam olaraq yaxşılaşdığını açıqladı. Polşalı doktorlar isə arı qatranının hemoroid, dəri xəstəlikləri, qadın xəstəlikləri kimi bir çox xəstəliyə yaxşı təsir etdiyini təsbit etdiklərini bildirdilər.

Balın bir xüsusiyyəti də, şəkərə nisbətlə 40% daha az kalori ehtiva etməsidir. Bu xüsusiyyəti ilə bal, həm yüksək enerji verən, həm də aşağı kalorili olan yeganə qidalardan biridir.

Aşağı kalorili olan bu ləzzətli şərbətin başqa xüsusiyyəti də asan həzm edilməsidir. Balın tərkibində fruktoz, glukozaya çevrilə bilmə xüsusiyyətinə sahib şəkərdir. Bu sayədə bal, yüksək miqdarda turşu ehtiva etməsinə qarşı, mədəsində problem olanlar tərəfindən belə rahatlıqla həzm olunur.

Balın ayrıca, böyrəklərin və bağırsaqların rahat işləməsini təmin edəcək quruluşu vardır. Eyni vəziyyət ehtiva etdiyi sərbəst şəkərlər səbəbiylə beynin də işini asanlaşdırar. Orqanizm üçün asanlaşdırdığı başqa şey isə, qan dövranı və qanın təmizlənməsidir. Qanın təmizlənib, orqanizmdə dolaşmasına köməkçi olmasıyla yanaşı, qanın istehsalında da rol oynayır. Orqanizmə təmin etdiyi bol enerji, qan istehsalı üçün lazımlı olan enerjinin böyük qismini qarşılayacaq xüsusiyyətdədir.

Bütün bunlarla yanaşı, damar sərtliyi kimi təhlükəli narahatlıqlara qarşı qoruyucu xüsusiyyətə sahib olan bal eyni zamanda bakteriya öldürücü xüsusiyyətə də malikdir.

İlıq suyla qarışdırıldığında 7 dəqiqə kimi qısa müddətdə qana qarışan bal, bu xüsusiyyəti ilə bədənə şəfa dağıtma vəzifəsini ən yaxşı və ən sürətli şəkildə yerinə gətirər. Bundan əlavə bal, sulandırıldığında antibakterial, amma toxumalara zərər verməyən bir antiseptik ortaya çıxmış olar. Bunun xaricində balın içində antibakterial xüsusiyyətləri olan bir neçə kimyəvi maddə də var.

Arıların, insan sağlamlığına olan qatqıları yalnız bu qədərlə məhdudlaşmır. Bir başqa məhsulları da arı südüdür.

Arıların, kraliça arını bəsləyə bilmək üçün ifraz etdikləri, jele kimi və kəskin qoxulu olan bu maddə, insanlar üçün ayrı şəfa qaynağı xüsusiyyətindədir. Arı südü deyilən bu maddənin içində fosfor, kalsium, dəmir, natrium, kalium, maqnezium kimi minerallar, B2, B3, B6 vitaminləri, zülal və karbohidrat var.

Arı südünü insanlar, fiziki yorğunluqda, zəiflik kimi bədənin halsız olduğu zamanlarda, damar sərtliyi və toxuma yaşlanmalarından qaynaqlanan narahatlıqların yaxşılaşdırılmasında istifadə edərlər.

**Məgər Allahın göylərdə və yerdə olanları sizə ram etdiyini, Özünün aşkar və gizli nemətlərini sizə bol-bol verdiyini görmürsünüzmü? İnsanlar arasında eləsi də vardır ki, heç bir biliyi, doğru yol göstərəni və nur saçan bir kitabı olmadan Allah barəsində mübahisə edir. (Loğman surəsi, 20)**

## Heyvanların digər faydaları

**"Üstündə yük daşınan və yük daşınmayan mal-qaranı da yaradan Odur ..."** (Ənam surəsi, 142) ayəsi heyvanların insana təmin etdiyi digər faydalarına da diqqət çəkir. Heyvanlar istər yunları, istər tükləri, istərsə dəriləriylə insanlara saymaqla bitməyəcək

qədər çox fayda verərlər. Bu vəsaitlər, insanın gündəlik həyatında qarşısına çıxan əşyaların çoxunun xammalını meydana gətirər.

Geydiyimiz jaketlərdən ədyallara, yerə sərdiyimiz xalçalara, paltar tikilən parçalardan, kreslo örtük vəsaitlərinə qədər hər cür əşyanı bu heyvanlardan əldə edərik. Bununla yanaşı, yenə qoyundan mala, ilandan timsaha qədər müxtəlif heyvanlardan təmin edilən dəri də, geyimdən döşəməyə ya da bəzək əşyalarına qədər hər sahədə sıx olaraq istifadə edilər.

Heyvanların bizə təmin etdiyi faydalardan biri də, ipəkqurdunun çıxardığı ipəkdir. Bu parça, Allahın insana verdiyi gözəl nemətdir. Belə ki, Quranda cənnətin təsvir edildiyi ayələrdə, cənnət paltarlarının ipəkdən olduğu izah edilir:

**onlara səbir etdiklərinə görə Cənnəti bəxş edər və orada geyəcəkləri ipəklə mükafatlandırar. (İnsan surəsi, 12)**

**Məhz onlar üçün ağacları altından çaylar axan Ədn bağları hazırlanmışdır. Onlar orada qızıl bilərziklərlə bəzədiləcək, taftadan və atlazdan yaşıl paltarlar geyəcək və orada taxtların üstündə dirsəklənəcəklər. Nə gözəl mükafat, necə də gözəl məskəndir! (Kəhf surəsi, 31)**

Əlbəttə ki, cənnət ipəyi, dünyadakı ilə müqayisə edilməyəcək gözəllikdə və təsir edici olacaq. Ancaq dünyadakı ipək də qiymətli parçadır. Necə ki, ipəyin meydana gəlməsindən işlənməsinə qədər olan zəhmətli mərhələni araşdırdığımızda bu dəyər daha çox açıq şəkildə ortaya çıxar.

Unutmamaq lazımdır ki, olduqca qiymətli parça olan ipəyin istehsalçısı yüksək ağıl sahibi insan və ya yaxşı dizayn edilmiş maşın deyil, tam tərsinə təxminən 5-10 sm böyüklüyündə böcəkdir. Bu parçaların böyük hissəsi ipək böcəklərinin hördüyü baramalardan çəkilən ipəklərlə toxunar.

İpəkqurdu yumurtasından çıxan tırtıllar, müəyyən yetkinləşmə müddətini aşdıqdan sonra budaqların üzərinə çıxaraq öz baramalarını hörməyə başlayarlar. İpək, bu canlının bədənindəki bir cüt ipək bezindən ifraz olunar və tırtılın alt dodağındakı dəlikdən çölə çıxar. İpəkqurdunun ifraz etdiyi bu yapışqan maddə, hava ilə təmas edər-etməz sərtləşər. Bunun ardından insanlar bu baramaları yığaraq bir sıra əməliyyat keçirərlər və bizim bildiyimiz mənadakı ipək də bu müddətdən sonra yaranar.

İpəkqurdunun çıxardığı bu iplik, bütün dünya səviyyəsindəki toxuma sektorunda istifadə edilib insanlara müxtəlif tekstil məhsulları olaraq döndüyü kimi, eyni zamanda tibb sahəsində də funksional yerə malikdir. Cərrah ipəyi adı verilən ipək növü, cərrahı

texnikasında möhkəm bağ və tikişlərin atılmasında istifadə edilir və yenə insanların qarşısına fayda verən ünsür olaraq çıxır.

Kiçik böcəyin, Allahın ona ilham etməsi nəticəsində, düsturu öz bədənində gizli olanı ifraz etməsi və bunu insanların xidmətinə təqdim etməsi şübhəsiz ki, fövqəladə vəziyyətdir.

İnsanların heyvanlardan əldə etdiyi mənfəətləri bir neçə maddəylə məhdudlaşdırmaq əlbəttə ki, mümkün deyil. Yer üzü üzərində minlərlə növ heyvanın var olduğu düşünülsə, hər birindən istifadə edilən mövzuları saymaq belə səhifələrlə yer tutacaq. Necə ki, bu həqiqətə Quranda, "**Əgər Allahın nemətlərini saymalı olsanız, onları sayıb qurtara bilməzsiniz ...**" (Nəhl surəsi, 18) ayəsiylə də diqqət çəkilmişdir.

Allahın insanlar üçün heyvanları bu qədər çox faydalarla təchiz etməsi, qullarına olan sevgisinin və onlar üzərindəki qorumasının göstəricisidir. Amma bunları Allahın verdiyini unudan kimsə üçün, bütün bu nemətlər axirətdə sorğuya çəkiləcəyi məsuliyyət və yük olacaq. Bu səbəblə, Allahın dəvət etdiyi şəkildə dərin düşünüb, bunların altında yatan hikmətləri görmək və şükür etmək lazımdır.

## Dənizlərdən əldə edilən faydalara işarələr

Allahın bizlərə təqdim etdiyi saysız nemət içində dənizlərdən əldə edilənləri də saya bilərik. Quranda bu faydaların bir qismi belə bildirilmişdir:

**O, dənizi də sizin xidmətinizə verdi ki, ondan yemək üçün təzə balıq və taxmaq üçün bəzək şeyləri əldə edəsiniz. Sən gəmilərin dənizi yara-yara üzdüyünü görürsən. Bütün bunlar Allahın lütfündən sizə nəsib olanları axtarıb tapmağınız və şükür etməyiniz üçündür. (Nəhl surəsi, 14)**

Dənizdəki heyvanlardan əldə etdiyimiz faydaları ümumiləşdirərək araşdırdığımızda saysız nemətin varlığını görərik. Hər bir dəniz, içərisindəki təbii həyat şərtlərinə görə, fərqli heyvan növlərini saxlayır. Və hamısı da insanlar üçün çox fərqli faydalar ehtiva edir. Necə ki, Fatir surəsində də bu mövzuya belə diqqət çəkilmişdir:

**İki dəniz eyni deyildir. Birinin suyu dadlı, şirin və içməyə rahat, digərininki isə həddindən artıq duzlu və acıdır. Onların hər birindən təzə balıq yeyir, taxdığınız zinət əşyalarını çıxarırsınız. Sən gəmilərin onu yara-yara üzdüyünü görürsən. Bütün bunlar Allahın lütfünü axtarıb tapmağınız və şükür etməyiniz üçündür. (Fatir surəsi, 12)**

İnsan heç bir səy göstərmədən, dənizaltındakı həyat tam nizam içində, insana fayda verəcək şəkildədir. Çünki bütün bu nizamı Allah qulları üçün əksiksiz şəkildə yaratmışdır. İnsanın edəcəyi tək şey, bu nemətləri özünə zəhmət çəkmədən təqdim edən Allaha qarşı şükür edici olmaqdır.

## Dənizdən əldə edilən qidalar

İnsanın, orqanizmi üçün lazımlı olduğunu tam olaraq bilmədiyi bir çox qida maddəsi, müxtəlif yeməklərin içərisinə qablaşdırılmış və hazır şəkildə ona təqdim edilmişdir. Bu qidalar arasında dənizdən əldə edilənlər də qida cəhətdən son dərəcə zəngindir və xüsusilə də insan bünyəsinin ehtiyac duyduğu müxtəlif mineral və vitaminləri qarşılayacaq şəkildə yaradılmışdır. Allah, "**Həm sizin, həm də səfərdə olanların faydalanması üçün dəniz ovu və onu yemək sizə halal edildi ...**"(Maidə surəsi, 96) ayəsiylə dənizdən əldə edilən qidaların faydalarına diqqət çəkmişdir.

Dəniz məhsullarının içində ən çox olan minerallar, xrom, kobalt, fosfor, mis, yod, flüor və natriumdur. Sahib olduqları bu minerallar sayəsində dəniz məhsulları böyüməyə köməkçi olar, qan təzyiqini tarazlayar və şəkər xəstəliyinin yaranmasının qarşısını alar. Ehtiva etdikləri kobalt ilə anemiya xəstəliyinin yaranmasının qarşısını alarkən, mis və yod sayəsində də dəmir sorulmasını sürətləndirərlər və dolayısilə də insanın özünü enerjili hiss etməsini təmin edərlər. Bununla yanaşı, zehni fəaliyyətini gücləndirər, dişlərin, saçların, dırnaqların daha sağlam inkişafını təmin edərlər. Bundan əlavə, dəniz məhsullarında bol miqdarda olan sink çox əhəmiyyətli elementdir. Bədənin böyüməsinə və inkişafına köməkçi olar. Dad və qoxu hiss etmə duyğularını qorumağı təmin edər, yaraların sağalmasına köməkçi olar. Lazımlı miqdarda A vitamininin qanda tutulmasını təmin edər. Əlavə olaraq enerji ehtiyacını təşkil edən insulinin bir elementidir. Ehtiva etdikləri flüor sayəsində sümüklərin güclənməsinə, əzələlərin və sinir sisteminin nizamlı işləməsinə kömək edərlər.

Bundan əlavə dənizdən əldə edilən qidalarla əlaqədar Quranda çox əhəmiyyətli detala da diqqət çəkilir. Nəhl surəsi 14-cü ayədə, Allah dənizlə əlaqədar, "**... ondan təzə ət yeyirsiniz ...**" deyə xəbər verir. Burada xüsusilə ifadə edilən "**təzə ət**" ifadəsi son dərəcə diqqət çəkicidir. Bilindiyi kimi dəniz məhsullarının mütləq təzə olaraq istehlak edilməsi lazımdır. Çünki bu məhsullar köhnə olduqlarında insan bədəninə zərər verə bilərlər. Quranda, digər heyvanlardan deyil, yalnız dənizdən əldə edilən ətlə əlaqədar olaraq belə ifadə istifadə edilməsi isə, bu mövzuya işarə edir.

## Quranda diqqət çəkilən qida: Balıq

Quranda ümumiyyətlə dəniz məhsullarına diqqət çəkilməsiylə yanaşı, balığa xüsusi işarə vardır. Kəhf surəsində Musa peyğəmbər və gənc köməkçisinin uzun səfərə çıxdığı və yanlarına da yemək olaraq balıq götürdükləri izah edilir:

**Onlar dənizlərin qovuşduğu yerdən çıxıb getdikdə Musa öz xidmətçisinə: "Nahar yeməyimizi gətir. Biz bu səfərimizdə lap əldən düşdük" – dedi. Xidmətçi dedi: "Qayanın yanında gizləndiyimiz vaxt yadına gəlirmi? O zaman mən balığı unutdum. Doğrusu, onu xatırlamağı mənə yalnız şeytan unutdurdu. Balıq dirilib qəribə bir şəkildə dənizdə yol tutub getmişdir". (Kəhf surəsi, 62-63)**

Ayələrdə diqqət çəkən nöqtə, belə uzun səfər əsnasında yemək olaraq xüsusilə balığın seçilməsidir. Allah möminlərə bir hekayəni bildirərək, balığın faydalarına, bəsləyici xüsusiyyətinə də işarə etmiş ola bilər.

Balığın qida olaraq xüsusiyyətlərini araşdırdığımızda da təəccüblü məlumatlarla qarşılaşırıq. Ehtiva etdiyi fosfor, sulfid, vanadium kimi minerallar sayəsində böyüməyi və toxumaların yaxşılaşmasını təmin edər. Oynaq ağrılarını azaldar, sağlam diş ətləri və diş quruluşu yaranmasını təmin edər, dəri rəngini gözəlləşdirər, saçların daha sağlam olmasını təmin edər, bakterial infeksiyalarla mübarizəyə köməkçi olar. Həm də qandakı xolesterol nisbətini tənzimləyici təsiriylə ürək tutmalarının qarşısının alınmasında rol oynayar. Nişasta və yağların maddələr mübadiləsinə qatılmasına kömək edərək daha enerjili və daha qüvvətli olmasını təmin edər. Bir tərəfdən də, zehni fəaliyyətlərin nizamlı işləməsində təsirlidir.

Bu xüsusiyyətləriylə yanaşı, ehtiva etdiyi D vitamini və digər mineralları lazımi miqdarda alınmadığı təqdirdə, raxitizm, diş əti xəstəlikləri, zob, hipertiroid kimi narahatlıqlar ortaya çıxar.

## Dəniz heyvanlarından əldə edilən bəzək əşyaları

Dəniz heyvanlarından əldə edilən və son dərəcə estetik gözəlliyə sahib olan bəzək əşyalarından biri, əvvəlki hissələrdə bəhs etdiyimiz incidir. İncinin yaranması isə son dərəcə maraqlıdır: İstridyə, dəniz molyusku və ilbiz kimi yumşaqcalar, qabıqlarının iç səthini sədəf deyilən ağımtıl, parlaq bir maddə ilə örtər. İçlərinə girən qum kimi dənəciklərin zərər verici təsirindən xilas olmaq üçün də eyni üsulu istifadə edər, bunları sədəflə örtərək inciləri meydana gətirərlər. İnsanlar isə dənizdən yığdıqları bu inciləri müxtəlif şəkillərdə zinət və bəzək əşyası olaraq istifadə edərlər. Bununla yanaşı bu yumşaqcaların çıxardığı sədəflər də, ən az incilər qədər istifadə olunan bəzək vəsaitidir.

Şübhəsiz, bu cür heyrətamiz sistemlə son dərəcə estetik görünüşlü bəzək əşyalarının meydana gəlməsi Allahın üstün sənətinin göstəricisidir. Bu gözəlliklərin xüsusilə möminlər üçün hazırlanmış nemət olduğuna Quranda belə diqqət çəkilmişdir:

**O, qarşı-qarşıya gələn iki dənizi bir-birinə qovuşdurdu. Onların arasında maneə vardır, onu keçə bilməzlər. Elə isə Rəbbinizin hansı nemətlərini yalan sayırsınız? Onlardan mirvari və mərcan çıxır. (Rəhman surəsi, 19-22)**

# QURANDA FAYDALARINA DİQQƏT ÇƏKİLƏN QİDALAR

Bir insan Quran ayələrini dərindən düşündüyündə, Allahın kitabında insanın ehtiyac duyduğu hər mövzunu açıqladığını və həm dünyada, həm də axirətdə rahat edə bilməsi üçün insana müxtəlif yollar göstərdiyini fərq edər. Düşünən insanın, Quran ayələrində diqqətini çəkəcək mövzulardan biri də, Allahın insan həyatına və sağlamlığına ən uyğun qidalara, müxtəlif şəkillərdə işarə etməsidir.

## Quranda adı keçən meyvələr

Quranda diqqət çəkilən qidalardan biri, bu gün bir çox xəstəliyin qarşısını alan ya da müalicə edici təsiri olduğu elmi olaraq dəqiqləşən meyvələrdir. İnsan orqanizminə çox faydaları olan bu qida növləri, eyni zamanda xoşuna gələn yeməkdir. Allah Quranda, yaratdığı meyvələrin müxtəlifliyinə və gözəlliklərinə diqqət çəkərkən, insanları bunların yaranmalarındakı möcüzəvi detalları düşünməyə də dəvət etmişdir:

**Göydən su endirən Odur. Biz onunla hər bir bitkini yetişdirdik, ondan yaşıl otlar bitirir, onlardan da üst-üstə düzülmüş dənələr çıxarırıq. Xurma ağacının tumurcuqlarından, sallanmış salxımlar yetişir. Biz həmçinin üzüm bağları, bir-birinə bənzəyən və bənzəməyən zeytun və nar ağacları da yetişdiririk. Bar verdiyi və yetişdiyi zaman onların meyvəsinə baxın. Şübhəsiz ki, bunlarda iman gətirən adamlar üçün dəlillər vardır. (Ənam surəsi, 99)**

Yer üzündə yüzlərlə ayrı növdə, ayrı dadda, ayrı rəngdə və qoxudakı meyvənin yaranması üçün Allah, eyni torpağı və suyu səbəb etmişdir. Ayədə "**bir-birinə sarmaşmış dənələr çıxartdıq**" ifadəsiylə izah edildiyi kimi toxumun illərlə bitib tükənmədən davamlı məhsul verməsi, üzərində düşünülməli mövzulardandır.

Meyvələrin yaradılması qədər, ehtiva etdikləri vitamin və mineralların bolluğu da insanları düşünməyə təşviq edir. Qapqara palçığın içərisində yetişən və torpaqla nə qoxu, nə dad, nə də rəng olaraq ən kiçik bənzərliyi olmayan meyvələr, torpaqdan yalnız insanlar üçün lazımlı olacaq mineralları mənimsəyib alarlar. Bu xüsusiyyətləri sayəsində də, insan sağlamlığına böyük qatqıları olar. Ancaq nə torpağın meyvəyə hansı xüsusiyyətləri qazandıracağını bilməsi, nə də meyvənin şüurlu şəkildə, torpağı komponentləri ayırıb özü üçün lazımlı olan maddələri müəyyən edilmiş nisbətdə ala bilməsi mümkün deyil. Halbuki bu sistem elə mükəmməl nizam içərisində işləyir ki, hər meyvə cinsi, sabit rəng, dad və qoxu, həm də sabit nisbətlərdə mineral və vitamin ehtiva edər. Məsələn, qarpız heç vaxt

qırmızı yerinə mavi olmaz, şirin yerinə turş olmaz, ya da özünə xas qoxusu yerinə torpaq qoxusu verməz.

Məhz bu nizamı bütün kainatın tək hakimi, tək ilahı olan Allah qurmuş və insanların üzərində düşünüb şükür etməsi üçün gözlər önünə sərmişdir.

Quranda adı keçən çoxlu sayda meyvə növü vardır. Bu meyvələrin böyük qismi, inananlara cənnətdə də təqdim ediləcək nemətlərdir. Bu hissədə Allahın faydalarına işarə etdiyi meyvələrin orqanizmə olan faydalarına qısaca toxunacağıq.

## Albalının təmin etdiyi faydalar

**Yüklü budaqları bükülmüş albalı (ağacları) (Vaqiə surəsi, 28)**

Albalı, orqanizmi zəhərli maddələrdən təmizləyən meyvədir. Böyrəkləri təsirli şəkildə işlədər, bu səbəbdən bədəndə yığılan sidik cövhəri turşusu və duzlarının çölə atılmasını təmin edər. Bu sayədə romantizmi, kirəclənmə və damar sərtliyi kimi xəstəliklərin də qarşısı alınmış olar. Bundan əlavə albalıda olan kinik turşu, böyrəklərdə qum və daş yaranmasının qarşısını alar, əgər belə bir şey varsa da zaman keçdikcə tökülməsini təmin edər. Albalının böyrək daşıyla yanaşı, öd daşını da salma təsiri vardır. Bundan başqa qandakı zərərli maddələri çölə ataraq qanı təmizləyər. Bu səbəbdən qan çirklənməsi nəticəsi yaranan sızanaq bənzəri dəri problemlərini aradan qaldırar.

Böyrək, öd kisəsi, dəri və qana təmin etdiyi faydalarla yanaşı albalı eyni zamanda qaraciyər üçün də faydalıdır. Müxtəlif xəstəliklər səbəbiylə ya da çox dərman alınmasından qaynaqlanan zəhərlənmə nəticəsi şişən qaraciyərin şişliyini azaldar, yüngülləşdirər və sağalmasına kömək olar.

Albalıda olan şəkər qana çox tez qarışar. Bu da orqanizmə bol miqdarda mineral duzlar və vitamin verərək, bədənin xəstəliklərə qarşı dözümlülüyünün artmasını təmin edər. Həm də albalının içində bol miqdarda fosfor olması da, sinirləri qüvvətləndirər.

Qısaca bu cür çox sayda faydası olduğu aydın olan albalı, Allahın qullarına təqdim etdiyi ikramdır. Milyonlarla ildir heç dəyişmədən, dünyanın hər yerində eyni dad, qoxu, görünüş ilə varlığını davam etdirən albalı, eyni zamanda da onlara sağlamlıq təqdim edən qidadır.

## Cənnət meyvəsi: Banan

Quranda albalı kimi cənnət meyvələri arasında adı keçən başqa meyvə də banandır. Cənnət təsvirlərinin edildiyi ayələrdə, Allah bu meyvələrdən belə bəhs edir:

**Onlar tikansız sidr ağacları arasında, meyvələri salxım-salxım asılmış banan ağacları altında, uzanmış kölgəliklərdə, daim axan sular kənarında, çoxlu meyvələr, tükənməz və qadağan edilməyən meyvələr içində (Vaqiə surəsi, 28-33)**

Əlbəttə cənnətdəki banan da digər bütün nemətlər kimi, dünyadakından daha qüsursuz, heç vaxt xarab olmayan, çox ləzzətli, gözəl qoxulu və hətta bəlkə bizim xəyal edə bilməyəcəyimiz qədər mükəmməl meyvədir. Ancaq Allah dünyada da bu cənnət nemətinin bənzərini yaratmış və möminləri bu meyvədən faydalandırmışdır.

Son dərəcə bəsləyici meyvə olan bananın tərkibində 75% nisbətində su, 1,3% nisbətində zülal və 0,6% nisbətində də yağ var. Geri qalanı isə müxtəlif karbohidratlardan və əhəmiyyətli ölçüdə kaliumdan ibarətdir. Bir çox xəstəliyin müalicəsində faydalı olduğu kimi xüsusilə də, qızdırma, həzm pozğunluğu, əzələ qıc olmaları və əzələ zəifliyi kimi vəziyyətlərdə tövsiyə edilir. Ehtiva etdiyi yüksək nisbətdəki kalium sayəsində, tullantıların vücuddan çölə atılması əməliyyatını asanlaşdırar.

Qan təzyiqinin düşməsini təmin edər. Bununla yanaşı banan, allergiya müalicəsində də istifadə edilir. İçindəki kalium, natrium ilə birlikdə işləyərək hüceyrə və əzələ inkişafını təmin edər, orqanizmin su tarazlığını nizamlayar və ürəyin normal vəziyyətdə döyünməsini təmin edər. Əgər orqanizmdəki natrium-kalium tarazlığı pozulsa, sinir sistemi və əzələlərin fəaliyyətlərində nizamsızlıq meydana gələr. Bu səbəblə kalium tarazlığının qorunması orqanizm üçün son dərəcə əhəmiyyətli mövzudur. Bundan əlavə kalium əksikliyi, bədəndə şiş yaranmasına və qan şəkərinin düşməsinə gətirib çıxaracağı üçün, bəhs olunan tarazlığın qorunması olduqca mühümdür.

Tərkibindəki B6 vitamini sayəsində, zülal və amin turşularının bir çox kimyəvi reaksiyaya girməsində banan, aktiv vəzifə alar. Həm də beynin normal funksiyalarını reallaşdırmasına köməkçi olar. Qırmızı qan hüceyrələrinin yaranmasını dəstəkləyər. Bununla yanaşı bədən mayeləri arasındakı kimyəvi tarazlığı təmin edər. Enerji istehsalına köməkçi olar və stressə qarşı iradə təmin edər. Tərkibində olan karbohidrat, yağ və zülalın metabolik əməliyyatları əsnasında köməkçi ferment funksiyası yerinə yetirər. Həm də bəzi anemiya (qansızlıq) növlərini müalicə edər. Hüceyrə və əzələ inkişafında və bədənin maye tarazlığının qorumasında aktiv rol oynayar. Ürək xəstəliklərində də, müalicə edici təsiri vardır. Tərkibindəki B6 vitaminin əskikliyində isə yorğunluq, şüur bulanıqlığı, əsəbilik, yuxusuzluq, qansızlıq, böyrək daşları və dəri toxumasının pozulması kimi xəstəliklər ortaya çıxar.

İnsanı yaradan Allah, bu meyvəni və ondakı faydaları da yaratmış, Qurandakı işarələrlə insanı bu faydalara yönəltmişdir. Allah bir ayəsində insana istədiyi, ehtiyac duyduğu hər şeyi verdiyini bildirmiş və nankor olmaqdan çəkinməsini xatırlatmışdır:

**O sizə istədiyiniz hər şeydən vermişdir. Əgər Allahın nemətlərini sayacaq olsanız, onları sayıb qurtara bilməzsiniz. Həqiqətən, insan çox zalım, çox nankordur. (İbrahim surəsi, 34)**

## Üzümün insan həyatındakı yeri

**Sonra həmin su ilə xurma ağaclarını və üzüm bağlarını sizin üçün yetişdirdik. Sizin üçün orada yediyiniz çoxlu meyvələr vardır. (Muminun surəsi, 19)**

Üzüm, qida dəyərinin yüksək olması, vitamin və mineral maddələr cəhətdən zənginliyi səbəbiylə əhəmiyyətli qida qaynağıdır. Üzümün içərisində 20-25% nisbətində qana sürətli qarışan şəkər mövcuddur. Bu baxımdan fiziki və zehni iş görən kəslər üçün olduqca faydalıdır; fiziki və zehni yorğunluğu, qansızlığı aradan qaldırar. Tərkibindəki bol dəmir və şəkər sayəsində, bədəndə qan istehsalını artırar. Bundan əlavə qaraciyər, böyrək və həzm sistemi xəstəliklərində təbii dərman təsirinə malikdir. Böyrəkləri işlədər, bədəndə yığılmış sidik cövhəri bənzəri tullantı maddələrin böyrəklər vasitəsilə xaric olmasını təmin edər. Eyni zamanda bədəndəki çoxlu suyu da xaric edərək, yüksək təzyiqi salar. Mədələrində xora və ya qastriti olan kəslərə, oynaq, incə bağırsaq iltihabı və revmatizmi olanlara, qaraciyər və dalağı şişmiş xəstələrə və zəhərlənənlərə üzüm suyu içmələri tövsiyə edilir. Bununla yanaşı ürək əzələlərini qüvvətləndirər. Bronxit və öskürəyə qarşı yaxşı təsirə malikdir. Qanı təmizləyərək, dərinin gözəlləşdirər. Üzüm suyu, süd ifrazatının artmasını təmin etdiyi üçün analara xüsusilə tövsiyə edilir. Üzümdə olan bəzi kimyəvi maddələr dəri xərçənginə tutulma ehtimalını azaldar.

## Kalium anbarı: Nar

**Talvar üzərində olan və talvarsız öz gövdəsi üzərində duran bağları, dadları müxtəlif olan xurma və dənli bitkiləri, bir-birinə bənzəyən və bənzəməyən zeytunu və narı yaradan Odur. Bar verdiyi zaman onların meyvəsindən yeyin, yığım günü zəkatını verin, lakin israf etməyin. Şübhəsiz ki, Allah israf edənləri sevmir. (Ənam surəsi, 141)**

Quran ayələrində adı çəkilən başqa meyvə də nardır. Nar, bol miqdarda kalium, fosfor, kalsium, dəmir, natrium kimi minerallar ilə A, B1, B2, B3 və C vitaminləri ehtiva edir. Tərkibindəki zəngin kalium, natrium ilə birlikdə əməliyyata girərək orqanizmin su

tarazlığını nizamlayar, ürəyin döyünməsini normallaşdırar. Bədəndəki kalium-natrium tarazlığını qoruyaraq, sinir sistemi və əzələlərin nizamlı işləməsinə kömək edər. Yenə kalium sayəsində, bədəndə şiş yaranmasına və qan şəkərinin düşməsinin qarşısını alar. Tərləmə səbəbiylə zəifləyən əzələləri canlandırar və onların daha asan hərəkət etməsini təmin edər. Bundan əlavə  narın ürəyi qüvvətləndirici təsiri də vardır.

## Quranda diqqət çəkilən şəfa qaynağı bitki: Zeytun

**Göydən suyu endirən Odur. Bu, həm sizin içməyiniz, həm də içində mal-qaranızı otardığınız otların bitməsi üçündür. Allah onunla sizin üçün dənli bitkilər, zeytun, xurma, üzüm və başqa meyvələrin hamısından yetişdirir. Həqiqətən, bunda anlayan adamlar üçün dəlillər vardır.** (Nəhl surəsi, 10-11)

Son illərdə aparılan tədqiqatlar, zeytunun yalnız ləzzətli qida deyil, bununla yanaşı əhəmiyyətli sağlamlıq qaynağı olduğunu da ortaya qoymuşdur. İçində olan linoleik turşu sayəsində uşaq əmizdirən analar üçün son dərəcə faydalı qidadır. Linoleik turşunun əksikliyi, körpədəki inkişafın zəifləməsinə və bəzi dəri xəstəliklərinin ortaya çıxmasına səbəb olar. Bundan əlavə sağlamlıq təşkilatları, (Dünya Sağlamlıq Təşkilatı/WHO) damar sərtliyi, şəkər xəstəliyi nisbətinin yüksək olduğu cəmiyyətlərdə istifadə edilən yağların içindəki yağ turşusunun ən az 30%-ni linoleik turşu olmasını təklif edirlər ki, bu da zeytunun dəyərini böyük ölçüdə artırır.

Zeytunun faydaları yalnız linoleik turşuyla məhdudlaşmır. Tərkibindəki xlor sayəsində də qaraciyərin işinə köməkçi olar və beləcə orqanizmin tullantılardan xilas olmasını asanlaşdırar. Bununla yanaşı skelet quruluşu üzərində çox müsbət qatqısı vardır, hüzur və uzun ömür baxımından istifadə edilməsi çox əhəmiyyətlidir. Həm də beyin arteriyalarının sağlamlığına da müsbət təsiri vardır.

Zeytunun insana təmin etdiyi bu faydalardan əlavə faydası da vardır. Zeytundan əldə edilən zeytun yağı da, əhəmiyyətli qida növüdür.

Zeytun yağı, digər qatı yağların əksinə, qandakı xolesterol nisbətini yüksəltmir, tam tərsinə nəzarət altında tutur. Bu xüsusiyyəti səbəbiylə, bütün mütəxəssislər tərəfindən ən çox tövsiyə edilən yağ növü olaraq bilinir. Həm də istər isti, istər soyuq həzm edilsin, zeytun yağı mədə turşusunu azaldaraq mədəni qastrit və xora kimi xəstəliklərə qarşı qoruyur.

Bununla yanaşı öd ifrazatını hərəkətə keçirərək, öd tərkibinin ən mükəmməl hala gəlməsini təmin edir. Öd kisəsinin boşalma əməliyyatını nizamlayır və öd daşı riskini azaldır.

Zeytun yağının tac (koronar) damar xəstəliyinin inkişafının qarşısını alan bəzi xüsusiyyətləri olduğu müəyyən olunmuşdur. Zeytun yağının qanda gəzən LDL adlı zərərli xolesterol səviyyəsini aşağı saldığı, HDL adlı faydalı xolesterol səviyyəsini isə yüksəltdiyi müəyyən olunmuşdur.

Tərkibindəki E, A, D, və K vitaminləri, uşaqların və yetkinlərin sümük inkişafına, minerallaşmasına köməkçi olması baxımından olduqca əhəmiyyətlidir, kalsiumu sabitləyərək sümükləri gücləndirər. Zeytun yağı, böyümə göstərən orqanizmlər üçün həyati əhəmiyyət daşıyır. Antioksidan elementlər və insan üçün böyük əhəmiyyət daşıyan linoleik turşu kimi yağ turşuları ehtiva edər ki, bunlar hormonlara dəstək olar və bioloji hüceyrə pərdəsi sintezinə də köməkçi olarlar. Bu vitaminlər eyni zamanda, hüceyrə yeniləyici xüsusiyyətlərə sahib olmalarından ötəri, yaşlılıq müalicəsində də istifadə edilər, dərini bəsləyər və qoruyar.

Doğum əvvəli və sonrasında körpə beyninin və sinir sisteminin təbii inkişafında iştirak etməsindən ötəri mütəxəssislər tərəfindən, analara təklif edilən tək yağ, yenə zeytun yağıdır. Ana südünə yaxın miqdarda linoleik turşu ehtiva etməklə birlikdə yağsız inək südünə zeytun yağı qatıldığında ana südü qədər təbii qida qaynağı xüsusiyyəti qazanar. Ancaq sağlamlıq sahəsindəki ən əhəmiyyətli xüsusiyyəti ürək və damar xəstəlikləri üzərində müsbət təsiridir. Zeytun yağı, bütün bu xüsusiyyətləri səbəbindən son illərdə mütəxəssislərin olduqca diqqətini çəkir.

## Quranda faydalarına diqqət çəkilən xurma

**Yer üzündə bir-birinə yaxın müxtəlif münbitli torpaq sahələri, üzüm bağları, əkinlər, şaxəli-şaxəsiz xurma ağacları vardır. Onlar eyni su ilə suvarılır. Lakin Biz yeyilməsinə görə onların birini digərindən üstün edirik. Doğrudan da, bunda başa düşən adamlar üçün dəlillər vardır. (Rad surəsi, 4)**

Xurma da, Allahın Quranda diqqət çəkdiyi meyvədir. İsti iqlimlərdə quru torpaqda yetişən bu meyvənin faydalarına, Quranın Məryəm surəsində də diqqət çəkilmişdir. Allah doğum sancısı çəkən hz. Məryəmə xurma yeməsini vəhy edərək, bu bitkidə gizlənən sağlamlıq verici xüsusiyyətinə işarə etmişdir:

**Məryəmin aşağı tərəfindən (İsa və ya Cəbrail) onu səsləyib dedi: “Qəm yemə, Rəbbin sənin ayağının altından bir bulaq axıtdı. Xurma ağacının gövdəsini özünə tərəf silkələ ki, üstünə yetişmiş, təzə xurma tökülsün. Ye, iç, gözün aydın olsun! ... (Məryəm surəsi, 24-26)**

Şübhəsiz, ayədə xüsusilə xurmaya diqqət çəkilməsi son dərəcə hikmətlidir. Bu istiqamətdə xurmanın xüsusiyyətlərini araşdırdığımızda, ayələrdə diqqət çəkilən hikməti daha yaxşı anlayarıq.

Xurma hər şeydən əvvəl 50%-dən çox şəkər ilə son dərəcə bəsləyici qida dəyərinə malikdir, yüksək kalori ilə fruktoza və qlükozadan ibarətdir. Çox asan və sürətli şəkildə həzm edilər. Tərkibindəki şəkər, gərilən sinirləri rahatlaşdırar, psixoloji güvən verər. Bundan əlavə doğum əsnasında yaranan qan itkisi bədən şəkərinin də düşməsinə səbəb olar. Buna görə bədənə təkrar şəkər qəbul olmasını təmin edilməsi əhəmiyyətlidir və xurma bu mövzuda fayda verər, təzyiq düşməsinə də mane olar. Məsələn, ət də faydalı qidadır ancaq xüsusilə belə dövrdə təzə xurma qədər fayda verməz. Hətta bu dövrdə bol zülal ehtiva edən ətin çox istehlak edilməsi bədəndə zəhərlənməyə də səbəb ola bilər. Həzmi asan olan, yüngül tərəvəz, meyvə növü yeməklərin seçimi daha uyğun seçimdir.

Hz. Məryəmlə əlaqədar ayənin işarə etdiyi istiqamətdə xurma, hamilələr və əmizdirən qadınlar üçün də çox faydalıdır. Uşağın ana qarnında yaxşı inkişafını təmin edər və ananın zəifləməsinin qarşısını alar. Ananın südü bol və bəsləyici olar.

Eyni zamanda beyin üçün də son dərəcə faydalıdır. 2.2% nisbətində zülal, A vitamini, B1 və B2 vitaminləri ehtiva edir. Tərkibindəki zülal sayəsində bədənin xəstəliklərə və infeksiyalara qarşı qorunmasını təmin edər, hüceyrələri yeniləyər və bədən mayesini tarazlayar. Tərkibindəki A vitamini sayəsində, görmə gücü ilə bədən müqavimətini artırar, sümük və dişlərin güclənməsini təmin edər. B1 vitamini ilə sinir sisteminin sağlam olmasını asanlaşdırar. Orqanizmin karbohidratları enerjiyə çevirməsinə köməkçi olar. Iştaha və həzmi nizamlayar. Orqanizmin zülal və yağı maddələr mübadiləsi kimyəvi prosesinə girməsini təmin edər. B2 vitamini ilə də, bədənin enerji təmin etməsi və hüceyrələrin yenilənməsi üçün zülal, karbohidrat və yağların yandırılmasına köməkçi olar.

Bununla birlikdə, kalium, natrium, kalsium, dəmir, manqan və mis kimi orqanizm üçün lazımlı olan minerallara malikdir. Tərkibindəki kaliumun natrium ilə birlikdə fəaliyyət göstərməsi nəticəsində ürək ritmlərini normallaşdırar. Kalium, beyinə oksigen getməsinə də köməkçi olaraq aydın düşünmə qabiliyyətini təmin edər. Bununla birlikdə, bədən mayeləri üçün uyğun alkalik xüsusiyyəti təmin edər. Bədənin zəhərli tullantılarını çölə atması üçün böyrəkləri xəbərdar edər. Yüksək qan təzyiqini salmağa kömək edər və sağlam dəri yaranmasını təmin edər.

Xurmanın maraqlı xüsusiyyəti də, yetişdiyi mühitdə insanlar üçün son dərəcə faydalı xüsusiyyətlər daşımasıdır. Tərkibindəki zülal və şəkər, xurmanın ümumiyyətlə yetişdiyi çöl mühiti üçün ən bəsləyici qida növləridir.

## Ana südünün faydalarını göstərən işarələr

**Biz insana ata-anasının qayğısına qalmağı əmr etdik. Anası onu bətnində gündən-günə zəiflədiyinə baxmayaraq daşımışdır. Onun süddən kəsilməsi isə iki il ərzində olur. Mənə və valideynlərinə şükür et! Axır dönüş Mənədir. (Loğman surəsi, 14)**

Ayədə diqqət çəkilən nöqtələrdən biri körpənin iki il boyunca ana südü ilə bəslənməsi ilə əlaqəlidir. Bilindiyi kimi ana südü körpənin bütün ehtiyacını qarşılayacaq xüsusiyyətdə olan qidadır. Allah, insanı hələ doğular doğulmaz, qoruma altına almış və ona dünya üzərində başqa heç bir qidadan əldə edə bilməyəcəyi qədər faydalı içəcək təqdim etmişdir.

Bu, körpə üçün son dərəcə həyati əhəmiyyət daşıyır çünki dünyaya gözlərini açdığı andan etibarən, bədəni artıq həyata uyğunlaşmaq məcburiyyətindədir. Və bu uyğunlaşma üçün də ilk şərt orqanizmin qüsursuz şəkildə bəslənərək güclənməsi və inkişafıdır.

Ana südü, tərkibindəki maddələr sayəsində həm yeni doğan körpə üçün mükəmməl qida qaynağıdır, həm də körpənin və ananın xəstəliklərə qarşı müqavimətini artırır. Həkimlər süni olaraq istehsal olan körpə yeməkləri ancaq südün qeyri-kafi olduğu vəziyyətlərdə istifadə edilməsi, uşağın xüsusilə ilk aylarda qəti olaraq ana südüylə bəslənməsi lazım olduğu mövzusunda həmfikirdirlər. Çünki körpə üçün, ana südünün yerini tam olaraq tutan, onunla eyni xüsusiyyətlərə sahib olan başqa qida yoxdur.

Bundan əlavə, son dərəcə möcüzəvi şəkildə hər ananın südü, körpənin ehtiyacına görə çıxarılar. Məsələn, erkən doğum etmiş anaların südləri, normal hamiləlik müddətini tamamlayan analarınkına nisbətlə çox daha fərqli və körpənin o an ehtiyaclarına cavab verə biləcək xüsusiyyətdədir.

Ana südünün başqa xüsusiyyəti də, antibakterial olmasıdır. Otaq istiliyində altı saat saxlanılan südlərdə bakteriyalar inkişaf edərək südü xarab etdiyi halda, bu müddət ərzində ana südündə bakteriya yaranmaz. Körpə tərəfindən son dərəcə asan həzm olan ana südünün mükəmməlliyinə dövrümüzün müasir texnologiyasının çıxardığı müasir körpə yeməklərinin heç biri çata bilməmişdir.

# QURANDA ESTETİKA VƏ SƏNƏT

Gözəlliklərdən və estetikadan zövq almaq insana aid xüsusiyyətdir. Allah insanın ruhunda, gözəlliyə qarşı həssaslıq hissi yaratmışdır. Ancaq, bu estetik anlayışının ortaya çıxması və inkişafı, insanın imanı və ağlı ilə doğru mütənasibdir.

Möminlər qarşılaşdıqları bütün gözəllikləri yaradanın Allah olduğunu bildikləri üçün, bu gözəlliklər qarşısında həyəcan duyarlar. Özlərinə bunların hamısını təqdim edən Allahın gücünü və sənətini gərəyi kimi təqdir edə bilməyə çalışarlar. Cənnətə qarşı duyduqları həsrət də, gözəlliklərdən zövq alma qabiliyyətlərini artırar. Allahın Quranda xəbər verdiyi cəhənnəm mühitini düşünüb müqayisə etdiklərində isə, ruha zövq verən estetikanın dəyərini daha yaxşı qavrayarlar.

Quranda iştirak edən cənnət haqqındakı ayələr də möminlər üçün yol göstərici xüsusiyyət daşıyır. Çünki cənnət ayələrində, Allahın möminlər üçün seçib bəyəndiyi, uyğun gördüyü qullarını bunlar ilə mükafatlandıracağını vəd etdiyi mühit ilə gözəllik və estetika anlayışı təsvir edilir. Mömin, Qurandakı bu işarələri dünya şərtlərində ola biləcək ən uyğun şəkildə həyata keçirərək, gözəlliklərlə dolu həyat modelinə çata bilər.

## Allahın təqdim etdiyi gözəlliklər

Allahın insanlara dünyada verdiyi saysız nemətlərdən biri də bəzək əşyalarıdır. Quranda bəhs edilən qızıl, gümüş zinət əşyaları, incilər, müxtəlif parçalar və bənzəri bir çox əşya, insana estetik olaraq zövq verərək Allahın yaratdığı gözəlliklərdəndir. Allahın cənnətdə səmimi qullarına mükafat olaraq verəcəyi bu gözəlliklərdən ayələrdə təriflə bəhs edilir:

**Onlar əyinlərinə taftadan və atlazdan yaşıl paltarlar geyəcəklər. Onların qoluna gümüş bilərziklər bağlanacaq... (İnsan surəsi, 21)**

Allah bu ayəsində ipək və atlas parçaların dəyərinə diqqət çəkmişdir. Ayədən aydın olduğu kimi, gümüş zinət əşyaları da Allahın insanlar üçün yaratdığı bəzək əşyalarındandır. Quranın bir çox ayəsində gümüş bilərziklərdən bəhs edilir.

Başqa bir ayədə də, qızıl bilərziklərin və incilərin gözəlliyinə işarə edilir:

**Həqiqətən də, Allah iman gətirib yaxşı işlər görənləri ağacları altından çaylar axan Cənnət bağlarına daxil edəcəkdir. Onlar orada qızıl bilərziklərlə və incilərlə bəzədiləcək, libasları da ipəkdən olacaqdır. (Həcc surəsi, 23)**

Allah incinin seçilmiş bəzək əşyası olduğuna diqqət çəkmiş və cənnətdə mükafat olaraq möminlərə veriləcəyini ifadə etmişdir.

Məhz Allahın təqdim etdiyi bütün bu gözəlliklərə qarşılıq insanın edəcəyi tək şey, Ona gərəyi kimi şükür etmək və Allahın istədiyi kimi həyat sürməkdir. İnsan, bunun qarşılığında cənnətlə mükafatlandırılacaq və sonsuza qədər tükənməyəcək nemətlərə və gözəlliklərə qovuşacaq. Əks halda isə, dünyada özünə təqdim edilən bu imkanlardan bəlkə keçici bir müddət faydalanacaq, amma bu faydalanma ona, etdiklərindən hesaba çəkiləcəyi hesab günündə heç bir fayda verməyəcək. Və sonsuza qədər qalmaq üzrə, tək bir gözəlliyin belə olmadığı cəhənnəmə atılacaq.

## Quranda təriflənən dekorasiya anlayışı

İnsanı "**ən gözəl surətdə**" yaradan Allah, ona estetikadan zövq almağı da öyrətmişdir. Canlıların içində, "**gözəl**" anlayışının fərqində olan tək varlıq insandır. İnsan, həm gözəl olan şeyləri sevər, həm də öz etdiyi şeylərdə estetik yön olması istəyi ilə hərəkət edib özü də gözəl şeylər ortaya çıxarmağa çalışar.

Quranın işarələriylə, estetik, gözəllik və incəliyə dair çox detal möminlər arasında da təşviq edilmişdir. Allah bir ayəsində, "**qulları üçün çıxardığı zinət və təmiz ruzilər**" üçün "**...dünya həyatında iman edənlər üçündür, qiyamət günü isə yalnız onlarındır...**" (Əraf surəsi, 32) deyə xəbər vermişdir.

Allahın ayəsində bildirdiyi kimi yer üzündəki bütün incəlik və gözəlliklər, onları təqdir edə bilən möminlər üçündür və bunlarla müqayisə edilməyəcək qədəri də axirətdə tək inananlara veriləcək.

Var olan hər gözəllik, hər şeyi yaradan Allahın məhsuludur. Buna görə mömin gözəllikdən təsirlənər, şükür edər və hər nemət onu Rəbbimizə daha da yaxınlaşdırar. Quranda hz. Süleymanın həyatı ilə əlaqədar verilən detallar bu mövzularda müxtəlif işarələr ehtiva edir. Hz. Süleyman, Allahın verdiyi zənginlikdən, gücdən və ehtişamdan çox zövq aldığını söyləyər və bunun səbəbini də belə açıqlayardı:

**O da demişdi ki: "Həqiqətən mən, mal (və ya at) sevgisini Rəbbimi zikr etməkdən ötəri sevdim..." (Sad surəsi, 32)**

Buradan aydın olduğu kimi, inanmayanlar üçün azdırıcı təsirə sahib olan mal, mülk, ehtişam və zənginlik, mömin üçün xeyir, gözəllik və Allahın razılığını qazanmaq, şükür etmək üçün vəsilədir.

Hz. Süleymanın düzəltdirdiyi əsərlər də onun sənət zövqünü ortaya çıxarır. Bu gün Qüdsdə olan və yalnız bir divarı sağlam qalan Süleyman Məbədi, Tövrat, İncil və Quran ilə o dövrə aid bütün tarixi sənəd və yazılarda bəhs edilən, görkəmli saray idi. Onu ziyarətə gələn Səba Məlikəsi saraya girdiyində yerin şüşədən olduğunu anlamamış, yeri su zənn etmişdi. Bu, insanların vərdiş etmədiyi texnika idi. Səba Məlikəsi saraydakı ehtişamı görüncə hz. Süleymanın ağlına, sənətinə, biliyinə təslim olmuş və iman etmişdi.

Hz. Süleyman hekayəsi möminlər üçün çox diqqət çəkici nümunədir. Müsəlmanların yer üzünü necə gözəl əsərlərlə təchiz edə biləcəklərini, sənətdə və estetikada necə inkişaf edə biləcəklərini göstərmək baxımından əhəmiyyətli dəlil meydana gətirir. Necə ki, yaxın tariximizdə də bu istiqamətdə hadisə reallaşdırılmışdır. Osmanlı İmperatorluğunda yaşanan ehtişam və sahib olduqları sənət anlayışı buna gözəl nümunədir. Osmanlı sənətini bu qədər qiymətli edən ən əhəmiyyətli ünsür, ilhamını şəxsən Qurandan alması, Allahın Quranda işarə etdiyi gözəllikləri istifadə etmiş olmasıdır.

Quranda dekorasiyada istifadə ediləcək incəliklərlə əlaqədar bir çox detal bildirilmiş, müxtəlif nümunələr verilmişdir. Evlərin üzərinə qurulduğu məkanlardan, daxili dekorasiyalara qədər insanın xoşuna gələcək nöqtələrə diqqət çəkilmişdir.

Allah xüsusilə cənnəti təsvir edən ayələrində bu istiqamətdə işarələr təqdim etmişdir. Çünki Allah, cənnəti insan ruhunun ən xoşlayacağı və ən təsirlənəcəyi vəsaitlərlə təchiz etmişdir. Quran ayələrində, cənnətdəki bu mühit detallı olaraq izah edilərkən, əslində insanlara dünyada da ən xoş məkanları necə əldə edə biləcəkləri mövzusunda yol göstərilir.

Quranda diqqət çəkilən və təriflənən dekorasiya nümunələrindən bəzilərini belə sıralaya bilərik:

## Yüksək tavanlar

**And olsun Beytulməmura! And olsun yüksək tavana! (Tur surəsi, 4-5)**

Yüksək tavanlı yerlər, içində olan insanlara fərahlıq və genişlik hissi verərlər. Estetik baxımdan da son dərəcə görkəmlidirlər. Bunun tam əksinə alçaq tavanlı yerlər də insanın ruhuna əziyyət verən yerlərdir. Hətta bu xüsusiyyətin cəhənnəmdə əzab növü olaraq istifadə ediləcəyi də olduqca diqqət çəkicidir. Cəhənnəmin təsvir edildiyi ayələrdə alçaq, dar və sıxılmış yerlərə diqqət çəkilməsi insanlara, dünyada da dar və alçaq mühitlərin seçilməyəcəyi yönündə işarələr təqdim edir ola bilər.

## Gümüş tavanlı məkanlar və yüksək nərdivanlar

**... evlərinin tavanlarını və çıxdıqları nərdivanları da gümüşdən edərdik; evlərinin qapılarını və söykəndikləri taxtları da. Üstəlik zinət də verərdik. Bütün bunlar sadəcə dünya həyatının keçici zövqüdür. Axirət isə sənin Rəbbinin yanında ancaq Allahdan qorxanlar üçündür. (Zuxruf surəsi, 33-35)**

Allahın gözəl olduğuna işarə etdiyi dekorasiya modellərindən biri də, gümüşdən tavanlar və yüksək nərdivanlardır. Yuxarıdakı ayələrdə Allah, bunları da "**cazibədar bəzəklərdən**" biri olaraq xarakterizə edərək son dərəcə qiymətli olduqlarına işarə etmişdir.

## Qapılar

**evlərinin qapılarını və söykəndikləri taxtları da. Üstəlik zinət də verərdik... (Zuxruf surəsi, 34-35)**

Yenə Zuxruf surəsindəki bu ayədə görülən "**evlərinin qapıları**" ifadəsi, qapıların da estetik və sənət baxımından əhəmiyyətli rol oynadığına diqqət çəkər. Funksional istifadəsi ilə yanaşı, gümüş, qızıl, şüşə bəzəklər ya da taxta oyma kimi müxtəlif vəsaitlərlə düzəldilən qapılar, evin giriş hissəsində və ya müxtəlif yerlərində aksesuar olaraq istifadə edilə bilərlər. Necə ki, Osmanlı sənətində bu tətbiq reallaşdırılmış və gözə son dərəcə xoş gələn müxtəlif ölçülərdə, naxışlarda qapılar sarayları, köşkləri, evləri bəzəmişdir.

## Sütunlar

**sütunlar sahibi İrəm qəbiləsinə - halbuki, yer üzündə onlar kimisi xəlq edilməmişdi. (Fəcr surəsi, 7-8)**

Quranda adı çəkilən Ad qövmünə aid İrəm şəhəri görkəmli arxitekturası və yüksək sütunlarının ehtişamıyla diqqət çəkmişdir. Quranda izah edilən bu hekayə “**yüksək sütunların**” gözəlliyinə və nümayişinə yönümlü məna ehtiva edir.

## Ləl-cavahiratla işlənmiş taxtlar

Cənnət ilə əlaqədar ayələrdə taxtlardan tez-tez bəhs edilir və taxtlar Allahın razı olduğu qullarına verdiyi mükafat olaraq tanıdılır:

**Orada hündür taxtlar, düzülmüş piyalələr, yan-yana qoyulmuş yastıqlar, və döşəmələrə sərilmiş xalçalar vardır. (Ğaşiyə surəsi, 13-16)**

Həm görünüş, həm də istifadədə rahatlıq baxımından taxtlar, insan üçün ideal oturma vasitələrindəndir. Bununla yanaşı, taxtları bəzəklərlə təchiz etmək və daha ehtişamlı hala gətirə bilmək də mümkündür. Buna nümunə olaraq bir ayədə belə bildirilir:

**Onlar bəzənmiş taxtlar üstündə qarşı-qarşıya əyləşib dirsəklənəcəklər. (Vaqiə surəsi, 15-16)**

Cənnətdə oturma yeri olaraq bildirilən başqa detal da, rahatlıqla söykənilə bilən kreslolar, taxtlar olmasıdır. Ayələrdə bu gözəllik və rahatlıq belə xəbər verilmişdir:

**Onlar orada taxtlar üzərində mütəkkələrə dirsəklənəcək və orada nə günəş, nə də şaxta görməyəcəklər. (İnsan surəsi, 13)**

**Həqiqətən də Cənnət əhli həmin gün nemətlər işində kef çəkəcək. Onlar zövcələri ilə birlikdə kölgəliklərdə taxtlara söykənəcəklər. (Yasin surəsi, 55-56)**

**qapıları onlar üçün açılmış Ədn bağları. Onlar orada taxtlara dirsəklənib... (Sad surəsi, 50-51)**

**Onlar səflərlə salınmış mütəkkələrə dirsəklənəcəklər... (Tur surəsi, 20)**

## Hündür döşəklər və naxışlarla işlənmiş atlasdan yataqlar

**və hündür döşəklər üstündə olacaqlar. (Vaqiə surəsi, 34)**

Allahın cənnətdə yer alacağını ifadə etdiyi yüksək yerlərdə qurulmuş taxtlar və sidr ağacları, alçaq yerə yerləşdirilənlərlə müqayisədə görünüşü çox daha geniş bucaqlı olarlar. Bu yöndən son dərəcə fərahladıcı xüsusiyyətə sahibdirlər.

**Onlar orada astarları atlazdan olan döşəklərə dirsəklənəcəklər. Hər iki bağın meyvələri onlara yaxın olacaqdır. Elə isə Rəbbinizin hansı nemətlərini yalan sayırsınız? (Rəhman surəsi, 54-55)**

Yuxarıdakı ayə, dekorasiyada istifadə edilən taxt, döşək, kreslo ya da yataq kimi naxışlarla işlənmiş atlas istifadə etmənin gözəlliyinə diqqət çəkmişdir. İpəyin daha ağır və qalın toxunmuş forması olan atlas, son dərəcə estetik parça növüdür. Atlasın naxışla, dəbdəbəli sap və motivlərlə işlənmiş olması, üzərinə sərildiyi taxtın ya da yatağın görünüşünü daha çox cəlb edici hala gətirəcək.

## Yaşıl yastıqlar

**Onlar yaşıl balışlara və gözəl döşəkcələrə dirsəklənəcəklər. Elə isə Rəbbinizin hansı nemətlərini yalan sayırsınız? (Rəhman surəsi, 76-77)**

Allahın Quranda bəhs etdiyi başqa gözəllik də yastıqlardır. Bu ayələrdə yastıqlarla yanaşı insan ruhuna hüzur və rahatlıq verdiyi bu gün elm tərəfindən də təsdiqlənən yaşıl rəngin əhəmiyyətinə də diqqət çəkilmişdir.

## Qızıl nimçələr və piyalələr

**Onlar üçün qızıl sinilər və piyalələr dolandırılacaqdır. Orada nəfslərin istədiyi və gözlərə xoş gələn hər şey olacaqdır. Siz orada əbədi qalacaqsınız. Xeyirxah əməllərinizin nəticəsi kimi varis olduğunuz Cənnət budur. (Zuxruf surəsi, 71-72)**

Allah cənnətdə ikram üçün istifadə edilən qabları da sənət və estetikayla yaradacağını bildirmişdir. Ayənin davamında da ifadə edildiyi kimi, bu vəsaitlər "**nəfslərin arzu etdiyi və gözlərin ləzzət aldığı**" nemətlərdir.

## Gümüşdən büllur qablar, piyalələr və qədəhlər

Cənnətdə qızıl məcməyilər və qızıl piyalələr yanında istifadə ediləcəyi bildirilən başqa ikram vəsaiti də, gümüşdən büllur qablar və qədəhlərdir. Cənnəti təsvir edən ayələrdə bu mövzu belə izah edilir:

**Onların ətrafına təamlarla dolu gümüşdən hazırlanmış qablar və büllur qədəhlər dolandırılacaq. Gümüşdən olan elə büllur qədəhlər ki, xidmətçilər onları cənnətdəkilərin içmək istədikləri həcmdə hazırlamışlar. (İnsan surəsi, 15-16)**

Həyatını Allahın istədiyi şəkildə keçirən kəslərə, sonsuz cənnət həyatı və orada nəfslərinə xoş gələcək sonsuz gözəllikdə nemətlərlə cavab veriləcək. Belə ki, möminlərə, köşkləriylə, bağçalarıyla, dekorasiyasıyla bənzərsiz mühitdə qızıl məcməyilər içərisində büllur qablarla, qədəhlərlə cənnətə xas bulaqlardan doldurulma içkilərlə sonsuza qədər xidmət ediləcək. Bir başqa ayədə də, möminlərə qədəhlərlə edilən ikrama diqqət çəkilir:

**Onlar taxtlar üstündə bir-biri ilə üzbəüz oturacaqlar. Onlar üçün çeşmə şərabı ilə dolu piyalələr dolandırılacaqdır. (Saffat surəsi, 44-45)**

Əlbəttə ki, bütün bunlar cənnətə xas və dünyadakılarla müqayisə edilə bilməyəcək gözəllikdə nemətlərdir. Ancaq Allah, qullarına dünyada da, cənnətdəkiləri xatırladan nemətlər və imkanlar təqdim etmişdir. Buna qarşılıq mömin ona verilən hər cür gözəlliyi təqdir edib, ondan zövq almaq və sonsuz ikram sahibi Rəbbimizə qarşı boyun əyici və şükür edici olmalıdır.

# QURANDA MƏKAN TƏSVİRLƏRİ

Tarix boyunca yaşamış bir çox peyğəmbərin, onların qövmlərinin və yaşadıqları yerlərin xəbərlərini Allah Quranda verir. Rəbbimiz bu məkanlarla əlaqədar detallar verir. Bundan əlavə insanlar üçün yaşamağa uyğun məskunlaşma sahələrinə diqqət çəkir. Hansı mühitin insan sağlamlığı üçün daha yaxşı və hansı iqlimin yaşamaq üçün daha əlverişli olduğuna işarə edir.

## Sığınmağa əlverişli yerlər

Hz. İsa və anası hz. Məryəmin yaşadıqları yer haqqında məlumat verən ayə, sığınmaq üçün əlverişli olan məkanın necə ola biləcəyinə dair işarələr verir:

**Biz Məryəm oğlunu və onun anasını bir möcüzə etdik. Onları əlverişli bir yerdə, çeşmə axan bir təpədə yerləşdirdik. (Muminun surəsi, 50)**

Hz. Məryəm, İsa peyğəmbəri dünyaya gətirdikdən sonra bu bölgəyə yerləşmişdir. Bu mühitin ən böyük üstünlüklərindən biri axar suyunun olmasıdır. Axar suyu olan bir yer əvvəlcə, insan üçün hər baxımdan həyati əhəmiyyət daşıyan "**suyun**" olduğu yer deməkdir. Belə yerləşmə mərkəzində isə həm bədən, həm də məkan təmizliyinin son dərəcə asan olacağı açıqdır. Təmizliklə yanaşı su, insan bədəninin funksiyalarını yerinə gətirə bilməsi üçün hər orqanın ehtiyac duyduğu həyati maddədir. Orqanizmin müəyyən müddət susuz qalması ölümə qədər gedən narahatlıqlarla nəticələnə bilər. Məhz axar su kənarlarındakı məskunlaşma mərkəzlərinin əhəmiyyətli faydası, insanın buralarda su ehtiyacını həm ən zəhmətsiz, həm də ən təmiz yollardan qarşılaya bilməsidir.

Suyu bol olan yerləşmə bölgəsinin əlbəttə daha başqa faydaları da vardır. Bunu, tarix boyunca axar su kənarlarına qurulmuş bir çox mədəniyyəti araşdırdığımızda görə bilərik. Bu mədəniyyətlər, axar suların təmin etdiyi müxtəlif asanlıqlardan faydalanmışlar.

Xüsusilə ayədə ifadə edildiyi kimi bir təpənin yanında axar su olması, suyun təpədən aşağıya doğru axışı boyunca hər cür yığını toplamasını və bütün bu yığdıqlarını buraxdığı nöqtədə də, mineral və qida baxımından son dərəcə zəngin orqanik və mineral torpaqlar meydana gəlməsini təmin edər. Bu da əkinçiliyin keyfiyyətinə və səmərəsinə müsbət istiqamətdə təsir edər. Torpağın zənginliyi ilə yanaşı, axar suyun təmin etdiyi başqa üstünlük də, sulama asanlığıdır. Sulama asanlığı sayəsində, vadi boyunca əkinçiliyə əlverişli ərazilər meydana gəlməsi mümkün olar. Belə imkan, əkinlərin daha sürətli böyüməsini və daha bərəkətli olmasını təmin edər. Suyun bolluğu və axış imkanının olması, axar su

kənarlarındakı məskunlaşma bölgələrində heyvandarlıq fəaliyyətlərinin edilməsini də asanlaşdırar.

Axar suların bütün mədəniyyətlər üçün kilid ünsür olmasının başqa səbəbi də, gəmiçilik, nəqliyyat və balıqçılıq kimi ticari və ictimai imkanların inkişafını mümkün etməsidir. Məsələn, Nil vadisində yerləşmiş Misirlilər bütün bu imkanları sonuna qədər istifadə etmiş və mədəniyyət baxımından o dövr üçün çox üstün səviyyələrə çatmağı bacarmışlar.

Bütün bu həyati, ictimai və ticari faydalardan başqa, axar suların estetik baxımdan meydana gətirdiyi gözəllik də ayrı nemətdir. Həm gözə, həm də qulağa xoş gələn bu su qaynaqları, gözəl mənzərələr meydana gətirərək, bu məskunlaşma mərkəzlərini son dərəcə dəyərli hala gətirirlər.

Yalnız bir neçə maddə olaraq sıraladığımız bu faydalar, suyun bol olduğu yerlərin, insanların sığınması üçün də ən əlverişli yerlər olduğunu ortaya qoyur. Məhz Allah hz. Məryəm və hz. İsanın məskunlaşma yerindən bəhs edərkən, belə məkanların faydalarına da işarə etmişdir.

## Allahın gözəlliyinə diqqət çəkdiyi mühitlər

Allah Quranda cənnətlə əlaqədar ayələrdə, insanlar üçün gözəlliklər ehtiva edən mühitlərə də diqqət çəkmişdir. Bu mühitlərdən biri də uzanan yaşıllıqlardır:

**Bu ikisindən başqa daha iki Cənnət bağı da vardır. Elə isə Rəbbinizin hansı nemətlərini yalan sayırsınız? Hər ikisi tünd yaşıldır. (Rəhman surəsi, 62-64)**

İnsanı Allah yaratmışdır və onun ruhuna zövq verəcək şeyləri də ən yaxşı Allah bilir. Məhz, uzanan yaşıllıqlara qarşı insanda yaranan zövq də bunun göstəricilərindən biridir.

**Lakin Rəbbindən qorxanları üst-üstə tikilmiş, altından çaylar axan otaqlar gözləyir. Bu, Allahın vədidir. Allah vədinə xilaf çıxmaz. (Zumər surəsi, 20)**

Altından çaylar axan yerlərə, Quranda cənnət təsvirlərinin edildiyi ayələrdə diqqət çəkilir. Cənnətdəki evlərin və köşklərin həmişə belə məkanlarda olduğu bildirilir. Allahın, razı olduğu qullarını cənnətdə altından çaylar axan məkanlarla mükafatlandırması, dünyada da buraların ən gözəl yerlər olduğuna açıq işarədir.

Quranda gözəlliyinə və üstünlüyünə diqqət çəkilən başqa gözəl məkan nümunəsi də müxtəlif məhsullarla bəzənmiş bağçalar və meyvə bağlarıdır. Allah qupquru torpaqdan hər biri bir-birindən gözəl olan, heyrətamiz qoxularda, rənglərdə və dadlarda meyvələr çıxardar. Bu meyvələrin budaqlarından sallandığı ağaclar və bu ağaclarla bəzənmiş bağçalar isə dünyada ola biləcək ən gözəl məkanlardandır. Məhz cənnətlə əlaqədar ayələrdə də bu bağçaların sonsuz həyatda nə qədər qüsursuz və görkəmli olacağı izah edilmişdir.

Ayələrdə diqqət çəkilən meyvə bağlarından bəziləri belədir:

**Göydən su endirən Odur. Biz onunla hər bir bitkini yetişdirdik, ondan yaşıl otlar bitirir, onlardan da üst-üstə düzülmüş dənələr çıxarırıq. Xurma ağacının tumurcuqlarından, sallanmış salxımlar yetişir. Biz həmçinin üzüm bağları, bir-birinə bənzəyən və bənzəməyən zeytun və nar ağacları da yetişdiririk. Bar verdiyi və yetişdiyi zaman onların meyvəsinə baxın. Şübhəsiz ki, bunlarda iman gətirən adamlar üçün dəlillər vardır. (Ənam surəsi, 99)**

Quranda "**tumurcuğundan yerə sallanmış salxımlar**" şəklində ifadə edilən xurma ağacları, həm görünüşlərinin, həm də ləzzətlərinin gözəlliyi ilə diqqət çəkir. Bununla yanaşı dadlarıyla və rəngləriylə müxtəlif üzüm bağları, zeytundan, nardan bağçalar, həqiqətən də məhsul verdiklərində və budaqlarında yetkinləşdiklərində heyrətamiz görünüşə bürünərlər.

# QEYDLƏR


1) Prof. Dr. Fehmi Tuncel, Elm Texniki Jurnalı, yanvar 1993

2) Barbara A. Brehm, Your Health and Fitness, Fitness Management Maqazinə, 1990

3) Kathleen Mullen, Some Benefits of Exercise, Medical Times c. Brown Publishers, 1986

4) Şəkilli Sağlamlıq Ensiklopediyası, Bilpa-İnkılap nəşrləri, cild 4, s. 476

5) Səhər Qəzeti, 25 dekabr 1997, Harvard Ünv. hazırladığı hesabatdan

6) Ana Britannica Ensiklopediyası, cild 8, s. 334

7) Təməl Brittannica Ensiklopediyası, cild 16, s. 212

8) Elm və Texniki Jurnalı, may 1984

9) Hürriyyət qəzeti, 19 oktyabr 1993

10) Böyük Laurausse Lüğət və Ensiklopediyası, Milliyyət Nəşrləri, cild 2, s. 786

11) Temel Britannica Ensiklopediyası, cild 2, s. 63

12) Th PDR Family Guide To Nutiro and Health, s. 596

13) Hürriyyət qəzeti, 6 mart 1999

14) Elm və Texniki Jurnalı, sentyabr 1998, s. 86

15) Dr. Mehmed Göbelez, Qidalarımız və Sağlamlığımız, Mars Mətbəəsi, Ankara: 1973, s. 72

16) Dr. Mehmed Göbelez, Qidalarımız və Sağlamlığımız, Mars Mətbəəsi, Ankara: 1973, s. 72

17) Dr. Mehmed Göbelez, Qidalarımız və Sağlamlığımız, Mars Mətbəəsi, Ankara: 1973, s. 72

18) Foods & Food Production Encylopedia, s. 16

19) Prof. Aişə Baysal, Bəslənmə, Hatipoğlu Nəşriyyat, Ankara: 1996, 6-cı nəşr, s. 108-109

20) Prof. Aişə Baysal, Bəslənmə, Hatipoğlu Nəşriyyat, Ankara: 1996, 6-cı nəşr, s. 204

21) Dr. Mehmed Göbelez, Qidalarımız və Sağlamlığımız, Mars Mətbəəsi, Ankara: 1973, s. 81

22) Elm Texniki Jurnalı, iyul 1987, s. 30 Qida Gündəliyi, Gülgün Qırğı

23 Dr. Mehmed Göbelez, Qidalarımız və Sağlamlığımız, Mars Mətbəəsi, Ankara: 1973, s. 81

24) Hürriyyət qəzeti, 19 mart 1999

25) Focus Jurnalı, mart 1999, sayı 3, s. 43

26) Dr. Mehmed Göbelez, Qidalarımız və Sağlamlığımız, Mars Mətbəəsi, Ankara: 1973, s. 88

27) Scientific Encyclopedia, s. 207

28) Muammer Kayahan, "Sağlam Həyat və Zeytun yağı", Elm Texniki Jurnalı, aprel 1995, s. 48

29) Muammer Kayahan, "Sağlam Həyat və Zeytun yağı", Elm Texniki Jurnalı, aprel 1995, s. 48

30) Muammer Kayahan, "Sağlam Həyat və Zeytun yağı", Elm Texniki Jurnalı, aprel 1995, s. 48

31) Lalə Toxgözoğlu, H. Ü. Tibb Fakültəsi Kardiyoloji Hissəsi, Elm Texniki Jurnalı, aprel 1995, s. 50

32) Hürriyyət, 14 may 1997, Ayşegül Qartal, Zeytun yağı Konqresi

33) Dr. Mehmed Göbelez, Qidalarımız və Sağlamlığımız, Mars Mətbəəsi, Ankara: 1973, s. 80

34) Dr. Mehmed Göbelez, Qidalarımız və Sağlamlığımız, Mars Mətbəəsi, Ankara: 1973, s. 80

35) The Independent Newspaper, 9 June 1995

# TƏKAMÜL YALANI

Darvinizm, yəni təkamül nəzəriyyəsi yaradılış həqiqətini inkar etmək məqsədilə irəli sürülmüş, ancaq uğursuzluqla nəticələnmiş elmdən kənar cəfəngiyatdan başqa bir şey deyil. Canlıların cansız maddələrdən təsadüfən əmələ gəldiyini iddia edən bu nəzəriyyə kainatda və canlılarda çox möcüzəvi nizam olduğunun elm tərəfindən sübut edilməsi ilə və təkamül prosesinin əsla baş vermədiyini göstərən 350 milyona yaxın fosilin tapılması ilə süqut etmişdir. Beləliklə, Allah'ın bütün kainatı və canlıları yaratdığı elm tərəfindən də sübut edilmişdir. Bu gün təkamül nəzəriyyəsini dirçəltmək üçün dünya səviyyəsində aparılan təbliğat sadəcə elmi həqiqətlərin təhrif olunmasına, tərəfli şərhinə, elm adı altında söylənilən yalan və saxtakarlıqlara əsaslanır.

Ancaq bu təbliğat həqiqəti gizlətmir. Təkamül nəzəriyyəsinin elm tarixində ən böyük xəta olması son 20-30 il ərzində elm dünyasında getdikcə daha ucadan dilə gətirilir. Xüsusilə 1980-ci illərdən sonra aparılan tədqiqatlar darvinist iddiaların tamamilə səhv olduğunu üzə çıxarmış və bu həqiqət bir çox elm adamı tərəfindən dilə gətirilmişdir. ABŞ-da biologiya, biokimya, paleontologiya kimi fərqli sahələrlə məşğul olan bir çox elm adamı darvinizmin əsassızlığını görür, canlıların mənşəyini artıq yaradılışla açıqlayırlar.

Təkamül nəzəriyyəsinin süqutundan və yaradılış dəlillərindən digər bir çox əsərimizdə bütün elmi təfərrüatları ilə bəhs etmişik və etməyə davam edirik. Ancaq əhəmiyyəti baxımından mövzudan burada da bəhs etməkdə fayda var.

## Darvini məhv edən çətinliklər

Təkamül nəzəriyyəsi tarixi qədim yunanlara gedib çıxan bir təlim olmasına baxmayaraq, XIX əsrdə hərtərəfli şəkildə irəli sürüldü. Nəzəriyyəni elm dünyasının gündəminə gətirən ən mühüm irəliləyiş Çarlz Darvinin 1859-cu ildə nəşr edilən "Növlərin mənşəyi" adlı kitabı idi. Darvin bu kitabda dünyadakı müxtəlif canlı növlərini Allah'ın ayrı-ayrı yaratdığına qarşı çıxırdı. Darvinin fikrincə, bütün növlər ortaq əcdaddan törəmiş və zaman ərzində kiçik dəyişikliklərlə müxtəlifləşmişdilər.

Darvinin nəzəriyyəsi heç bir konkret elmi tapıntıya əsaslanmırdı; özünün də qəbul etdiyi kimi, sadəcə bir məntiq yeritmə idi. Hətta Darvin kitabındakı "Nəzəriyyənin qarşısında duran çətinliklər" başlıqlı uzun bölmədə etiraf etdiyi kimi, nəzəriyyə bir çox mühüm suala cavab verə bilmirdi.

Darvin nəzəriyyəsinin qarşısındakı çətinliklərə inkişaf edən elmin üstün gələcəyinə, yeni elmi kəşflərin nəzəriyyəsini gücləndirəcəyinə ümid edirdi. Bunu kitabında tez-tez

bildirirdi. Ancaq inkişaf edən elm Darvinin ümidlərinin tam əksinə, nəzəriyyənin əsas iddialarını bir-bir əsassız qoydu.

Darvinizmin elm qarşısındakı məğlubiyyətini üç əsas başlıq altında təhlil etmək olar:

Nəzəriyyə həyatın yer üzündə ilk dəfə necə ortaya çıxdığını əsla açıqlaya bilmir.

Nəzəriyyənin irəli sürdüyü təkamül mexanizmlərinin, əslində, təkamül xarakterinə malik olduğunu göstərən heç bir elmi tapıntı yoxdur.

Fosillər təkamül nəzəriyyəsinin iddialarının tam əksini göstərir.

Bu bölmədə bu üç əsas başlığı əsaslı təhlil edəcəyik.

**Keçilməz ilk pillə: həyatın mənşəyi**

Təkamül nəzəriyyəsi bütün canlı növlərinin bundan təxminən 3.8 milyard il əvvəl dünyada fantastik şəkildə təsadüfən meydana gələn bircə canlı hüceyrədən törədiklərini iddia edir. Bircə hüceyrənin milyonlarla kompleks canlı növünü necə əmələ gətirməsi və əgər həqiqətən bu cür təkamül baş vermişsə, nə üçün izlərinin fosillərdə tapılmadığı nəzəriyyənin açıqlaya bilmədiyi suallardandır. Ancaq bütün bunlardan əvvəl iddia edilən təkamül prosesinin ilk pilləsi üzərində dayanmaq lazımdır. Həmin ilk hüceyrə necə ortaya çıxmışdır?

Təkamül nəzəriyyəsi cahilliklə yaradılışı inkar etdiyinə görə, həmin ilk hüceyrənin heç bir plan və nizam olmadan təbiət qanunları çərçivəsində təsadüfən meydana gəldiyini iddia edir. Yəni bu nəzəriyyəyə əsasən, cansız maddə kortəbii təsadüflər nəticəsində ortaya canlı hüceyrə çıxarmalıdır. Ancaq bu, məlum olan ən təməl biologiya qanunlarına zidd iddiadır.

**Həyat həyatdan gəlir**

Darvin kitabında həyatın mənşəyindən heç bəhs etməmişdi. Çünki onun dövründəki ibtidai elm anlayışı canlıların çox sadə quruluşa malik olduqlarını fərz edirdi. Orta əsrlərdən bəri "spontane generation" adlı nəzəriyyəyə əsasən, cansız maddələrin təsadüfən birləşərək canlı varlıq əmələ gətirməsinə inanırdılar. Bu dövrdə həşəratların yemək artıqlarından, siçanların da buğdadan əmələ gəlməsi geniş yayılmış düşüncə idi. Bunu sübut etmək üçün qəribə təcrübələr aparılmışdı. Çirkli əsginin üstünə bir az buğda qoyulmuş və bir müddət sonra bu qarışıqdan siçanların əmələ gəlməsini gözləmişdilər.

Ətin qurdlanması da həyatın cansız maddələrdən törədiyinə dəlil hesab edilirdi. Lakin daha sonra məlum olacaqdı ki, ətin üstündəki qurdlar öz-özlərindən əmələ gəlmirlər, milçəklərin gətirib qoyduğu gözlə görülməyən sürfələrdən çıxırdılar. Darvin "Növlərin

mənşəyi" adlı kitabını yazdığı dövrdə isə bakteriyaların cansız maddədən əmələ gəlməsi inancı elm dünyasında geniş şəkildə qəbul edilirdi.

Lakin Darvinin kitabının nəşr edilməsindən beş il sonra məşhur fransız bioloq Lui Paster təkamülə əsas verən bu inancı qəti şəkildə təkzib etdi. Paster apardığı uzun elmi fəaliyyət və təcrübələrdə gəldiyi nəticəni belə şərh etmişdi:

"Cansız maddələrin həyatı əmələ gətirməsi iddiası artıq qəti şəkildə tarixə gömülmüşdür". *(Sidney Fox, Klaus Dose, Molecular Evolution and The Origin of Life, New York: Marcel Dekker, 1977, səh. 2)*

Təkamül nəzəriyyəsinin tərəfdarları Pasterin kəşflərinə uzun müddət qarşı çıxdılar. Ancaq inkişaf edən elm canlı hüceyrəsinin mürəkkəb quruluşunu üzə çıxardıqca həyatın öz-özünə əmələ gəlməsi iddiasının əsassızlığı daha da açıq şəkil aldı.

## XX əsrdəki nəticəsiz səylər

XX əsrdə həyatın mənşəyi mövzusunu tədqiq edən ilk təkamülçü məşhur rus bioloq Aleksandr Oparin oldu. Oparin 1930-cu illərdə irəli sürdüyü bəzi tezislərlə canlı hüceyrəsinin təsadüfən meydana gələ biləcəyini sübut etməyə çalışdı. Ancaq bu fəaliyyətlər uğursuzluqla nəticələnəcək və Oparin bu etirafı etməli olacaqdı:

"Təəssüf ki, hüceyrənin mənşəyi təkamül nəzəriyyəsinin tamamilə əhatə edən ən qaranlıq nöqtədən ibarətdir". *(Alexander I. Oparin, Origin of Life, (1936) New York, Dover Publications, 1953 (Reprint), səh. 196)*

Oparinin yolunu davam etdirən təkamülçülər həyatın mənşəyi problemini həll etmək üçün təcrübələr aparmağa çalışdılar. Bu təcrübələrin ən məşhuru amerikalı kimyaçı Stenli Miller tərəfindən 1953-cü ildə aparıldı. Miller ibtidai atmosferdə mövcud olduğunu iddia etdiyi qazları bir təcrübədə birləşdirdi və bu qarışığa enerji verərək zülalları təşkil edən bir neçə üzvi molekul (amin turşusu) sintezlədi.

O illərdə təkamüllə bağlı mühüm mərhələ kimi tanıdılan bu təcrübənin əsassız olduğu və təcrübədə tətbiq edilən atmosferin yer şərtlərindən çox fərqli olduğu sonrakı illərdə üzə çıxacaqdı. *("New Evidence on Evolution of Early Atmosphere and Life", Bulletin of the American Meteorological Society, c. 63, Kasım 1982,* səh. 1328-1330)

Uzun sükutdan sonra Millerin özü də tətbiq etdiyi atmosfer mühitinin həqiqi olmadığını etiraf etdi. *(Stanley Miller, Molecular Evolution of Life: Current Status of the Prebiotic Synthesis of Small Molecules, 1986, səh. 7)*

Həyatın mənşəyi problemini açıqlamaq üçün XX əsr boyu göstərilən bütün təkamülçü səylər uğursuzluqla nəticələndi. San Diyeqo Skrips İnstitutundan məşhur geokimyaçı Cefri

Bada təkamülçü “Earth” jurnalında 1998-ci ildə dərc edilən bir məqalədə bu həqiqəti belə qəbul edir:

“Bu gün XX əsri arxada qoyarkən hələ də XX əsrin başlanğıcındakı ən böyük həll edilməmiş problemlə qarşı-qarşıyayıq: həyat yer üzündə necə başlayıb”. *(Jeffrey Bada, Earth, Şubat 1998, səh. 40)*

**Həyatın kompleks quruluşu**

Təkamülçülərin həyatın mənşəyi ilə bağlı bu qədər çıxılmaz vəziyyətə düşməsinin başlıca səbəbi ən sadə hesab etdikləri canlıların bu qədər mürəkkəb quruluşa malik olmasıdır. Canlı hüceyrəsi insanın hazırladığı bütün texnoloji məhsullardan daha mürəkkəbdir. Belə ki, bu gün dünyanın ən qabaqcıl laboratoriyalarında belə cansız maddələr birləşdirilərək nəinki canlı hüceyrə, hətta hüceyrəyə aid bircə zülal da hasil etmək mümkün deyil.

Bir hüceyrənin meydana gəlməsi üçün lazımlı şərtlər əsla təsadüflərlə açıqlanmayacaq qədər çoxdur. Lakin bunu açıqlamağa heç ehtiyac yoxdur. Təkamülçülər hələ hüceyrə səviyyəsinə çatmadan çıxılmaz vəziyyətə düşürlər. Çünki hüceyrənin əsasını təşkil edən zülalların təsadüfən sintezlənmə ehtimalı riyazi cəhətdən sıfırdır.

Bunun ən əsas səbəbi budur ki, bir zülalın əmələ gəlməsi üçün başqa zülallar da olmalıdır. Bu səbəb bir zülalın təsadüfən əmələgəlmə ehtimalını tamamilə aradan qaldırır. Ona görə, təkcə bu fakt təkamülçülərin təsadüf iddiasını təkzib etmək üçün kifayətdir. Mövzunun əhəmiyyətini qısaca açıqlayaq:

**- Fermentlər olmasa, zülal sintezlənə bilməz, fermentlər də zülaldır.**

**- Bircə zülalın sintezlənməsi üçün 100-ə yaxın hazır zülal olmalıdır. Ona görə, zülalların olması üçün zülallar lazımdır.**

**- Zülalları sintezləyən fermentləri DNT hazırlayır. DNT olmasa, zülal sintezlənə bilməz. Ona görə, zülalların əmələ gəlməsi üçün DNT də lazımdır.**

**-Zülal sintezləmə prosesində hüceyrədəki bütün orqanoidlərin mühüm funksiyaları var. Yəni zülalların əmələ gəlməsi üçün tam funksional hüceyrə bütün orqanoidləri ilə birlikdə mövcud olmalıdır.**

Hüceyrənin nüvəsində yerləşən, genetik məlumat daşıyan DNT molekulu isə informasiya bankıdır. İnsan DNT-sindəki informasiyanı kağıza köçürmək istəsək, hər biri 500 səhifədən ibarət 900 cildlik kitabxana ortaya çıxar.

Burada çox maraqlı dilemma da var: DNT ancaq bir sıra xüsusi zülalların (fermentlərin) köməyi ilə qoşalaşa bilər. Amma bu fermentlər də ancaq DNT-dəki

informasiya əsasında sintezlənir. Bir-birlərindən asılı olduqlarına görə, DNT-nin qoşalaşması üçün ikisi də eyni anda mövcud olmalıdır. Bu isə həyatın öz-özünə meydana gəlməsi ssenarisini çıxılmaz vəziyyətə salır. San Diyeqo Kaliforniya Universitetindən məşhur təkamülçü prof. Lesli Orcel "Scientific American" jurnalının 1994-cü il oktyabr sayında bu həqiqəti belə etiraf edir:

"Olduqca kompleks quruluşa malik olan zülalların və nuklein turşularının (RNT və DNT) eyni yerdə və eyni zamanda təsadüfən əmələ gəlmələri həddindən artıq ehtimaldan kənardır. Ancaq bunların biri olmadan digərini əldə etmək də mümkün deyil. Ona görə, insan məcburən həyatın kimyəvi yollarla meydana gəlməsinin tamamilə qeyri-mümkün olduğu nəticəsinə gəlir". *(Leslie E. Orgel, The Origin of Life on Earth, Scientific American, c. 271, Ekim 1994, səh. 78)*

Şübhəsiz ki, əgər həyatın kortəbii təsadüflərlə öz-özünə meydana gəlməsi mümkün deyilsə, onda həyatın yaradıldığı qəbul edilməlidir. Bu həqiqət əsas məqsədi yaradılışı inkar etmək olan təkamül nəzəriyyəsini açıq-aydın əsassız edir.

**Təkamülün xəyali mexanizmləri**

Darvinin nəzəriyyəsini əsassız edən ikinci əsas cəhət nəzəriyyənin təkamül mexanizmləri kimi irəli sürdüyü iki anlayışın da, əslində, heç bir təkamül gücünə malik olmamasıdır.

Darvin irəli sürdüyü təkamül iddiasını tamamilə təbii seleksiya mexanizmi ilə əlaqələndirmişdi. Bu mexanizmə verdiyi əhəmiyyət kitabının adından da açıq şəkildə başa düşülür: "Növlərin mənşəyi, təbii seleksiya yolu ilə..."

Təbii seleksiya təbii seçmə deməkdir, təbiətdəki həyat uğrunda mübarizədə təbii şərtlərə uyğun və güclü canlıların həyatda qalacağı düşüncəsinə əsaslanır. Məsələn, yırtıcı heyvanlar tərəfindən təhlükəyə məruz qalan bir maral sürüsündə daha sürətlə qaçan marallar həyatda qalacaq. Beləliklə, maral sürüsü sürətlə qaçan və güclü fərdlərdən ibarət olacaq. Amma bu mexanizm maralların təkamül keçirməsinə səbəb olmaz, onları başqa bir canlı növünə, məsələn, atlara çevirməz.

Ona görə, təbii seçmə mexanizmi heç bir təkamül gücünə malik deyil. Darvin də bu həqiqəti anlamışdı və "Növlərin mənşəyi" adlı kitabında: **"Faydalı dəyişikliklər baş vermədikcə təbii seçmə heç bir şey edə bilməz"**, – demək məcburiyyətində qalmışdı. *(Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 184)*

**Lamarkın təsiri**

Bəs bu faydalı dəyişikliklər necə baş verə bilərdi? Darvin öz dövrünün ibtidai elm anlayışı çərçivəsində bu suala Lamarka əsaslanaraq cavab verməyə çalışmışdı. Darvindən əvvəl yaşamış fransız bioloq Lamarka görə, canlılar həyatları boyu keçirdikləri fiziki dəyişiklikləri sonrakı nəslə ötürürlər, nəsildən-nəslə toplanan bu xüsusiyyətlər nəticəsində yeni növlər meydana gəlir. Məsələn, Lamarkın fikrincə, zürafələr ceyranlardan törəyiblər, hündür ağacların yarpaqlarını yeməyə çalışarkən nəsildən-nəslə boyunları uzanmışdır.

Darvin də buna bənzər misallar çəkmiş, məsələn, "Növlərin mənşəyi" kitabında qida tapmaq üçün suya girən bəzi ayıların tədricən balinalara çevrildiyini iddia etmişdi. (B. G. Ranganathan, Origins?, Pennsylvania: The Banner Of Truth Trust, 1988.)

Lakin Mendelin kəşf etdiyi və XX əsrdə inkişaf edən genetika elmi ilə qəti şəkildə sübut edilən genetika qanunları qazanılmış xüsusiyyətlərin sonrakı nəsillərə ötürülməsi əfsanəsini məhv etdi. Beləliklə, təbii seçmə "təkbaşına" və tamamilə təsirsiz mexanizm olaraq qaldı.

## Neodarvinizm və mutasiyalar

Darvinistlər isə bu vəziyyətə bir çıxış yolu tapmaq üçün 1930-cu illərin sonlarında müasir sintetik nəzəriyyəni və ya daha geniş yayılmış adı ilə neodarvinizmi ortaya atdılar. Neodarvinizm təbii seçmənin yanına faydalı dəyişiklik səbəbi kimi mutasiyaları, yəni canlıların genlərində radiasiya kimi xarici amillər və ya transkripsiya xətaları nəticəsində əmələ gələn pozulmaları əlavə etdi. Bu gün də elmi cəhətdən əsassız olduğunu bilmələrinə baxmayaraq, darvinistlər neodarvinist modeli müdafiə edirlər. Nəzəriyyə yer üzündəki milyonlarla canlı növünün, onların qulaq, göz, ağciyər, qanad kimi saysız-hesabsız mürəkkəb orqanlarının mutasiyalara, yəni genetik pozulmalara əsaslanan bir proses nəticəsində əmələ gəldiyini iddia edir. Amma nəzəriyyəni çarəsiz qoyan bir açıq elmi həqiqət var: mutasiyalar canlıları təkmilləşdirmirlər, əksinə, hər zaman canlılara zərər verirlər.

Bunun səbəbi çox sadədir: DNT çox mürəkkəb quruluşa malikdir. Bu molekula olan hər hansı təsadüfi təsir ancaq zərər verir. Amerikalı genetik B.G. Ranqanatan bunu belə açıqlayır:

"Mutasiyalar kiçik, təsadüfi və zərərlidirlər. Çox nadir meydana gəlirlər və ən yaxşı halda təsirsizdirlər. Bu üç xüsusiyyət mutasiyaların təkamül xarakterli təsir meydana gətirməyəcəyini sübut edir. Yüksək dərəcədə xüsusiləşmiş orqanizmdə meydana gələn təsadüfi dəyişiklik ya təsirsiz, ya da zərərli olur. Bir qol saatında meydana gələn təsadüfi dəyişiklik qol saatını təkmilləşdirməz. Ona böyük ehtimalla zərər verər və ya ən yaxşı halda təsir etməz. Bir zəlzələ bir şəhəri daha yaxşı hala salmaz, onu məhv edər". *(Charles Darwin,*

*The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 179)*

Bu günə qədər heç bir faydalı, yəni genetik məlumatı təkmilləşdirən mutasiya müşahidə edilməyib. Bütün mutasiyaların zərərli olması aşkar edilib. Aydın olmuşdur ki, təkamül nəzəriyyəsinin təkamül mexanizmi kimi göstərdiyi mutasiyalar, əslində, canlıları sadəcə məhv edən, şikəst edən genetik hadisələrdir (insanlarda mutasiyanın ən çox rast gəlinən təsiri xərçəngdir). Əlbəttə, məhvedici mexanizm təkamül mexanizmi ola bilməz. Təbii seçmə isə Darvinin də qəbul etdiyi kimi, tək başına heç bir şey edə bilməz. Bu həqiqət bizə təbiətdə heç bir təkamül mexanizminin olmadığını göstərir. Təkamül mexanizmi olmadığına görə, təkamül deyilən xəyali proses də baş verməyib.

**Fosillər: ara-keçid formalardan əsər-əlamət yoxdur**

Təkamül nəzəriyyəsinin iddia etdiyi prosesin baş vermədiyinin ən açıq göstəricisi isə fosillərdir.

Təkamül nəzəriyyəsinə görə, bütün canlılar bir-birlərindən törəyiblər. Əvvəlcədən mövcud olan bir canlı növü zaman ərzində digərinə çevrilmiş və bütün növlər bu şəkildə əmələ gəlmişlər. Nəzəriyyəyə əsasən, bu çevrilmə yüz milyon illər davam edən uzun dövrü əhatə etmiş və mərhələ-mərhələ irəliləmişdir. Bu təqdirdə iddia edilən uzun çevrilmə prosesi zamanı saysız-hesabsız ara növlər əmələ gəlməli və yaşamalıdırlar.

Məsələn, keçmişdə balıq xüsusiyyətlərini daşımalarına baxmayaraq, bir tərəfdən də bəzi sürünən canlı xüsusiyyətlərini qazanmış yarı-balıq, yarı-sürünən canlılar yaşamalıdır və ya sürünən xüsusiyyətlərini daşıyan, bir tərəfdən də bəzi quş xüsusiyyətləri qazanmış sürünən quşlar ortaya çıxmalıdır. Bunlar bir keçid prosesində olduqları üçün şikəst, yarımçıq, qüsurlu canlılar olmalıdır. Təkamülçülər keçmişdə yaşadığına inandıqları bu nəzəri məxluqları “ara-keçid forması” adlandırırlar.

Əgər, həqiqətən, bu cür canlılar keçmişdə yaşayıbsa, onların sayı və növü milyonlarla, hətta milyardlarla olmalıdır və bu əcaib canlıların qalıqlarına mütləq fosil izlərində rast gəlinməlidir. Darvin “Növlərin mənşəyi”ndə bunu belə açıqlamışdır:

“Əgər nəzəriyyəm doğrudursa, növləri bir-biri ilə əlaqələndirən saysız-hesabsız ara-keçid növləri keçmişdə mütləq yaşamalıdır... Onların yaşadığının dəlilləri də sadəcə fosil qalıqları arasında tapıla bilər”. *(Charles Darwin, The Origin of Species, səh. 172, 280)*

Ancaq bu sətirləri yazan Darvin ara-keçid formaların heç cür tapılmadığını bilir və bunun nəzəriyyəsi üçün böyük problem olduğunu görürdü. Ona görə, “Növlərin mənşəyi” kitabının “Nəzəriyyənin qarşısında duran çətinliklər” (Difficulties on Theory) adlı bölməsində belə yazmışdı:

"Əgər, həqiqətən, növlər digər növlərdən yavaş dəyişikliklərlə törəyibsə, nə üçün saysız-hesabsız ara-keçid formasına rast gəlmirik? Nə üçün bütün təbiət qarmaqarışıq vəziyyətdə deyil, məhz yerli-yerindədir? Saysız-hesabsız ara-keçid forması olmalıdır, bəs nə üçün yer üzünün çoxsaylı təbəqələrində onları tapmırıq?... Nə üçün hər geoloji forma və hər təbəqə belə qalıqlarla dolu deyil?" *(Charles Darwin, The Origin of Species, səh. 172, 280)*

## Darvinin puç olan ümidləri

Ancaq XIX əsrin ortasından indiyə qədər dünyanın hər tərəfində qızğın fosil araşdırmaları aparılmasına baxmayaraq, ara-keçid formalarına rast gəlinməmişdir. Aparılan qazıntı işlərində və tədqiqatlarda əldə edilən bütün tapıntılar təkamülçülərin gözlədiklərinin əksinə, canlıların yer üzündə birdən-birə, tam və qüsursuz formada ortaya çıxdıqlarını göstərmişdir.

Məşhur ingilis paleontoloq Derek V. Eycer təkamülçü olmasına baxmayaraq, bu həqiqəti belə etiraf edir:

"Problemimiz budur: fosilləri hərtərəfli tədqiq etdikdə növlər və ya siniflər səviyyəsində belə daima eyni həqiqətlə qarşılaşırıq; mərhələli təkamüllə təkmilləşən deyil, birdən-birə yer üzündə əmələ gələn qruplar görürük". (Derek A. Ager, "The Nature of the Fossil Record", Proceedings of the British Geological Association, c. 87, 1976, səh. 133)

Yəni fosil qeydlərində bütün canlı növləri aralarında heç bir keçid forması olmadan, tam formada ani surətdə ortaya çıxırlar. Bu, Darvinin fikirlərinin tam əksidir. Habelə, bu, canlı növlərinin yaradıldıqlarını göstərən çox güclü dəlildir. Çünki bir canlı növünün heç bir əcdadı olmadan, bir anda və qüsursuz şəkildə ortaya çıxmasının tək açıqlaması var: o növ yaradılmışdır. Bu həqiqət məşhur təkamülçü bioloq Duqlas Futuyma tərəfindən də qəbul edilir:

"Yaradılış və təkamül yaşayan canlıların mənşəyi haqqında iki yeganə açıqlamadır. Canlılar dünyada ya tamamilə mükəmməl və tam formada ortaya çıxmışlar, ya da belə olmamışdır. Əgər belə olmamışdırsa, bir dəyişiklik prosesi nəticəsində özlərindən əvvəl mövcud olan bəzi canlı növlərindən təkamül keçirərək meydana gəlməlidirlər. Amma əgər tam və mükəmməl formada ortaya çıxıblarsa, onda sonsuz güc sahibi olan bir ağıl tərəfindən yaradılmışlar". *(Douglas J. Futuyma, Science on Trial, New York: Pantheon Books, 1983. Səh. 197)*

Fosillər isə canlıların yer üzündə tam və mükəmməl formada ortaya çıxdıqlarını göstərir. Yəni "növlərin mənşəyi" Darvinin hesab etdiyinin əksinə, təkamül deyil, yaradılışdır.

**İnsanın təkamülü nağılı**

Təkamül nəzəriyyəsinin tərəfdarlarının ən çox gündəmə gətirdikləri məsələ insanın mənşəyidir. Bununla bağlı darvinist iddia bu gün yaşayan müasir insanın meymunabənzər məxluqlardan törədiyini zənn edir. 4-5 milyon il əvvəl başladığı fərz edilən bu prosesdə müasir insan ilə əcdadları arasında bəzi ara-keçid formaların yaşadığı iddia edilir. Əslində, tamamilə fantastik olan bu ssenaridə dörd əsas kateqoriya var:

*Australopithecus*

*Homo habilis*

*Homo erectus*

*Homo sapiens*

Təkamülçülər insanların ilk "meymunabənzər əcdadları"na "cənub meymunu" mənasını verən "australopithecus" adını veriblər. Bu canlılar, əslində, nəsli kəsilmiş meymun növüdür. Lord Solli Zukerman və prof. Çarlz Oksnard kimi İngiltərə və ABŞ-dan iki məşhur anatomun *australopithecus* nümunələri üzərində apardığı hərtərəfli araşdırmalar bu canlıların sadəcə nəsli kəsilmiş meymun növünə aid olduqlarını və insanlarla heç bir bənzərlik təşkil etmədiklərini göstərmişdir. *(Charles E. Oxnard, "The Place of Australopithecines in Human Evolution: Grounds for Doubt", Nature, c. 258, səh. 389)*

Təkamülçülər insanın təkamülünün sonrakı mərhələsini də "homo", yəni insan kimi təsnif edirlər. İddiaya əsasən, homo sırasındakı canlılar *australopithecus*lardan daha çox inkişaf ediblər. Təkamülçülər bu fərqli canlılara aid fosilləri ardıcıl düzərək fantastik təkamül sxemi qururlar. Bu sxem xəyalidir, çünki bu fərqli siniflərin arasında təkamül xarakterli əlaqə olması əsla sübut edilə bilməmişdir. Təkamül nəzəriyyəsinin XX əsrdəki ən mühüm tərəfdarlarından biri olan Ernst Mayr: "*Homo sapiens*ə uzanan zəncir halqası, əslində, itib", - deyərək bunu qəbul edir. *(J. Rennie, "Darwin's Current Bulldog: Ernst Mayr", Scientific American, Aralık 1992)*

Təkamülçülər "*ausrtalopithecus > homo habilis > homo erectus > homo sapiens*" ardıcıllığını qurarkən bu növlərin hər birinin daha sonrakının əcdadı olmasını irəli sürürlər. Lakin paleoantropoloqların son kəşfləri *australopithecus*, *homo habilis* və *homo erectus*un dünyanın müxtəlif bölgələrində eyni dövrlərdə yaşadıqlarını göstərir. *(Alan Walker, Science, c. 207, 1980, s. 1103; A. J. Kelso, Physical Antropology, 1. baskı, New York: J. B. Lipincott Co., 1970, s. 221; M. D. Leakey, Olduvai Gorge, c. 3, Cambridge: Cambridge University Press, 1971, səh. 272)*

Habelə, *homo erectus* sinfinə aid olan insanların bir qismi çox müasir dövrlərə qədər yaşayıblar, *homo sapiens neandertalensis* və *homo sapiens sapiens* (insan) ilə eyni mühitdə birlikdə mövcud olmuşlar. *(Time, noyabr 1996)*

Bu isə, əlbəttə, bu siniflərin bir-birilərinin əcdadı olduqları iddiasının əsassızlığını açıq şəkildə ortaya qoyur. Harvard Universitetinin paleontoloqlarından Stiven Cey Quld, təkamülçü olmasına baxmayaraq, darvinist nəzəriyyənin düşdüyü bu çıxılmaz vəziyyəti belə açıqlayır:

"Əgər bir-biri ilə paralel şəkildə yaşayan üç müxtəlif hominid (insanabənzər) sxemi varsa, onda bizim soy ağacımıza nə oldu? Aydındır ki, bunların biri digərindən törəyə bilməz. Habelə, biri digəri ilə müqayisə edildikdə təkamül xarakterli inkişaf meyli göstərmirlər". *(S. J. Gould, Natural History, c. 85, 1976, səh. 30)*

Qısaca desək, KİV-də və ya dərsliklərdə verilən bir cür fantastik yarı-meymun yarı-insan canlıların rəsmləri ilə, yəni sırf təbliğat yolu ilə dirçəldilməyə çalışılan insanın təkamülü ssenarisi heç bir elmi əsası olmayan nağıldan ibarətdir. Bu mövzunu uzun illər tədqiq edən, xüsusilə *australopithecus* fosilləri üzərində 15 il araşdırma aparan İngiltərənin ən məşhur və hörmətli elm adamlarından biri olan Lord Solli Zukerman təkamülçü olmasına baxmayaraq, meymunabənzər canlılardan insana uzanan nəsil ağacı olmadığı nəticəsinə gəlmişdir.

Zukerman maraqlı elm şkalası da qurmuşdur. Elmi hesab etdiyi elm sahələrindən elmdən kənar qəbul etdiyi elm sahələrinə qədər şaxəli cədvəl çəkmişdir. Zukermanın bu cədvəlində ən elmi, yəni konkret faktlara əsaslanan elm sahələri kimya və fizikadır. Cədvəldə bunlardan sonra bioloji elmlər, daha sonra sosial fənlər gəlir. Şaxələnmənin ən kənar ucunda, yəni elmdən kənar hesab edilən hissədə isə Zukermanın fikrincə telepatiya, altıncı hiss kimi hissin fövqündə olan qavrama anlayışları və bir də insanın "təkamülü" yerləşir! Zukerman şaxələnmənin bu ucunu belə açıqlayır:

"Obyektiv reallıq sahəsindən çıxıb bioloji elm fərz edilən bu sahələrə, yəni hissin fövqündə olan qavramaya və insanın fosil tarixinin şərh edilməsinə daxil olduqda, təkamül nəzəriyyəsinə inanan bir şəxs üçün hər şeyin mümkün olduğunu görürük. Belə ki, nəzəriyyələrinə qəti şəkildə inanan bu şəxslərin ziddiyyətli bəzi rəyləri eyni anda qəbul etmələri belə mümkündür". *(Solly Zuckerman, Beyond The Ivory Tower, New York: Toplinger Publications, 1970, səh. 19)*

İnsanın təkamülü nağılı da nəzəriyyələrinə kor-koranə inanan bir sıra insanların tapdıqları bəzi fosillər haqqında qabaqcadan rəy verərək şərh etmələrindən ibarətdir.

**Darvin formulu!**

İndiyə qədər təhlil etdiyimiz bütün dəlillərlə yanaşı, istəyirsinizsə, təkamülçülərin necə cəfəng inanca malik olduqlarına bir də uşaqların belə anlayacağı qədər açıq misalla baxaq.

Təkamül nəzəriyyəsi canlıların təsadüfən əmələ gəldiyini iddia edir. Ona görə, bu iddiaya əsasən, cansız və şüursuz atomlar birləşərək əvvəlcə hüceyrəni əmələ gətirmiş və sonra eyni atomlar birləşərək digər canlıları və insanı meydana gətirmişlər. İndi düşünək, canlıların əsasını təşkil edən karbon, fosfor, azot, kalium kimi elementləri birləşdirdikdə bir yığın əmələ gəlir. Bu atom yığını hansı prosesdən keçirilsə də, bircə canlı belə əmələ gətirməz. İstəyirsinizsə, bununla bağlı bir təcrübə keçirək və təkamülçülərin, əslində, müdafiə etdikləri, amma ucadan söyləyə bilmədikləri iddianı onların adından "Darvin formulu" adı ilə nəzərdən keçirək:

Təkamülçülər çoxlu sayda böyük çənin içinə canlıların əsasını təşkil edən fosfor, azot, karbon, oksigen, dəmir, maqnezium kimi elementlərdən bol miqdarda qoysunlar. Hətta normal şərtlərdə mövcud olmayan, ancaq bu qarışığın içində lazımlı bildikləri maddələri də bu çənlərə əlavə etsinlər. Qarışıqların içinə istədikləri qədər amin turşusu, istədikləri qədər də zülal doldursunlar. Bu qarışıqlara istədikləri nisbətdə temperatur və rütubət versinlər. Bunları istədikləri ən yaxşı texnoloji cihazlarla qarışdırsınlar. Çənlərin başında nəzarətçi kimi dünyanın qabaqcıl elm adamlarını qoysunlar. Bu mütəxəssislər atadan oğula, nəsildən-nəslə ötürülərək növbə ilə milyardlarla, hətta trilyonlarla il fasiləsiz çənlərin başında gözləsinlər. Bir canlının əmələ gəlməsi üçün hansı şərtlərin mövcud olmasını lazım bilirlərsə, hamısını tətbiq etsinlər. Ancaq nə etsələr də, o çənlərdən əsla bir canlı çıxara bilməzlər. Zürafələri, aslanları, arıları, bülbülləri, tutuquşuları, atları, delfinləri, gülləri, səhləb çiçəklərini, zanbaqları, qərənfilləri, bananları, portağalları, almaları, xurmaları, pomidorları, qovunları, qarpızları, əncirləri, zeytunları, üzümləri, şaftalıları, tovuz quşlarını, qırqovulları, rəngarəng kəpənəkləri və bunlar kimi milyonlarla canlı növündən heç birini əmələ gətirə bilməzlər. Nəinki burada sadaladığımız bir neçə canlını, bunların bircə hüceyrəsini belə əldə edə bilməzlər.

Qısaca desək, **şüursuz atomlar birləşərək hüceyrəni əmələ gətirə bilməzlər.** Sonra yeni qərar verərək bir hüceyrəni iki yerə bölüb, sonra ardıcıl başqa qərarlar verib elektron mikroskopunu icad edən, sonra öz hüceyrə quruluşunu bu mikroskop altında tədqiq edən professorları əmələ gətirə bilməzlər. **Maddə ancaq Allah'ın üstün yaratması ilə həyat qazanır.** Bunun əksini iddia edən təkamül nəzəriyyəsi isə ağıla tamamilə zidd cəfəngiyatdır. Təkamülçülərin ortaya atdığı iddialar üzərində bir az düşünmək yuxarıdakı misalda göstərildiyi kimi, bu həqiqəti üzə çıxarar.

### Göz və qulaqdakı texnologiya

Təkamül nəzəriyyəsinin qətiyyən açıqlaya bilmədiyi digər məsələ isə göz və qulaqdakı üstün duyğu keyfiyyətidir.

Gözlə bağlı mövzuya keçməzdən əvvəl "Necə görürük?" sualına qısaca cavab verək. Bir cisimdən gələn şüalar gözdə tor qişaya tərsinə düşür. Bu şüalar buradakı hüceyrələr tərəfindən elektrik siqnallarına çevrilir və beyinin arxa hissəsindəki görmə mərkəzi adlanan kiçik nöqtəyə ötürülür. Bu elektrik siqnalları bir sıra ardıcıl proseslərdən sonra beyindəki bu mərkəzdə görüntü kimi şərh edilir. Bu məlumatdan sonra düşünək: beyin işığa qapalıdır. Yəni beyinin içi qapqaranlıqdır, işıq beyinin yerləşdiyi yerə girə bilməz. Görmə mərkəzi adlanan yer qapqaranlıq, işığın düşmədiyi, bəlkə, heç qarşılaşmadığınız qədər qaranlıq yerdir. Ancaq siz bu zülmət qaranlıqda işıqlı, aydın dünyanı izləyirsiniz.

Üstəlik, bu, o qədər aydın və keyfiyyətli görüntüdür ki, XXI əsrin texnologiyası belə hər cür imkanı olmasına baxmayaraq, bu aydın görüntünü əldə edə bilmir. Məsələn, hal-hazırda oxuduğunuz kitaba, kitabı tutan əllərinizə baxın, sonra başınızı qaldırın və ətrafınıza baxın. Hal-hazırda gördüyünüz aydın və keyfiyyətli görüntünü başqa bir yerdə görmüsünüzmü? Bu qədər aydın görüntünü sizə dünyanın qabaqcıl televizor şirkətlərinin istehsal etdiyi təkmilləşdirilmiş televizor ekranı belə verə bilməz. 100 ildən bəri minlərlə mühəndis bu aydın görüntünü əldə etmək üçün çalışır. Bunun üçün fabriklər, böyük müəssisələr qurulur, tədqiqatlar aparılır, planlar və dizaynlar edilir. Bir televizor ekranına baxın, bir də hal-hazırda əlinizdə tutduğunuz bu kitaba. Arada böyük aydınlıq və keyfiyyət fərqi olduğunu görəcəksiniz. Həm də televizorun ekranı sizə iki ölçülü görüntü göstərir, lakin siz üç ölçülü, dərin perspektivi olan görüntü izləyirsiniz.

Uzun illərdən bəri on minlərlə mühəndis üç ölçülü televizor icad etməyə, gözün görmə keyfiyyətini əldə etməyə çalışırlar. Bəli, üç ölçülü televizor kimi sistem istehsal edə bildilər, amma onu da eynəksiz üç ölçülü görmək mümkün deyil, həm də bu, süni üçölçülü görüntüdür. Arxa tərəf daha bulanıq, ön tərəf isə kağız dekorasiya kimi görünür. Heç bir zaman gözün gördüyü qədər aydın və keyfiyyətli görüntü əmələ gəlmir. Kamerada da, televizorda da mütləq görüntü itkisi olur.

Təkamülçülər bu keyfiyyətli və aydın görüntünü əmələ gətirən mexanizmin təsadüfən əmələ gəldiyini iddia edirlər. İndi birisi sizə otağınızdakı televizorun təsadüflər nəticəsində əmələ gəldiyini, atomların birləşib bu görüntünü əmələ gətirən aləti meydana gətirdiyini desə, nə düşünərsiniz? Minlərlə insanın birlikdə edə bilmədiyini şüursuz atomlar necə etsin?

Gözün gördüyündən daha bəsit görüntünü əmələ gətirən alət təsadüfən əmələ gəlmirsə, gözün və gözün gördüyü görüntünün də təsadüfən meydana gəlməyəcəyi çox açıqdır. Eyni vəziyyət qulağa da aiddir. Xarici qulaq ətrafdakı səsləri qulaq seyvanı vasitəsilə toplayıb daxili qulağa ötürür; daxili qulaq da bu titrəyişləri elektrik impulslarına çevirərək

beyinə göndərir. Eynilə görmədə olduğu kimi, eşitmə prosesi də beyindəki eşitmə mərkəzində həyata keçir.

Göz üçün dediklərimiz qulağa da aiddir, yəni beyin işıq kimi səsə də qapalıdır, səs keçirmir. Ona görə, xarici aləm nə qədər səs-küylü olsa da, beyinin içi tamamilə səssizdir. Buna baxmayaraq, ən aydın səslər beyində eşidilir. Səs keçirməyən beyninizdə orkestr simfoniyaları dinləyir, ətraf mühitin bütün səs-küyünü eşidirsiniz. Ancaq həmin anda həssas bir cihazla beyninizin içindəki səs səviyyəsi ölçülsə, burada səssizliyin hakim olduğu məlum olacaqdır. Aydın görüntü əldə etmək ümidi ilə texnologiyadan necə istifadə edilirsə, səs üçün də eyni səylər on illərdən bəri davam etdirilir. Səsyazma cihazları, musiqi mərkəzləri, bir çox elektron alət, səs qəbul edən musiqi sistemləri bu fəaliyyətlərin nəticələrindən bəziləridir. Ancaq bütün texnologiyaya və bu sahədə minlərlə mühəndis və mütəxəssis işləməsinə baxmayaraq, qulağın əmələ gətirdiyi qədər aydın və keyfiyyətli səs əldə edilməmişdir. Ən böyük musiqi sistemi şirkətinin istehsal etdiyi ən keyfiyyətli musiqi mərkəzini düşünün. Səsi qeyd etdikdə mütləq səsin bir hissəsi itir, az da olsa təhrif olur və ya musiqi mərkəzini işə saldıqda hələ musiqi çalmazdan əvvəl mütləq bir cızıltı eşidirsiniz. Ancaq insan orqanizmindəki texnologiyanın məhsulu olan səslər olduqca aydın və qüsursuzdur. İnsan qulağı heç vaxt musiqi mərkəzində olduğu kimi cızıltılı və ya təhrif olunmuş şəkildə səs eşitmir; səs necədirsə, tam və aydın şəkildə onu eşidir. Bu, insan yaradıldığı gündən bəri belədir. İndiyə qədər insanın istehsal etdiyi heç bir görüntü və səs cihazı göz və qulaq qədər həssas və keyfiyyətli qəbuledici olmamışdır. Ancaq görmə və eşitmə hadisəsində bütün bunların fövqündə duran çox böyük həqiqət də var.

### Beyinin içində görən və eşidən şüur kimə aiddir?

Beyinin içində parlaq, rəngli dünyanı izləyən, simfoniyaları, quşların civiltilərini dinləyən, gülü qoxulayan kimdir?

İnsanın gözlərindən, qulaqlarından, burnundan gələn siqnallar elektrik impulsu kimi beyinə ötürülür. Biologiya, fiziologiya və ya biokimya kitablarında bu görüntünün beyində necə əmələ gəlməsinə dair bir çox şey oxuyursunuz. Ancaq bu mövzu haqqında ən mühüm həqiqətə heç bir yerdə rast gələ bilməzsiniz: beyində bu elektrik impulslarını görüntü, səs, qoxu və hiss kimi qavrayan kimdir? Beyinin içində gözə, qulağa, buruna ehtiyac hiss etmədən bütün bunları qavrayan bir şüur var. Bu şüur kimə aiddir?

Əlbəttə, bu şüur beyini təşkil edən sinirlər, yağ təbəqəsi və sinir hüceyrələrinə aid deyil. Elə buna görə, hər şeyin maddədən ibarət olduğunu zənn edən darvinist-materialistlər bu suallara heç cür cavab verə bilmirlər. Çünki bu şüur Allah’ın yaratdığı

ruhdur. Ruhun görüntünü izləmək üçün gözə, səsi eşitmək üçün qulağa ehtiyacı yoxdur. Eyni zamanda, düşünmək üçün beyinə də ehtiyacı yoxdur.

Bu açıq və elmi həqiqəti oxuyan hər insan beyinin içindəki bir neçə $sm^3$-lik, qapqaranlıq yerə bütün kainatı üçölçülü, rəngli, kölgəli və işıqlı şəkildə sığışdıran uca Allah'ı düşünüb, Ondan qorxub Ona sığınmalıdır.

**Materialist inanc**

Bura qədər təhlil etdiklərimiz təkamül nəzəriyyəsinin elmi kəşflərə zidd iddia olduğunu göstərir. Nəzəriyyənin həyatın mənşəyi haqqındakı iddiası elmə ziddir, irəli sürdüyü təkamül mexanizmlərinin heç bir təkamül gücü yoxdur və fosillər nəzəriyyənin iddia etdiyi ara keçid formalarının yaşamadığını göstərir. Bu təqdirdə, əlbəttə, təkamül nəzəriyyəsi elmə zidd fərziyyə kimi bir kənara qoyulmalıdır. Belə ki, tarix boyu dünya mərkəzli kainat modeli kimi bir çox düşüncə tərzi elmin gündəmindən çıxarılmışdır. Ancaq təkamül nəzəriyyəsi təkidlə elmin gündəliyində saxlanılır. Hətta bəzi insanlar nəzəriyyənin tənqid edilməsini elmə təcavüz kimi göstərməyə çalışırlar. Axı niyə? Bunun səbəbi təkamül nəzəriyyəsinin bəzi kütlələr üçün əl çəkilməz doqmatik inanc olmasıdır. Bu kütlələr materialist fəlsəfəyə kor-koranə bağlıdırlar və darvinizmi də təbiət haqqında yeganə materialist açıqlama olduğu üçün mənimsəyiblər. Bəzən bunu açıq şəkildə etiraf edirlər. Harvard Universitetindən məşhur genetik və eyni zamanda, qabaqcıl təkamülçülərdən olan Riçard Levontin əvvəlcə materialist, sonra elm adamı olduğunu belə etiraf edir:

"Bizim materializmə bir inancımız var, bu "a priori" (əvvəlcədən qəbul edilmiş, doğru fərz edilmiş) inancdır. Bizi dünya haqqında materialist açıqlama verməyə məcbur edən şey elmi metodlar və qanunlar deyil. Əksinə, materializmə olan "a priori" bağlılığımız səbəbi ilə dünya haqqında materialist açıqlama verən tədqiqat metodları və anlayışlarını uydururuq. Materializm mütləq doğru olduğuna görə də İlahi açıqlamanın səhnəyə çıxmasına icazə verə bilmərik". *(Richard Lewontin, "The Demon-Haunted World", The New York Review of Books, 9 Ocak, 1997, səh. 28)*

Bu sözlər darvinizmin materialist fəlsəfəyə bağlılıq uğrunda davam etdirilən bir doqma olduğunun açıq ifadəsidir. Bu doqma maddədən başqa heç bir varlıq olmadığını qəbul edir. Bu səbəbdən də cansız, şüursuz maddənin həyatı əmələ gətirdiyinə inanır. Milyonlarla müxtəlif canlı növünün, məsələn, quşların, balıqların, zürafələrin, pələnglərin, həşəratların, ağacların, çiçəklərin, balinaların və insanların maddənin öz daxilindəki reaksiyalarla, yəni yağan yağışla, çaxan şimşəklə, cansız maddədən əmələ gəldiyini qəbul edir. Əslində isə bu, həm ağıla, həm də elmə ziddir. Amma darvinistlər Allah'ın açıq-aşkar varlığını qəbul etməmək üçün bu ağıldan və elmdən kənar fikri cahilliklə müdafiə etməkdə davam edirlər.

Canlıların mənşəyinə materialist düşüncə ilə baxmayan insanlar isə bu açıq həqiqəti görəcəklər: bütün canlılar üstün güc, bilik və ağıla malik olan Yaradanın əsəridir. Yaradan bütün kainatı yoxdan var edən, ən qüsursuz şəkildə nizama salan və bütün canlıları yaradan Allah'dır.

**Təkamül nəzəriyyəsi dünya tarixinin ən təsirli sehridir**

Burada bunu da bildirmək lazımdır ki, heç bir ideologiyanın təsiri altında qalmadan, sadəcə ağlını və məntiqini işlədən hər insan elm və mədəniyyətdən uzaq xalqların xurafatlarını xatırladan təkamül nəzəriyyəsinə inanmağın qeyri-mümkün olduğunu asanlıqla anlayacaqdır.

Yuxarıda da bildirildiyi kimi, təkamül nəzəriyyəsinə inananlar böyük bir çənin içinə bir çox atomu, molekulu, cansız maddəni dolduran və bunların qarışığından zaman ərzində düşünən, dərk edən, kəşflər edən professorların, universitet tələbələrinin, Eynşteyn, Habl kimi elm adamlarının, Frank Sinatra, Çarlton Heston kimi aktyorların, bununla yanaşı, ceyranların, limon ağaclarının, qərənfillərin çıxacağına inanırlar. Həm də bu cəfəng iddiaya inananlar elm adamları, professorlar, mədəniyyətli, təhsilli insanlardır. Bu səbəbdən, təkamül nəzəriyyəsi haqqında dünya tarixinin ən böyük və ən təsirli sehri ifadəsini işlətmək yerinə düşər. Çünki dünya tarixində insanların bu dərəcədə ağlını başından alan, ağıl və məntiqlə düşünmələrinə imkan verməyən, gözlərinin qarşısına sanki bir pərdə çəkib çox açıq olan həqiqətləri görmələrinə mane olan başqa inanc və ya iddia yoxdur. Bu, afrikalı bəzi qəbilələrin totemlərə, Səba xalqının Günəşə tapınmasından, hz. İbrahimin qövmünün düzəltdikləri bütlərə, hz. Musanın qövmünün qızıldan düzəltdikləri buzova tapınmalarından daha qorxulu və ağlasığmaz korluqdur. Əslində, bu vəziyyət Allah'ın Quranda işarə etdiyi ağılsızlıqdır. Allah bəzi insanların anlayışlarının bağlı olacağını və həqiqətləri görməkdən məhrum olacağını bir çox ayəsində bildirir. Bu ayələrdən bəziləri belədir:

**Həqiqətən, kafirləri əzabla qorxutsan da, qorxutmasan da, onlar üçün birdir, iman gətirməzlər. Allah onların ürəyinə və qulağına möhür vurmuşdur. Gözlərində də pərdə vardır. Onları böyük bir əzab gözləyir! (Bəqərə surəsi, 6-7)**

**... Onların qəlbləri vardır, lakin onunla anlamazlar. Onların gözləri vardır, lakin onunla görməzlər. Onların qulaqları vardır, lakin onunla eşitməzlər. Onlar heyvan kimidirlər, bəlkə də, daha çox zəlalətdədirlər. Qafil olanlar da məhz onlardır! (Əraf surəsi, 179)**

Allah "Hicr" surəsində də bu insanların möcüzələr görsələr də, inanmayacaq qədər sehrləndiklərini belə bildirir:

**Əgər onlara göydən bir qapı açsaq və oradan durmadan yuxarı dırmaşsalar yenə də: "Gözümüz bağlanmış, biz sehrlənmişik", – deyərlər. (Hicr surəsi, 14-15)**

Bu qədər geniş kütləyə bu sehrin təsir etməsi, insanların həqiqətlərdən bu qədər uzaq saxlanması və 150 ildən bəri bu sehrin pozulmaması isə sözlə ifadə edilməyəcək qədər heyrətli vəziyyətdir. Çünki bir və ya bir neçə insanın qeyri-mümkün ssenarilərə, cəfəng və məntiqsiz iddialara inanmalarını anlamaq olar. Ancaq dünyanın hər tərəfindəki insanların şüursuz və cansız atomların ani qərarla birləşib qeyri-adi mütəşəkkillik, nizam, ağıl və şüur nümayiş etdirərək qüsursuz sistemlə işləyən kainatı, həyat üçün uyğun hər cür xüsusiyyətə malik olan Yer planetini və saysız-hesabsız kompleks sistemdən ibarət canlıları meydana gətirdiyinə inanmasının sehrdən başqa heç bir açıqlaması yoxdur.

Allah Quranda inkarçı fəlsəfənin tərəfdarı olan bəzi şəxslərin etdikləri sehrlərlə insanlara təsir etdiklərini hz. Musa ilə firon arasında baş verən bir hadisə ilə bizə bildirir. Hz. Musa firona haqq dini təbliğ etdikdə firon hz. Musaya öz bilici sehrkarları ilə insanların toplaşdığı bir yerdə qarşılaşmasını söyləyir. Hz. Musa sehrkarlarla qarşılaşdıqda əvvəlcə onların bacarıqlarını göstərməsini əmr edir. Bu hadisənin danışıldığı ayə belədir:

**(Musa:) "Siz atın", – dedi. Onlar (əsalarını yerə) atdıqda, adamların gözlərini bağlayıb (sehrləyib) onları qorxutdular və böyük bir sehr göstərdilər. (Əraf surəsi, 116)**

Göründüyü kimi, fironun sehrkarları hz. Musa və ona inananlardan başqa insanların hamısını sehrləyə bilmişdilər. Ancaq onların atdıqlarına qarşı hz. Musanın ortaya qoyduğu dəlil onların bu sehrini, ayədəki ifadə ilə uydurduqlarını udmuş, yəni təsirsiz etmişdir:

**Biz də Musaya: "Əsanı tulla!" – deyə vəhy etdik. Bir də (baxıb gördülər ki,) əsa onların uydurub düzəltdikləri bütün şeyləri udur. Artıq haqq zahir, onların uydurub düzəltdikləri yalanlar isə batil oldu. (Sehrbazlar) orada məğlub edildilər və xar olaraq geri döndülər. (Əraf surəsi, 117-119)**

Ayələrdə də bildirildiyi kimi, əvvəllər insanlara sehrləyərək təsir göstərən bu şəxslərin etdiklərinin saxtakarlıq olmasının başa düşülməsi ilə sözügedən şəxslər alçalmışlar. Dövrümüzdə də bir sehrin təsiri ilə elmilik adı altında olduqca cəfəng iddialara inanan və bunları müdafiə etmək üçün həyatlarını qurban verənlər əgər bu iddialardan əl çəkməsələr, həqiqətlər tam mənası ilə üzə çıxdıqda və sehr pozulduqda alçalacaqlar. Belə ki, təqribən 60 yaşına qədər təkamülü müdafiə edən və ateist filosof olan, ancaq sonradan həqiqətləri görən Malkolm Maqeric təkamül nəzəriyyəsinin yaxın gələcəkdə düşəcəyi vəziyyəti belə açıqlayır:

**"Mən özüm təkamül nəzəriyyəsinin xüsusilə tətbiq edildiyi sahələrdə gələcəyin tarix kitablarındakı ən böyük yumor hədəflərindən biri olacağına inandım.** Gələcək nəsillər bu qədər çürük və qeyri-müəyyən hipotezin inanılmaz saflıqla qəbul edilməsini heyrətlə

qarşılayacaqlar”. *(Malcolm Muggeridge, The End of Christendom, Grand Rapids: Eerdmans, 1980, səh. 43)*

Bu gələcək uzaq deyil, əksinə, çox yaxın gələcəkdə insanlar “təsadüf”lərin ilah olmasının mümkünsüzlüyünü anlayacaqlar və təkamül nəzəriyyəsi dünya tarixinin ən böyük yalanı və ən güclü sehri kimi tərif ediləcəkdir. Bu güclü sehr böyük sürətlə dünyanın hər tərəfində insanlar üzərində təsirini itirməyə başlamışdır. Təkamül yalanının sirrinin öyrənən bir çox insan bu yalana necə aldandığını heyrət və təəccüblə qarşılayır.

**...Sənin bizə öyrətdiklərindən başqa bizdə heç bir bilik yoxdur!**

**Həqiqətən, Sən bilənsən, müdriksən!**

**(Bəqərə surəsi, 32)**

Quranın insan həyatına təqdim etdiyi gözəlliklərdən xəbərdarsınızmı? Allahın bütün insanlara göndərdiyi Kitabı nə qədər tanıyırsınız?

Quranda insanlara, niyə yaradıldıqları, hansı məqsədə görə var edildikləri, bu məqsəd istiqamətində necə yaşamaları lazım olduğu, qulluq vəzifəsini nə şəkildə yerinə yetirəcəkləri və bunu etdikləri ya da etmədikləri təqdirdə özlərini necə sonun gözlədiyi bildirilir. İnsanlar, gözələ, doğruya, təmizə və əbədi xoşbəxtliyə çağırılır. Quran, Allahın qullarına rəhmət, hidayət, rəhbər olaraq göndərdiyi haqq kitabdır. Allah Quranın bu xüsusiyyətlərini bir çox ayəsində bildirir:

Onların rəvayətlərində ağıl sahibləri üçün bir ibrət vardır. Bu Quran uydurulmuş bir kəlam deyildir. Ancaq özündən əvvəlkiləri təsdiqləyən və hər şeyi müfəssəl izah edəndir; iman gətirən bir camaat üçün hidayət və mərhəmətdir. (Yusif surəsi, 111)